RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 159 (9038) ŞƏNBƏ, 30 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Azərbaycan sürətlə müasir sənaye ölkəsinə çevrilir

## Ölkəmizdə sənayenin ÜDM-dəki payı 40 faizdən çox olduğu halda, dünya üzrə bu rəqəm 25 faizdən azdır

**Dünyanın keçdiyi yola nəzər yetirdikdə görürük ki, bəşəriyyətin inkişafı ilk növbədə sənaye ilə bağlı olub. XX əsr isə bu sahədə özünün yüksəlişi ilə tarixdə qalıb. Ancaq bu sahənin daha yüksək səviyyəyə çatmasının indiki əsrdə olacağına şübhə yoxdur. Ötən əsrdə əldə edilən təcrübənin, elmin inkişafının sənayenin pik həddə çatmasına imkan yaratdığı üçün.**

Azərbaycan müstəqilliyini bərpa etdikdən bugünəcən ölkəmizdə də sənayenin inkişafına xüsusi diqqət yetirilir. Artıq bu sahədə böyük uğurların qazanıldığını da söyləmək mümkündür. Məsələn, Azərbaycanın kosmik ölkə olması böyük uğurumuzdur. Cənubi Qafqaz ölkələrində istehsal olunan sənaye məhsullarının 80 faizinin bizim payımıza düşməsi də sıradan uğur deyil.

Prezident İlham Əliyev Azərbaycanı dünyanın inkişaf etmiş sənaye ölkələrindən birinə çevirməkdə qərarlıdır. Dövlət başçısının 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

→ 6

# Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi dünya gəncliyini bir araya gətirir

**BMT-dən sonra dünyanın ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına Azərbaycanın rəhbərlik etdiyi dövr bu qurumun fəaliyyətində inkişaf mərhələsinin əsasını qoydu.**

Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü təşəbbüslər və bu təşəbbüslərin icrası istiqamətində atılan addımlar təşkilatın institusional inkişafına, beynəlxalq nüfuzunun daha da güclənməsinə, proseslərə təsir imkanlarının genişlənməsinə, ölkələrə və ümumilikdə bəşəriyyətə faydalarının artmasına xidmət göstərir. 25 iyul 2022-ci ildə Bakıda 60-dan çox ölkənin təmsilçilərinin iştirakı ilə Qoşulmama Hərəkatının Gənclər Sammitinin keçirilməsi də bunun göstəricisidir.

### 60 ildə bir ilk

Azərbaycan Prezidentinin bu təşkilatın fəaliyyəti ilə bağlı ən mühüm təşəbbüsləri sırasında qurumun Parlament Şəbəkəsinin və Gənclər Şəbəkəsinin formalaşdırılması xüsusu yer tutur. Bu ilin 30 iyununda Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edildi və onun Bakı konfransı keçirildi. Qurumun Gənclər Şəbəkəsinin toplantısı isə 2021-ci ilin oktyabrında, hərəkata üzv dövlətlərin gənclər təşkilatlarını təmsil edən 100-dən çox gəncin iştirakı ilə olmuşdu.

→ 3




# Əhalinin sağlamlığı hər zaman dövlət siyasətinin mərkəzində dayanır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evində aparılmış əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar. AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma doğum evində yaradılan şərait barədə məlumat verildi.**

→ 2

# Elmin və ali təhsilin birgə inkişafı zamanın tələbidir

## Azərbaycanda da bu istiqamətdə islahatların aparılmasına start verildi

Azərbaycan elmi və təhsili bütün dövrlərdə dövlətin diqqətində olub. Prezident İlham Əliyev mütəmadi olaraq həm təhsilin, həm də elmin inkişafı ilə bağlı ciddi qərarlar verib. Etiraf etmək lazımdır ki, bu gün bəşəriyyətin iinkişaf istiqamətlərini büsbütün dəyişən, Yer üzünün sosial-iqtisadi, mədəni mənzərəsini yenidən müəyyənləşdirən texnologiyalar elmin məhsuludur. Dünyanın ən böyük iqtisadi zənginlikləri biliyə, təhsilin qazandırdığı elmi təfəkkürə əsaslanır.

→ 6

# Şərəfli peşəyə xələl gətirənlər

## Yeni inkişaf dövrünü yaşayan Azərbaycan mətbuatında "reket jurnalist"lərə qarşı mübarizə daha da gücləndirilməlidir

Şərəfli tarixi keçmişi olan və bu gün yeni inkişaf dövrünü yaşayan Azərbaycan mətbuatının keçdiyi dövr olduqca zəngin bir inkişaf yoludur. Ölkədə güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübkeşi olan mətbuatın formalaşması və inkişafı dövlətin mətbuat siyasətinin əsas xəttini təşkil edir. Ölkədə söz, mətbuat, özünüifadə azadlığının təmin edilməsi üçün bütün şərait yaradılıb və hazırda çoxsaylı çap, internet mediasının sərbəst fəaliyyət göstərməsi bunun əyani təzahürüdür.

→ 6



# Ümumbəşəri sosial bəla - insan alveri

## Azərbaycanda bu problemlə mübarizədə çoxlu tədbir həyata keçirilir, beynəlxalq əməkdaşlığa töhfələr verilir

→ 9

# Azərbaycan tibb tarixinin əlamətdar hadisəsi

## Birinci Beynəlxalq Tibbi Forum müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu oldu

Azərbaycan tibb tarixinin ilk böyük forumunun 18-21 iyun 2022-ci ildə Naxçıvan Muxtar Respublikasının paytaxtında keçirilməsi uzun illər ərzində bu bölgədə qurulan müasir səhiyyə infrastrukturunun və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir.

Bununla əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2022-ci il iyunun 10-da "Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında" Sərəncam imzalamış, forumun keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır.

Bu gün cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında xüsusi rolu olan Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hər bir millətin tərəqqisinin əsas istiqamətlərindən biri olan elmə, təhsilə və səhiyyəyə göstərilən böyük diqqət və qayğı aparılan intibah hərəkatının üzvi tərkib hissəsi kimi muxtar respublikanın daha da inkişaf etməsini şərtləndirən əsas amillərdəndir.

→ 7

# Qələbəyə hesablanan əzmkar oyun

## "Neftçi" çətin sınaqdan üzüağ çıxdı

İyulun 28-də Azərbaycanın "Neftçi", "Zirə" və "Qəbələ" futbol klubları UEFA Konfrans Liqasının ikinci təsnifat mərhələsində cavab oyunlarını keçirib.

Bu komandalar arasında yalnız futbolumuzun flaqmanı "Neftçi"nin növbəti tura keçmək ehtimalı yüksək dəyərləndirilirdi. Belə ki, "Zirə" və "Qəbələ" ilk görüşlərində rəqiblərinə 3 top fərqilə uduzmuş və praktiki olaraq üçüncü mərhələyə yüksəlmək şanslarını itirmişdi. Bakılılar isə rəqib meydanında Kiprin "Aris" klubuna 0:2 hesabı ilə məğlub olmuşdu. Bəri başdan deyək ki, Bakıda "Neftçi" çox çətin sınaqdan üzüağ çıxdı.




→ 9

# ABŞ-ın siyasi tarixində bir ilk

## Respublikaçıların və demokratların sabiq üzvləri yeni partiyada birləşərək üçüncü böyük siyasi qüvvə yaratdıqlarını elan etdilər

ABŞ-dakı tarixi ikipartiyalı sistem üçüncü böyük siyasi qüvvənin yaradılması ilə dəyişdirilə bilər.

Belə ki, tanınmış respublikaçı və demokratlar "İrəli" adlı yeni partiyanın təsis olunduğunu elan ediblər. Bu barədə partiyanın təsisçilərinə istinadən "Röyter" agentliyi xəbər verir.

Təsisçilərin dediyinə görə, yeni siyasi qüvvənin hələlik konkret gündəmi yoxdur, lakin özünü mərkəzçi partiya kimi təsdiqləməyi planlaşdırır. Onlar "Amerikanın üzləşdiyi böyük problemləri necə həll edəcəyik?" sualını belə cavablandırıblar: "Nə sola, nə də sağa. İrəli".

Agentlik qeyd edir ki, partiya proqramının əsas müddəaları "ədalətli, firavan iqtisadiyyatın dirçəldilməsi", həmçinin "amerikalılar üçün daha çox seçim, fəaliyyət göstərən hökumətə daha çox inam və gələcək haqqında öz fikirlərini bildirmək üçün daha çox imkanlar"dır.

→ 9

# Əhalinin sağlamlığı hər zaman dövlət siyasətinin mərkəzində dayanır






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evində aparılmış əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma doğum evində yaradılan şərait barədə məlumat verildi.

Azərbaycanda əhalinin sağlamlığı hər zaman dövlət siyasətinin mərkəzində dayanır. Bu baxımdan ölkəmizdə səhiyyə sisteminin inkişafı, maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi istiqamətində mühüm addımlar atılır. Dövlət başçısının təşəbbüsü ilə bu sahədə həyata keçirilən layihələr insanların sağlamlığının etibarlı qorunmasına xidmət edir. Müalicə-diaqnostika mərkəzlərinin, xəstəxanaların tikilməsi və əsaslı şəkildə yenidən qurulması, müasir avadanlıqlarla təchiz olunması bunun əyani təsdiqidir.





Qeyd edək ki, 2 nömrəli doğum evi 1987-ci ildə istifadəyə verilib. Uzunmüddətli istismar nəticəsində bu tibb müəssisəsində əsaslı təmirə ehtiyac yarandığından dövlət başçısının 2019-cu il 3 aprel tarixli sərəncamı ilə 2 nömrəli doğum evinin əsaslı təmiri üçün Prezidentin Ehtiyat Fondundan 2 milyon manat vəsait ayrılıb. Məlumat verildi ki, əsaslı şəkildə təmir edilən 120 çarpayılıq bu səhiyyə müəssisəsində ən müasir tələblərə uyğun tibbi avadanlıqlar quraşdırılıb. Üçmərtəbəli binada ümumilikdə 51 palata var. Tibb ocağında 80 çarpayılıq doğum, 30 çarpayılıq ginekologiya və 10 çarpayılıq reanimasiya şöbələri fəaliyyət göstərir. Burada vətəndaşlara həm ambulator, həm də stasionar xidmət göstəriləcək. Əvvəllər Səhiyyə Nazirliyinin nəzdində olan 2 nömrəli doğum evi 2021-ci ildən "Sabunçu Tibb Mərkəzi" publik hüquqi şəxsin tabeliyindədir.

Azərbaycanda yeni tikilən səhiyyə ocaqları, ölkəmizə gətirilən müasir tibbi avadanlıqlar bir məqsədə - əhalinin sağlamlığının qorunması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir. Bu prosesdə Heydər Əliyev Fondunun da misilsiz xidmətləri var. Bütövlükdə əhalinin, xüsusən də ana və uşaqların sağlamlığının qorunması fondun fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən tədbirlər genefondumuzun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı surətdə həllinə yönəlib. Bu doğum evinin əsaslı şəkildə yenidən qurulması da ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin daha bir əyani təsdiqidir.

## "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; 2018, № 3, maddə 399, № 5, maddə 886, № 12 (I kitab), maddə 2481; 2019, № 7, maddə 1194; 2020, № 4, maddə 394, № 7, maddə 826; 2021, № 8, maddə 897, № 12, maddə 1316) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 21-ci maddə üzrə:

1.1.1. birinci, ikinci və altıncı hissələr ləğv edilsin;

1.1.2. üçüncü hissədə "2475 manat miqdarında" sözləri "3550 manat məbləğində" sözləri ilə əvəz edilsin;

1.1.3. beşinci hissədə "bir misli məbləğində" sözləri "iki misli həcmində" sözləri ilə əvəz edilsin;

1.2. 29-cu maddənin ikinci cümləsi çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9, № 8, maddə 598, № 9, maddə 668; 2007, № 4, maddə 320, № 5, maddə 446, № 7, maddə 712, № 11, maddə 1078; 2008, № 6, maddə 470, № 7, maddə 608; 2010, № 7, maddə 590; 2011, № 4, maddə 266, № 11, maddə 982; 2012, № 6, maddə 521; 2014, № 2, maddə 84; 2015, № 5, maddə 491; 2018, № 3, maddələr 375, 394, № 5, maddə 887; 2019, № 4, maddə 592) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 71.1-ci maddədə "Azərbaycan Respublikası Milli Məclisi deputatının aldığı məbləğdə" sözləri "aylıq vəzifə maaşının 50 faizi məbləğində" sözləri ilə əvəz edilsin;

1.2. 71.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"71.2. Konstitusiya Məhkəməsi sədrinin aylıq vəzifə maaşı 3550 manatdır.";

1.3. 72.2-ci və 73.6-cı maddələr ləğv edilsin;

1.4. 73.9-cu maddədən ", 73.6-cı" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli 414 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli 414 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 340; 2004, № 2, maddə 67) 1-ci hissəsinin beşinci abzası ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam 2022-ci il iyulun 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2022-ci il*

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820; 2019, № 1, maddə 42, № 4, maddə 591, № 7, maddə 1179) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 34.1-ci, 34.2-ci və 34.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"34.1. Hesablama Palatasının sədri 3150 manat məbləğində aylıq vəzifə maaşı alır.

34.2. Hesablama Palatası sədrinin müavini 2800 manat məbləğində aylıq vəzifə maaşı alır.

34.3. Hesablama Palatasının auditorları 2625 manat məbləğində aylıq vəzifə maaşı alırlar.";

1.2. 34.4-cü maddədə "bir aylıq vəzifə maaşı" sözləri "hər ay vəzifə maaşlarının iki misli" sözləri ilə əvəz edilsin;

1.3. 35.2-ci maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 567-VIQD nömrəli Qanununun tətbiqi və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 29 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 567-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 29 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 67; 2013, № 12, maddə 1513) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin dördüncü abzasında "və 73.6-cı maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

1.2. 4-cü hissə ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 567-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 567-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar yaranan əlavə xərclərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait, eləcə də Konstitusiya Məhkəməsinin saxlanılması xərclərində büdcə xərclərinin iqtisadi təsnifatının "Əməkhaqqı" köməkçi bölməsi dairəsində xərc paraqrafları arasında dəyişikliklər etməklə həyata keçirsin.

4. Bu Fərmanın 1.2-ci bəndi 2022-ci il iyulun 1-dən tətbiq edilir və 1.1-ci bəndi 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2022-ci il*

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12, № 3, maddə 395, № 5, maddə 888, № 7 (I kitab), maddə 1442, № 12 (I kitab), maddə 2525; 2019, № 1, maddə 22, № 7, maddələr 1196, 1206, № 12, maddə 1895; 2020, № 7, maddə 826; 2021, № 8, maddə 897; 2022, № 1, maddə 5) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 106-cı maddənin birinci hissəsinin ikinci abzasında "Azərbaycan Respublikası Milli Məclisi Sədrinin aylıq vəzifə maaşı" sözləri "3550 manat" sözləri ilə əvəz edilsin;

1.2. 107-ci maddənin birinci hissəsinin ikinci cümləsindən "və iki aylıq əməkhaqqı məbləğində müavinət" sözləri çıxarılsın;

1.3. 109-cu maddənin dördüncü hissəsinin ikinci cümləsi çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanununun tətbiqi və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744; 2000, № 1, maddə 34; 2001, № 10, maddə 640; 2002, № 8, maddə 478; 2006, № 7, maddələr 590, 593; 2009, № 11, maddə 888; 2010, № 7, maddə 610; 2015, № 1, maddə 16, № 8, maddə 915; 2020, № 7, maddə 886; 2021, № 8, maddə 917) 7.3-cü bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 569-VIQD nömrəli və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 570-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar yaranan əlavə xərclərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait, eləcə də müvafiq dövlət orqanlarının saxlanılması xərclərində büdcə xərclərinin iqtisadi təsnifatının "Əməkhaqqı" köməkçi bölməsi dairəsində xərc paraqrafları arasında dəyişikliklər etməklə həyata keçirsin.

4. Bu Fərman 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2022-ci il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, №11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17; Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 534-VIQD nömrəli Qanunu) 102.1.17-ci maddəsində "Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına öz səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün qanunla müəyyən edilmiş miqdarda verilən aylıq pul təminatı və müvafiq" sözləri "Müvafiq" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 8 oktyabr tarixli 1054 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 8 oktyabr tarixli 1054 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 612) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Baş prokurorunun aylıq vəzifə maaşı 3260 manat məbləğində müəyyən edilsin.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam 2022-ci il iyulun 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2022-ci il*

# Slovakiya şirkətlərinin Azərbaycana marağı daha da artıb

**İyulun 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Slovakiya Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Milan Layçakı qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanla Slovakiya arasında ikitərəfli əlaqələrin daha da genişlənməsi üçün böyük potensialın mövcud olduğunu, son bir neçə il ərzində həyata keçirilən intensiv siyasi dialoq və yüksəksəviyyəli səfər mübadilələrinin əməkdaşlığa müsbət töhfə verdiyini diqqətə çatdırıb.

Səfir Milan Layçak Slovakiyanın Azərbaycanla bütün müstəvilərdə əməkdaşlığının əhəmiyyətli olduğunu, xüsusilə iqtisadi əlaqələr olmaqla, müxtəlif istiqamətlərdə əməkdaşlığının genişlənməsinə çalışacağını diqqətə çatdırıb. 2023-cü ildə diplomatik münasibətlərin qurulmasının 30 illiyinin əhəmiyyət daşıdığını vurğulayıb. Səfir Slovakiya şirkətlərinin ölkəmizə marağının daha da artdığını qeyd edib. Enerji, nəqliyyat, kiçik və orta biznesin inkişafı kimi sahələrə önəm verildiyini bildirib.



Nazir Ceyhun Bayramov səfirə 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı tərəfimizdən görülən tədbirlər, Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəliklərə uyğun olmayan davranışları və sülhün təmin edilməsi istiqamətində çətinliklər yaratması, azad olunmuş ərazilərdə insanların həyatına birbaşa təhlükə olan mina təhdidi, postmünaqişə dövründə həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verib. Slovakiya şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə olan marağını müsbət qarşılayıb.

Diplomat ölkələrimiz arasında münasibətlərin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini bir daha diqqətə çatdırıb.

# Azərbaycanın xarici işlər naziri Gürcüstanda helikopter qəzası nəticəsində insan tələfatı ilə əlaqədar gürcü həmkarına başsağlığı verib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanda baş vermiş helikopter qəzası nəticəsində insan tələfatı ilə əlaqədar gürcüstanlı həmkarı İlya Darçiaşviliyə tviterdəki hesabında başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, nazir başsağlığında Gürcüstanın Qudauri bölgəsində sərhəd polisi helikopterinin qəzaya uğraması xəbərindən dərindən kədərləndiyini ifadə edib. Həlak olanların ailələrinə və dost Gürcüstan xalqına dərin hüznlə başsağlığı verən Ceyhun Bayramov Azərbaycanın bu çətin gündə Gürcüstanın yanında olduğunu bildirib. Xatırladaq ki, Gürcüstanın Qudauri bölgəsində baş vermiş helikopter qəzası nəticəsində 8 nəfər həlak olub. Həlak olanların 4-ü ekipaj üzvü, 2-si xilasedici, 2-si isə tibb işçisidir.

# Qoşulmama Hərəkatı Gənclər Sammitinin Şuşa sessiyası keçirilib



İyulun 29-da Qoşulmama Hərəkatı (QH) Gənclər Sammitinin Şuşa sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, sammit iştirakçıları iyulun 25-28-də keçirilmiş Bakı sessiyasında razılaşdırdıqları sənədləri Şuşada qəbul ediblər. Şuşa Akkordu (Şuşa razılaşması) kimi adlandırılan sənədə əsasən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində təşəbbüsü ilə 2021-ci il oktyabrın 4-də təsis edilmiş Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Daimi katibliyi Bakı şəhərində yerləşəcək Qoşulmama Hərəkatı Gənclər Təşkilatının nizamnaməsi və təşkilatın loqo və bayrağı da sammitin Şuşa sessiyası çərçivəsində təsdiq edilib.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Qoşulmama Hərəkatına üzv ölkələrin nümayəndələrinin iştirakı ilə QH Gənclər Sammitinin nəticələri və QH Gənclər Təşkilatının gələcək fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Sessiyadan sonra iştirakçılar Şuşa şəhəri ilə tanış olublar.

# Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərinin Şuşaya səfəri başa çatıb



**İyulun 29-da Qoşulmama Hərəkatının Gənclər Sammiti işini Şuşa seqmenti ilə davam etdirib.**

AZƏRTAC xəbər verir ki, Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gəncləri iclasdan sonra Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər.

İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Sammit iştirakçıları sonra Cıdır düzünü, Molla Pənah Vaqifin məqbərəsini və Qala divarlarını ziyarət ediblər.

Qonaqlara Cıdır düzü haqqında məlumat verilib. Bildirilib ki, Cıdır düzü dağlar qoynunda yerləşən şəhərin yeganə və ən böyük hamar ərazisidir. Elə bu səbəbdən də qədimdən burada Qarabağ igidlərinin cıdır yarışları, çövkən oyunları, Novruz və digər el şənlikləri keçirilib. Cıdır düzü bütün zamanlarda şuşalıların və Şuşaya təşrif buyuran qonaqların ən sevimli məkanı, seyrəngahı olub. Gənclər Sammitinin iştirakçıları sonra Vaqifin məqbərəsini ziyarət ediblər. Qonaqlara məqbərə haqqında məlumat verilib. Qeyd olunub ki, bütün digər tarixi abidələrimiz kimi Vaqif məqbərəsi də erməni vandalizminə məruz qalıb. Məqbərə Heydər Əliyev Fondu tərəfindən tam bərpa edilib və onun ikinci açılışı 2021-ci ilin avqustunda olub.

Şuşa səfəri Qala divarlarına ziyarətlə yekunlaşıb. Qonaqlara Qala divarları haqqında məlumat verilib. Bununla da Qoşulmama Hərəkatının Gənclər Sammitinin iştirakçılarının Şuşaya səfəri başa çatıb.

# Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi dünya gəncliyini bir araya gətirir

*Əvvəli 1-ci səh.*

Gənclər Şəbəkəsinin əsasının möhkəmləndirilməsi və düzgün istiqamətləndirilməsi üçün təsis toplantısının gündəliyinə bir çox vacib məsələ daxil edilmişdi. 2 gün davam edən təsis toplantısı zamanı iştirakçı gənclər Şəbəkənin gələcək idarəçiliyi və həyata keçiriləcək tədbirlərə dair fikir mübadiləsi aparmış, müvafiq qərarlar qəbul etmişdilər. Gənclər Şəbəkəsinə rəhbərliyi Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi başa çatana qədər Azərbaycan nümayəndəsi edəcək.

Bu tədbirin daha bir tarixi əhəmiyyəti ondan ibarət idi ki, Gənclər Şəbəkəsinin təsis olunması Qoşulmama Hərəkatının fəaliyyətinin 60-cı ildönümünə təsadüf edirdi. Gənclər Şəbəkəsinin məhz Azərbaycanın Hərəkata sədrlik etdiyi dövrə təsadüf etməsi üzv dövlətlər tərəfindən ölkəmizin bu mötəbər quruma ən böyük tarixi töhfələrindən biri hesab olunur. Beləliklə, 60 ildən bəri mövcud olan təşkilata 2019-cu ildən başlanmış rəhbərliyi dövründə Azərbaycan qurumun güclənməsi ilə bağlı mahiyyətcə az qala əsrə bərabər işlərə imza atmışdı.

### Azərbaycanın təşəbbüsləri Qoşulmama Hərəkatının institusional inkişafına xidmət edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təşkilatın Gənclər Şəbəkəsinin yaradılmasına xüsusi əhəmiyyətini Parlament Şəbəkəsinin Bakı konfrasındakı çıxışı zamanı xüsusi vurğulamışdır: "Parlament şəbəkəsi bizim təkcə irəli sürdüyümüz və dəstəyinizi qazandığımız yeganə təşəbbüs deyil. Digər vacib bir təşəbbüs gənclər şəbəkəsidir. Növbəti ay burada, Bakıda başqa önəmli bir tədbir, Qoşulmama Hərəkatının Gənclər Sammiti keçiriləcəkdir. Bunlar Qoşulmama Hərəkatının institusional inkişafı üçün atılmış addımlardır və hesab edirəm ki, bu istiqamətdə praktiki addımların atılması üçün vaxt yetişib. Azərbaycanın irəli sürdüyü və üzv dövlətlər tərəfindən dəstəklənmiş digər bir təşəbbüs Nyu Yorkda Qoşulmama Hərəkatının Dəstək Ofisinin yaradılmasıdır. Hesab edirəm ki, indi institusional inkişaf istiqamətində daha çox addımların atılması üçün düzgün vaxtdır və bu da öz növbəsində bizə beynəlxalq arenada maraqlarımızı qorumağa və əlbəttə ki, ölkələrimiz arasında həmrəyliyin gücləndirilməsinə kömək edəcək".

### Bəşəriyyətin gələcəyinə xidmət missiyası

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi kimi Gənclər Şəbəkəsinin yaradılması da tarixi zərurətə, gələcəyə aydın baxışa əsaslanır. Belə ki, təşkilatın hələ 2019-cu ildə Bakıda keçirilmiş Zirvə Görüşündə Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları gənclərin davamlı tərəqqisinə nail olmaq istiqamətində qarşılaşdıqları çətinliklər və onların öhdəsindən gələ bilmək üçün birgə və adekvat səylər barədə fikir mübadiləsi aparmağa imkan yaratmaq məqsədilə Hərəkatın Gənclər Şəbəkəsinin yaradılmasına dəstək ifadə etmişlər. Bu da təsadüfi deyildi. Hazırda dünya əhalisi tərkibində gənc nəslin payı bəşər tarixinin heç bir dövründə olmadığı qədər böyükdür. Qoşulmama Hərəkatında 120 ölkə təmsil olunur və dünya gənclərinin təxminən 90 faizə yaxını bu təşkilata üzv dövlətlərin vətəndaşlarıdır. Ölkələrinin Qoşulmama Hərəkatında təmsil olunması bu gənclərə bir-biri ilə sıx əlaqə qurmaq, mütərəqqi ideyalar ətrafında bir araya gəlmək, yenilikçi həll yolları tapmaqla sosial inkişafın aparıcı qüvvəsinə çevrilmək, öz cəmiyyətlərinin inkişafına töhfə vermək imkanı yaradır.

Bu gənclərin problemləri də kifayət qədər böyükdür. Keyfiyyətli təhsil, səhiyyə, layiqli iş imkanı onların böyük əksəriyyəti üçün əlçatan deyil. Müxtəlif sosial problemlər üzündən onların bir qismi çox tez-tez yaşayış yerlərini dəyişmək məcburiyyətində qalır. Bundan başqa irqi, dini, cinsi, sosial-mədəni və digər motivli ayrı-seçkilik halları ilə üzləşir, öz potensialarını reallaşdırmaq üçün lazımi şərait tapa bilmirlər. Bu isə gənclərin imkanlarından səmərəli şəkildə istifadə etməyə imkan vermir. Gənclərin problemlərə həll tapmaq üçün sağlam düşüncə işığında bir araya gəlmələri çox vacibdir. Bu, bəşəriyyətin inkişafı baxımından son dərəcə önəmlidir. Yada salaq ki, "2030-cu ilədək Dayanıqlı İnkişaf gündəliyinin" əsas elementlərindən biri də məhz gənclərin inkişafı və həyatın bütün sferalarında fəal şəkildə iştirakıdır. Bu baxımdan, Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin yaradılması tarixi əhəmiyyətə malik addımdır.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə Gənclər Şəbəkəsinin yaradılması və onların müxtəlif formatlarda bir araya gəlməsində məqsəd bu təbəqənin əsaslı şəkildə təşkilatlanması, aydın, nəticəyönümlü baxışla formalaşması, Qoşulmama Hərəkatı gənclərinin öz inkişaflarına dair çağırışlara daha təsirli cavab verə bilməsi, onların birgə ismarıclarının beynəlxalq ictimaiyyətə daha sistemli və təsirli şəkildə çatdırılmasıdır.

### Gənclər üçün yeni imkanlar

Gənclər Şəbəkəsi BMT-nin müvafiq agentlikləri və gənclərlə iş sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlıq imkanlarını genişləndirir. Yeni tərəfdaşlıqların əsasını qoyur. Müxtəlif beynəlxalq forumlarda Qoşulmama Hərəkatı gəncliyinin maraqlarının təmsil olunmasına şərait yaradır. Məlumatlılıq səviyyəsini artırır. Sülh və təhlükəsizliyə qarşı qlobal təhdidlər fonunda gəncləri bəşəriyyətin gələcəyi naminə öz güclərini birləşdirməyə təşviq edir. Bütün bunlar Qoşulmama Hərəkatının da ali missiyasıdır.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə mühüm önəm verdiyi əsas prioritetlərdən biri məhz müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verməklə çoxtərəflilik dəyərlərini təşviq etməkdir. 2019-cu ildə ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürərkən çoxtərəfliliyə və Bandunq prinsiplərinə sadiqliyini bəyan etmişdir. 2019-cu ildən bəri keçən tarixi dövr, Azərbaycanın bu təşkilata qazandırdığı nailiyyətlər və bu nailiyyətlərin obyektiv qiyməti kimi ölkəmizin daha bir il müddətdə də Hərəkata sədrlik etməsinə bütün üzv dövlətlərin yekdilliklə səs verməsi bu prinsiplərə sadiqliyimizin sübutudur. Gənclər Şəbəkəsinin formalaşdırılması da təşkilatın çoxtəreflilik məqsədinə xidmət edir. Bu, həm də cəmiyyətin aparıcı qüvvəsini təşkil edən gəncliyin gücünə inam, öz potensiallarını reallaşdıra bilmək üçün onlara yaradılmış imkandır.

Qoşulmama Hərəkatının sədri olaraq Azərbaycan Prezidenti bu şəbəkədə təmsil olunan gənclərin gücünə inanır, onların müasir çağırışlara uyğun birlikdə hərəkət edərək mövcud problemlərə həllər tapacaqlarına ümid edir.

Bu inamı doğrultmaq, mövcud imkanlardan faydalanmaq, Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin qlobal miqyasda ən təsirli təşkilatlardan birinə çevrilməsinə nail olmaqdan ötrü Şəbəkənin konsepsiyası da hazırlanıb. Gənclərin Bakı Sammitində isə Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq beynəlxalq simulyasiya konfransı da keçirilib. Sammitin son günündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər təşkil olundu. Bu da dünya gəncliyinin Azərbaycanı yaxından tanıması, tariximizi, mədəniyyətimizi, gələcəyə baxışlarımızı öyrənməsi, Vətən müharibəsindəki parlaq Zəfərimizdən sonra regionda yaranmış yeni tarixi reallıqların düzgün dəyərləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Əminik ki, Qoşulmama Hərəkatının gəncləri üzərlərinə götürdükləri missiyanı uğurla yerinə yetirəcək, onlara olan inamı doğruldacaq, bütün dünyada sülhə, dayanıqlı inkişafa, işıqlı ideyaların həyat qazanmasına töhfə verəcəklər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Müşahidə Şurasının ilk iclası olub

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılmış Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Müşahidə Şurasının iyulun 29-da ilk iclası olub.



AZƏRTAC xəbər verir ki, iclas Qarabağ iqtisadi rayonuna daxil olan, işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun sədrliyi ilə keçirilib.

İclasda Müşahidə Şurasının üzvləri - iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov və Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova iştirak ediblər.

Emin Hüseynov iclası açaraq əvvəlcə Xidmətin Müşahidə Şurasının sədrinin və üzvlərinin təyin olunmasına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Sonra hərbi və diplomatik sahədə ən böyük zəfərə nail olmuş Azərbaycan xalqının qələbəsinin əbədiləşdirilməsi məqsədilə məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təmin olunması xüsusi vurğulanıb. İclasın sədri Müşahidə Şurasının üzvlərini yeni yaradılmış publik hüquqi şəxsin fəaliyyət istiqamətləri və Qarabağ iqtisadi rayonuna daxil olan, işğaldan azad edilmiş ərazilərdə əhalinin qayıdışı ilə əlaqədar qarşıda duran vəzifələr və görüləcək işlər barədə ətraflı məlumat verib. İclasda həmçinin fərmandan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə xidmətin fəaliyyətinin təşkili sahəsində ilkin mərhələdə ən vacib məsələlər müzakirə olunub. Verilən tapşırıqların vaxtında və tam həcmdə icra olunması əsas tələb kimi qoyulub.

Sonda Müşahidə Şurasının sədri xidmətin fəaliyyətinin tezliklə təmin olunması üçün görüləcək tədbirlərlə bağlı müvafiq tapşırıqlar verib.

# Qafqaz Müsəlmanları İdarəsində Məhərrəm ayının başlanması ilə əlaqədar iclas keçirilib

İyulun 29-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Məhərrəm ayının başlanması ilə əlaqədar iclas keçirilib.



İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə idarənin Qazılar Şurasının üzvləri, səlahiyyətli nümayəndələri və imamlarına Məhərrəm ayı ilə bağlı tövsiyə və tapşırıqlarını bildirib.

Şeyxülislam A. Paşazadə Əhli-Beytə ehtiram nümunəsi olan bu ayın Vətən müharibəsi şəhidlərimizin anılması üçün müqəddəs məqam olduğunu qeyd edib, İmam Hüseyn şəhidlik məktəbinin yaşadığının göstəricisi olduğunu ifadə edib. Qarabağ Zəfərinin müəllifinin Müzəffər Azərbaycan Prezidenti, onun müdrikliklə irəli apardığı Azərbaycan xalqı, rəşadətli Azərbaycan Ordusu olduğunu vurğulayan Şeyxülislam A. Paşazadə Vətən müharibəsində Qələbəmizin əsas qüvvətverici amillərinin dövlət-xalq birliyi, dövlət rəhbərinin ətrafında sıx birləşmək, cəmiyyətimiz daxilində milli və dini birlik olduğuna diqqəti çəkib. QMİ sədri bu dəyərlərin qorunmasının gələcək zəfərlərə doğru addımlamağımız üçün önəmli olduğunu bildirərək, din xadimlərinin üzərinə düşən mənəvi vəzifələri xüsusi xatırladıb.

Dövlət-din münasibətlərinin yüksək səviyyəsinin təməlini qoyan Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə hər zaman diqqət və qayğı ilə yanaşdığını bildirən Şeyxülislam A. Paşazadə Ümummilli Liderin 1994-cü il iyunun 20-də Aşura mərasimi zamanı Təzəpir məscidinə gələrək dindarlar qarşısında söylədiyi tarixi nitqindən iqtibası iclas iştirakçılarına oxuyub. Azərbaycan müsəlmanları üçün İmam Hüseyn əleyhissəlamın kəsb etdiyi önəmi Ulu Öndər o zaman belə ifadə etmişdi: "Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur - bu gün Həzrəti Məhəmməd peyğəmbərin nəvəsi Həzrəti İmam Hüseynin qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm. Bütün müsəlmanlar, o cümlədən biz azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdiririk. Biz bundan sonra da Qurani-şərifin, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq". Şeyxülislam A. Paşazadə Ulu Öndər Heydər Əliyevin başlatdığı ali mənəviyyat yolunun bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam və inkişaf etdirilməsini qürurla vurğulayıb.

Daha sonra Şeyxülislam A.Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin dinlərarası dialoq və əməkdaşlıq müstəvisində xalqımız və dövlətimizin maraq və mənafelərinə xidmət etmək üçün həyata keçirdiyi görüş və tədbirlər barədə din xadimlərinə məlumat verib. Bildirib ki, bu il ərzində Vatikan, Böyük Britaniya, Avstriya, Fransa, BƏƏ, Səudiyyə Ərəbistanı və başqa ölkələrdə iştirak etdiyi görüş və beynəlxalq tədbirlərdə qalib Azərbaycan dövlətinin təmsilçisi olaraq keçirdiyi qürur dövlətimizin, ələlxüsus dövlət rəhbərimizin müdrik siyasətinin bəhrəsidir. Dünyada ölkəmizə olan etimad və ehtiramın mənbəyi Azərbaycan dövlətçiliyinin uğur və qələbələridir. Dünya Müsəlman Ağsaqqalları Şurasının üzvü seçilməsini də bu qəbildən dəyərləndirən Şeyxülislam A. Paşazadə təmsil olunduğu bütün beynəlxalq xitabət kürsülərindən erməni kilsəsinin ölkəmizə qarşı apardığı dini müstəvidə qarayaxma kampaniyasını zərərsizləşdirmək yönündə aktiv fəaliyyəti barədə iclas iştirakçılarını məlumatlandırıb.

QMİ Qazılar Şurasının Məhərrəm ayının başlanması ilə əlaqədar müraciəti oxunub və qəbul olunub. Müraciətdə Aşura mərasimləri ilə bağlı konkret tapşırıq və tövsiyələr yer alıb. O cümlədən münasib təziyədarlıq nümunələrindən biri kimi ənənəvi keçirilən qanvermə aksiyaları barədə məlumat verilib.

İclasda iştirak edən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək dövlət-din münasibətlərinin yüksək səviyyəsindən, dini dəyərlərə və din xadimlərinə qayğı və diqqətdən bəhs edib, öz növbəsində din xadimlərinə Məhərrəm ayı ilə bağlı öz tövsiyələrini bildirib. Din xadimlərinin Vətən müharibəsi günlərində yüksək vətənpərvərlik nümunəsi göstərdiklərini xüsusi vurğulayan komitə sədri Məhərrəmlik mərasimləri dövründə də dinimizin dəyərlərinin insanlara çatdırılmasında din xadimlərinin üzərinə düşən məsuliyyəti xatırladaraq dövlət xurafat elementlərinin yer almaması üçün diqqətli olmağı tövsiyə edib. M.Qurbanlı Azərbaycan cəmiyyətinin hər zaman ənənəvi dəyərlərinə yüksək ehtiram bəslədiyini vurğulayaraq bu il də Məhərrəmlik, Aşura mərasimlərinin milli-mənəvi dəyərlərimizə uyğun şəkildə qeyd ediləcəyinə əmin olduğunu bildirib.

İclasda Vətən şəhidlərinin ruhlarına dualar oxunub, Allahdan rəhmət dilənib.

# XII Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinin iştirakçıları dövlət komitəsində olublar

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən təşkil olunan "Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi" adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları iyulun 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olublar.



AZƏRTAC xəbər verir ki, görüşdə Yay Məktəbinin tələbələrini salamlayan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı gənclərə ölkəmizdəki nümunəvi tolerantlıq mühiti və multikultural dəyərlərə əsaslanan dövlət-din münasibətləri, komitənin fəaliyyət istiqamətləri, həmçinin Azərbaycanda müxtəlif dinlər və konfessiyalar arasındakı harmoniya barədə danışıb.

Bildirilib ki, dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında mühüm amildir. Tarixən çoxmədəniyyətli və tolerant ənənələrlə zəngin cəmiyyəti olan Azərbaycan dövləti bu ənənələri möhkəmləndirmək siyasətini həyata keçirir. Müxtəlif dinlərə aid icmalar cəmiyyətimizin ayrılmaz hissəsidir, onlar ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırlar. Bütün dinlərə məxsus dini ibadətgahlar dövlət tərəfindən nəinki qorunur, həmçinin təmir və bərpa olunur. Prezident İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi" çərçivəsində Azərbaycanın mədəniyyət və dini tolerantlıq sahəsində evsahibliyi etdiyi beynəlxalq tədbirlər ölkəmizin dinlərarası dialoq və multikulturalizm kimi dəyərlərin təbliğinə verdiyi önəmi bir daha sübut edir.

Görüş zamanı xalqımızın 44 günlük Vətən müharibəsindəki parlaq qələbəsinə toxunan M.Qurbanlı erməni faşizminin tarixi abidələrə qarşı münasibətdə də özünü qabarıq şəkildə göstərdiyini diqqətə çatdırıb. O, 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı dini abidələrin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bərpa olunması istiqamətində görülən işlərdən danışıb.

Sonda iştirakçıların suallarını cavablandıran komitə sədri dəyərli ənənəyə çevrilən beynəlxalq multikulturalizm yay və qış məktəblərinin əhəmiyyətinə toxunaraq layihənin gənclərin ölkəmizdəki nümunəvi tolerantlıq mühitinin əyani şahidi olmalarına şərait yaratdığını bildirib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Qobustan rayonunda Qobustan və Şamaxı rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qəbuldan əvvəl xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Qobustan şəhərindəki abidəsi ziyarət edilib.

Vətəndaşlar qəbul zamanı məşğulluq proqramlarına cəlbedilmə, sosial təminat, əlilliyin qiymətləndirilməsi, mənzillə təminat və s. məsələlərlə əlaqədar müraciət ediblər. Müraciət edən vətəndaşların bir hissəsi şəhid ailələrinin üzvləri və müharibə veteranları olub.

Nazir Sahil Babayev rayon sakini, Vətən Müharibəsi Qəhrəmanı şəhid Elyar Vəliyevin atası Arif Vəliyevlə də görüşüb. O, şəhid qəhrəmanımızın ailəsinin sosial vəziyyəti ilə maraqlanıb, onların və bütün şəhid ailələrinin qayğı ilə əhatə olunmasının nazirliyin başlıca fəaliyyət istiqamətlərindən olduğunu bildirib. Qəbul zamanı müraciətlər yerindəcə araşdırılıb və aidiyyəti tədbirlər görülüb. Bir neçə vətəndaşa əmək bacarıqlarına uyğun iş yerlərinə göndərişlər verilib.

Müraciətlərinə əsasən ayrı-ayrı şəxslər özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatının yaradılmasına dəstək verilməsi, peşə hazırlığına cəlb edilmələri, eləcə də ünvanlı sosial yardım proqramı ilə əhatə olunmaq hüquqlarına baxılması, əlilliyin təkrar qiymətləndirilməsi və s. üçün qeydiyyata alınıblar.

# Yay məktəbinin iştirakçıları Azərbaycan multikulturalizmi barədə məlumatlandırılıb

İyulun 29-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüş keçirilib.



Bu barədə AZƏRTAC-a Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri Kamal Abdullayevlə görüşdə tədbirin moderatoru BBMM-in İcraçı direktoru Rəvan Həsənov "Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi" adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçılarını salamlayaraq layihənin uğurla davam etdiyini vurğulayıb.

Sonra çıxış edən akademik Kamal Abdullayev qonaqlara Azərbaycan multikulturalizminin örnək modelindən, ölkəmizdəki multikultural ənənələrdən və dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətdən danışıb. O, mərkəzin yaranma səbəbləri və ötən 8 ildəki fəaliyyəti haqqında məlumat verərək bildirib ki, Multikulturalizm Mərkəzi yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı Yay və Qış məktəbləri gerçəkləşdirir. Artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin iştirakçıları hər dəfə bu tədbirlərdən öz ölkələrinə zəngin təəssüratlarla qayıdırlar. O, əmin olduğunu vurğulayıb ki, XII Yay Məktəbinin iştirakçıları da Azərbaycandan xoş təəssüratlarla ayrılacaqlar.

Sonda görüş iştirakçıları Yay Məktəbi çərçivəsində əldə etdikləri bilik və məlumatları, şahidi olduqları hadisələri və yaşadıqları duyğuları bölüşdülər.

Qeyd edək ki, Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin davamıdır. Yay və Qış məktəbləri hazırda dünyanın 24 nüfuzlu ali təhsil ocağında, eləcə də ölkəmizdə Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunur. Layihənin məqsədi həmin gənclərin nəzəri biliklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahidi olmalarına şərait yaratmaqdır.

# Müdafiə Sənayesi Nazirliyi gənclər üçün xüsusi sərgi təşkil edib

Azərbaycan gənclərinin müstəqil dövlətçiliyimizə töhfə vermək əzminin daha da yüksəldilməsi, onların hərbi-vətənpərvərlik tərbiyəsi işində daim yaxından iştirak edən Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi (MSN) bu istiqamətdə növbəti yenilikçi addım atıb.



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Gənclər Fondunun müraciəti əsasında, Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının ərazisində keçirilən "Yay Fest-dəmir yumruq" düşərgəsində təbii landşaft şəraitində Müdafiə Sənayesi Nazirliyi tərəfindən (MSN) tabeli birlik və müəssisələrdə istehsal olunan müxtəlif növ silah və sursatın xüsusi sərgisi təşkil edilib.

Sonra "dəmir yumruq" mövzusunda keçirilən paneldə 44 günlük Vətən müharibəsi qəhrəmanları və qaziləri, həmçinin Müdafiə Sənayesi Nazirliyinin məsul işçiləri, eləcə də MSN-in əməkdaşı Vətən Müharibəsi Qəhrəmanı Qəzənfər Ağayev çıxış ediblər. Azərbaycanın Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdəliyi, ordumuzun rəşadəti, xalqımızın "dəmir yumruq" ətrafında sıx birləşməsi nəticəsində qazanılmış tarixi qələbədən danışılıb.

Sərgi çərçivəsində gənclər nümayiş olunan hərbi-müdafiə təyinatlı təlim üçün nəzərdə tutulmuş atıcı silahlar - avtomatlar, pulemyotlar, snayper tüfəngləri, tapançalar, minaatanlar, minalar, mərmilər, həmçinin "İtiqovan" və "Orbiter-3" pilotsuz uçuş aparatları, digər avadanlıq və məmulatlarla tanış olublar, onlara bu müasir silahların texniki göstəriciləri barədə ətraflı məlumat verilib. MSN-in əməkdaşları gəncləri maraqlandıran çoxsaylı sualları cavablandırıb, Vətən müharibəsində Azərbaycan silahının düşmənə sarsıdıcı zərbələr vurması barədə faktları çatdırıblar.

Sonra düşərgə iştirakçıları MSN-in təşkil etdiyi və böyük maraqla qarşılanan elektron trenajorda sərrast atıcılıq bacarıqlarını yoxlayıb, nazirliyin istehsalı olan müasir avtomatların sökülüb-yığılması üzrə müsabiqədə iştirak ediblər. Hər iki yarışda yüksək nəticələr göstərən gənclərə hədiyyələr təqdim edilib.

MSN-in fəaliyyətindən bəhs edən "Salam Silah!" filmi nümayiş olunduqdan sonra "Azərbaycan silahı" mövzusunda viktorina keçirilib. Qaliblərə Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə MSN-in şanlı zəfərə verdiyi töhfələr, bu qurumun ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması uğrunda misilsiz qəhrəmanlıq nümunələri göstərərək şəhidlik zirvəsinə ucalan və müharibə iştirakçısı olan işçilərindən bəhs edən "Tarix yazan qəhrəmanlar" kitabı hədiyyə olunub.

Düşərgə təşkilatçıları və iştirakçılar yaradılan bu imkanları xüsusi rəğbətlə qarşılayaraq dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya göstərilən ali diqqət və qayğıya görə dərin minnətdarlıq ediblər. Gənclər müdafiə sənayesi naziri, Azərbaycanın Milli Qəhrəmanı Mədət Quliyevə ilk dəfə təbii landşaft şəraitində belə bir sərginin təşkilinə görə təşəkkürlərini bildirib, belə tədbirlərin davamlı keçirilməsini arzuladıqlarını ifadə ediblər.

# Kursantların praktiki məşğələləri başa çatıb

Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ilə səhra şəraitində keçirilən praktiki təlim məşğələləri başa çatıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi institutun tədris planı və proqramına uyğun olaraq keçirilən məşğələlərdə kursantlar ərazidə müxtəlif üsullarla taktiki yerdəyişmə tapşırıqları, atıcı silahlardan və qumbaraatanlardan praktiki atışlar yerinə yetiriblər. Həmçinin təlim məşğələlərində azimutla hərəkət, mühəndis maneələrinin dəf edilməsi, yaralıların döyüş meydanından təxliyəsi, şərti düşmən hədəflərinin aşkarlanaraq zərərsizləşdirilməsi və digər tapşırıqlar kursantlar tərəfindən müvəffəqiyyətlə icra edilib.

Kursantlarla keçirilən məşğələlərdə əsas məqsəd onların nəzəri biliklərinin və səhra vərdişlərinin təkmilləşdirilməsidir.

# 16-cı Bakı Yay Enerji Məktəbinin bağlanış mərasimi keçirilib

**İyulun 29-da ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun (IDD), Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR), "bp Azerbaijan", "Kolin", "Masdar" və "TotalEnergies" şirkətlərinin birgə təşkilatçılığı, o cümlədən ADA Universiteti Fondunun (Azərbaycan) dəstəyi ilə təşkil olunan 16-cı Bakı Yay Enerji Məktəbinin bağlanış mərasimi keçirilib.**






AZƏRTAC xəbər verir ki, Bakı Yay Enerji Məktəbi Xəzər bölgəsinə xüsusi diqqət yetirməklə enerji və ekologiya məsələlərinin araşdırılması və daha dəqiq tədqiq edilməsi üçün dünyanın tanınmış alimlərini, siyasətçi və mütəxəssislərini bir araya gətirən və ənənəvi olaraq keçirilən ikihəftəlik sertifikat proqramıdır.

Proqram çərçivəsində iştirakçılara həm enerji, həm də ətraf mühitlə bağlı geniş məlumat təqdim olunub. Bunlar enerji iqtisadiyyatı, enerji hüququ, təbii sərvət gəlirlərinin idarə edilməsi, bərpaolunan mənbələr, davamlılıq, iqlim dəyişikliyi və enerji geosiyasəti daxil olmaqla geniş mövzuları əhatə edir. Bakı Yay Enerji Məktəbinin müəllim və məruzəçiləri akademiya, dövlət və özəl sektorun aparıcı yerli və beynəlxalq ekspertləridir.

Builki Bakı Yay Enerji Məktəbinə 13 ölkəni təmsil edən 43 iştirakçı seçilib. Proqramda enerji şirkətlərinin kiçik və orta mütəxəssisləri, müxtəlif dövlət qurumlarının, səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri və dövlət qulluqçuları, habelə enerji və ətraf mühit məsələlərini araşdıran alim, jurnalist və aspirantlar iştirak ediblər.

Proqram çərçivəsində iştirakçılar Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş qədim Şuşa şəhərini və paytaxt Bakının bir çox görməli yerlərini ziyarət ediblər.

Proqramı bitirən iştirakçılara ADA Universitetinin rektoru və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti tərəfindən imzalanmış sertifikatlar təqdim olunub.

# II Milli Yaylaq Festivalının birinci günü uğurla başa çatıb





İyulun 29-da Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği, yaylaq və elat mədəniyyətinin yaşadılması və beynəlxalq miqyasda tanıdılması məqsədilə start götürən II Milli Yaylaq Festivalının birinci günü uğurla yekunlaşıb.





AZƏRTAC xəbər verir ki, II Milli Yaylaq Festivalında 22 xarici ölkədən 300-ə yaxın qonaq iştirak edir.

Festivalın qonaqları Xan yaylağının ərazisində yerləşən Yaylaq yurdu etno-qəsəbəsində yaşayış yurdları (alaçıqlar), Cıdır Meydanı, "Yaylaq bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı", "Yaylaq yatağı", "Pəhləvan meydanı", "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" və digər tematik guşələrlə tanış olublar.

Festivalın birinci günündə tədbir iştirakçılarına geniş və zəngin musiqili proqram təqdim olunub. Əsas səhnədə Bülbül adına 3 saylı Gəncə Uşaq Musiqi Məktəbinin "Gəncə" vokal triosunun, Kazan tatar rəqs və mahnı qrupunun, həmçinin Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Dağıstandan olan ifaçıların və rəqs qruplarının çıxışları iştirakçılar tərəfindən maraqla qarşılanıb. Ulduz səhnəsində isə Gəncə Uşaq İncəsənət Məktəbinin "Xəmsə" nağaraçılar ansamblı "Azərbaycan ritmləri", "Mehtər marşı", məktəbin "Gəncə qönçələri" rəqs qrupu "Bayram süitası"nı, "Anayurd marşı" rəqsini, Kəlbəcər rayon Aşıq Şəmşir adına mədəniyyət evinin "Zurnaçılar" ansamblı "Cəngi", "Oğuzu" rəqslərini ifa ediblər. Habelə Qazaxıstanın orijinal musiqi kollektivlərindən olan "Turan" etnoqrafik folklor ansamblının, Xarəzm Dövlət Filarmoniyası Aşula xalq musiqisi qrupunun çıxışları, Xalq artisti Şahnaz Haşımovanın Göygöl Dövlət Mahnı və Rəqs Ansamblının müşayiəti ilə "Dedim-dedi", "Qarabağ Azərbaycandır" mahnılarını ifa etməsi, eləcə də digər rəqs qruplarının və solo ifaçıların konserti festivala xüsusi rəng qatıb.

Festivalda iştirakçılar xarici ölkələrdən dəvət olunmuş etnik musiqi qruplarının ifaları, yerli kollektivlərin çıxışları, aşıq deyişməsi, milli rəqslər, xalq mahnıları ilə yanaşı, Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyət nümunələri, səhnəciklər və teatral kompozisiyalar, qədim xalq oyunları, sənətkarlıq məhsulları, milli geyim nümunələri nümayiş etdirilir. Qonaqların istirahətinin yaddaqalan və maraqlı olması üçün gecə əyləncələri və oyunlar da təşkil olunur.

Qeyd edək ki, II Milli Yaylaq Festivalı "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun və "Kap.az" - Fərqli Turizm MMC-nin təşəbbüsü, Mədəniyyət Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Gənclər və İdman Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Göygöl Rayon İcra Hakimiyyəti, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Dünya Etnoidman Konfederasiyası və digər dövlət və özəl qurumların tərəfdaşlığı və dəstəyi ilə keçirilir. AZƏRTAC II Milli Yaylaq Festivalının informasiya tərəfdaşlarındandır.

İyulun 31-dək davam edəcək festivalda 70 mindən artıq tamaşaçının iştirakı nəzərdə tutulur.

## *Ravşan DASTİROV:* "II Milli Yaylaq Festivalı hamımızın yaddaşında uzun illər qalacaq"

"Festivala dəvət almaq bizim üçün çox xoş oldu. Bizim nümayəndə heyətinin tərkibində jurnalistlər, televiziya işçiləri, həmçinin tanınmış aparıcılar var. İnanıram ki, II Milli Yaylaq Festivalı hamımızın yaddaşında uzun illər qalacaq".

Bu fikirləri AZƏRTAC-a II Milli Yaylaq Festivalın iştirakçısı, Özbəkistanın Belboqli Kuraş Federasiyasının prezidenti Ravşan Dastirov bildirib.

"Bizim idmançılar festivalda xüsusi nömrələrlə çıxış edəcəklər. Belboqli Kuraş qədim milli döyüş növüdür. Bu idman növünün tarixi çox qədimdir", - deyə Ravşan Dastirov vurğulayıb.

Festivalın çox möhtəşəm təşkil olunduğunu söyləyən özbəkistanlı qonaq deyib: "Burada bütün festival iştirakçılarına səmimi münasibət var. Təşkilatçılara təşəkkür edirəm ki, belə gözəl festival təşkil ediblər. Burada dostlarımızla qarşılaşırıq, eyni zamanda müxtəlif ölkələrdən olan və müxtəlif mədəniyyətlərə sahib insanlarla tanış oluruq. Belə festivalların davamlı olması naminə gələcək planlar barədə müzakirələr aparırıq. Bu gözəl festivalda iştirakımızdan çox şad və məmnunuq".

# Vətən müharibəsi iştirakçılarına qarşı dələduzluq əməllərinin qarşısı alınıb

Müharibə iştirakçılarının, şəhid ailələrinin, eləcə də Vətən müharibəsi zamanı zərərçəkmiş vətəndaşlarımızın həyat şəraitinin və maddi rifah halının yüksəldilməsi ölkədə həyata keçirilən sosialyönümlü siyasətin prioritet istiqamətlərindəndir.

Dövlət orqanlarının bu sahədə fəaliyyətinə kölgə salan, şəhid ailələrinin və müharibə iştirakçılarının hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə ziyan vuran qanunsuz əməllərin vaxtında aşkarlanaraq qarşısının alınması istiqamətində zəruri tədbirlər davam etdirilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Vətən müharibəsi iştirakçılarına qarşı vəzifəli şəxs adından dələduzluq əməllərinin törədilməsi və onların maddi vəsaitlərinin ələ keçirilməsi ilə bağlı çoxsaylı faktlara dair daxil olmuş məlumatlar əsasında iyulun 25-də DTX-də cinayət işi başlanıb.

Müəyyən edilib ki, Azərbaycan Respublikasının vətəndaşı 1987-ci il təvəllüdlü Əliyev Elvin Firudin oğlu internet informasiya resurslarında Vətən müharibəsində iştirak etmiş şəxslər barədə məlumatlar toplayıb, sonuncuların yaşadıqları ərazilər üzrə yerli icra hakimiyyəti orqanlarının səlahiyyətli şəxsləri ilə telefon əlaqəsi quraraq özünü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri kimi təqdim edib, birdəfəlik maddi yardım verilməsi adı altında onların vasitəsilə Vətən müharibəsi iştirakçıları olan Bəkərov Rüstəm İlham oğlu, Sofiyev Vasif Yusif oğlu, Əliyev Vüsal Fərhad oğlu, Quluzadə İsrail Hikmət oğlu, Əzimzadə Emin Alxas oğlu, Məmmədov Məhəmməd Ramiz oğlu və qeyriləri ilə mobil telefon əlaqəsi yaradıb, onlara dövlət tərəfindən birdəfəlik maddi yardım ayrılmasının nəzərdə tutulduğunu bildirməklə, həmin yardımın verilməsi üçün bank hesablarının açılması və digər cari xərclər adı altında hər birindən ayrı-ayrılıqda müxtəlif məbləğlərdə pul vəsaitlərinin özünəməxsus bank hesabına köçürülməsini təmin edərək dələduzluq yolu ilə ələ keçirib.

Bu əməllərinə görə Elvin Əliyev iyulun 27-də təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib. Ona Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2-ci (təkrar dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə ittiham elan olunaraq, məhkəmə qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda Elvin Əliyevin törətdiyi cinayət əməllərindən zərərçəkmiş şəxslərin tam dairəsinin müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Şəhid mayorun xatirəsi anılıb

Abşeronda "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görülən şəhid mayor Rəhim Hüseynovun anım günü keçirilib.



Rayon rəhbərliyi, şəhid ailələri və qazilər, ictimaiyyət nümayəndələri İkinci Fəxri xiyabanda uyuyan şəhidlərimizin məzarlarını ziyarət ediblər. Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi yad olunub, ruhlarına dualar oxunub, məzarları üzərinə tər çiçəklər düzülüb.

Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Azərbaycan Ordusunun qəhrəmanlığını özündə əks etdirən sənədli film nümayiş olunub. Çıxış edənlər ölkəmizin gündən-günə güclənməsindən və inkişafından söz açaraq bildiriblər ki, bu gün şəhid ailələri, qazilər dövlətin hərtərəfli qayğıkeşliyi ilə əhatə olunublar.

Sonra şəhid mayor Rəhim Hüseynovun 5 yaşlı oğlu Fikrət zala toplaşanlara əsgər salamı verərək atası ilə fəxr etdiyini bildirib. Şəhid Elşad Həsənovun atası Paşa Həsənov, şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova, şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova və digərləri çıxış edərək Azərbaycanın döyüş meydanında əldə etdiyi qələbədən, ordumuzun gücündən, dövlətimizin şəhid ailələrinə və qazilərə göstərdiyi diqqətdən danışıblar.

Sonda Xırdalan şəhər 11 illik musiqi məktəbinin hazırladığı bədii kompozisiya təqdim edilib, məktəblilər vətənə, qələbəyə aid şeirlər səsləndiriblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Lənkəranda Birinci Qarabağ müharibəsi şəhidi yad edilib





Azərbaycanın ərazi bütövlüyünün qorunması, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Asif Fəzail oğlu Xəlilovun xatirəsini yad etmək üçün onun təhsil aldığı və hazırda adını daşıdığı Lənkəran rayonunun Vel kənd tam orta məktəbində anım tədbiri keçirilib.

İcra strukturlarının nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, ziyalılar, məktəbin müəllimləri və ağsaqqalların iştirak etdikləri tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra məktəbin direktor müavini Sevinc Talıbova Asif Xəlilovun keçdiyi döyüş yolu barədə ətraflı məlumat verib. Bildirilib ki, Asif Xəlilov 1973-cü ildə Vel kəndində anadan olub. 1980-1991-ci illərdə kənd məktəbində orta təhsil alıb. 1992-ci ilin iyun ayında könüllü olaraq cəbhəyə yollanıb. İyulun 30-da Ağdərə istiqamətində gedən döyüşdə qəhrəmancasına həlak olub. Ölümündən sonra Asif Xəlilovun xatirəsini əbədiləşdirmək məqsədilə Vel kənd tam orta məktəbinə onun adı verilib, məktəbin həyətində abidəsi qoyulub.

Tədbirdə çıxış edənlər şəhid Asif Xəlilovun ailə üzvlərinə belə qəhrəman övlad böyütdükləri üçün minnətdarlıqlarını bildiriblər.

Şamil Xəlilov qardaşının xatirəsini əziz tutduqları üçün ailəsi adından tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkür edib.

Sonda şəhidin məzarı ziyarət olunub, üstünə gül-çiçək dəstələri düzülərək ruhuna dualar oxunub.

***Ağaddin BABAYEV,***
***"Lənkəran" qəzetinin***
***əməkdaşı***

# Naxçıvanda şəhid və qazi övladlarının iştirakı ilə növbəti "Zəfər düşərgəsi" təşkil olunub

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə şəhid və qazi övladları, həmçinin xüsusi istedadı ilə fərqlənən sağlamlıq imkanları məhdud uşaqlar üçün növbəti "Zəfər düşərgəsi" təşkil olunub.





AZƏRTAC xəbər verir ki, Şahbuz rayonunda yerləşən Ağbulaq İstirahət Mərkəzində iki gün davam edən düşərgənin birinci günündə uşaqların mərkəz ilə tanışlığı olub, çay süfrəsi ətrafında görüş keçirilib.

Görüşdə iştirak edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov bildirib ki, müharibədən zərərçəkmiş insanlara, xüsusən də şəhid ailələrinə, qazilərə hərtərəfli qayğı ölkəmizdə sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikamızda sistemli və ardıcıl xarakter daşıyır.

Qeyd edilib ki, Vətən müharibəsindən sonra bu tədbirlərin əhatə dairəsi daha da genişləndirilib, tədbirlərdə şəhid və qazi ailələri üzvlərinin iştirakı ənənəvi xarakter alıb. Artıq ikinci dəfədir təşkil edilən "Zəfər düşərgəsi" layihəsi də Vətən müharibəsində əldə edilmiş tarixi qələbəyə ithaf olunub.

Naxçıvan Muxtar Respublikasının Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli vurğulayıb ki, belə layihələr həm də gənclərə vətənpərvərlik ruhunun aşılanması və onların bu istiqamətdə formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Düşərgənin ilk gününün davamında Naxçıvan şəhərindən dəvət edilmiş mütəxəssis tərəfindən uşaqlarla psixoloji seans aparılıb, günün ikinci yarısında isə onların vaxtının əyləncəli təşkili məqsədilə müxtəlif oyunlar təşkil olunub. Həmin gün düşərgədə təşkil edilən "İstedadını göstər" adlı yaradıcılıq müsabiqəsi də iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

"Zəfər düşərgəsi"nin ikinci günü səhər idmanı ilə başlayıb və daha sonra Nağıl terapiyası ilə davam etdirilib. Əyləncəli terapiya növlərindən biri olan bu reabilitasiya prosesində uşaqlar milli nağıllarımızın personajlarını öz düşüncələri əsasında təsvir edib, mövzu ətrafında fikirlərini ifadə ediblər. Günün ikinci yarısında düşərgə iştirakçıları Naxçıvan şəhərinə yola salınıb.

# Prezidentin Fərmanı Azərbaycan elminin inkişafına təminat verir

Dördüncü sənaye inqilabının, süni intellektə əsaslanan informasiya cəmiyyətinin hökm sürdüyü müasir dövrümüzdə yüksək elm və texnologiyalar həm bütövlükdə bəşəriyyətin, həm də ayrı-ayrı xalq və dövlətlərin dayanıqlı inkişafının əsas hərəkətverici qüvvələri sırasında ön yerlərdən birini tutur.

Cəmiyyət həyatının heç bir sahəsi elmi biliklərin, onlardan qaynaqlanan texnika və texnologiyaların iştirakı olmadan tərəqqi edə bilməz, bir sıra sektorlar isə heç mövcud olmaz. O da faktdır ki, doğma Qarabağ torpaqlarının Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə düşmən tapdağından azad olunmasında əsgər və zabitlərimizin şücaəti ilə yanaşı, hərb elminin və texnologiyalarının ən müasir nailiyyətlərinin mənimsənilməsi, eləcə də tətbiqi mühüm rol oynamışdır.

Azərbaycan Cənubi Qafqazda və bütövlükdə ətraf regionlarda özünün dinamik inkişafı, cəmiyyət həyatının və iqtisadiyyatın müxtəlif sahələrində qabaqcıl mövqeyi ilə seçilir. Bu inkişafın təhsildə və müxtəlif elm sahələrində də gözlənilməsi təbiidir.

Məhz bu baxımdan xarakterikdir ki, son dövrlərdə Azərbaycan elminin mövcud durumu və gələcək inkişaf yolları cəmiyyət arasında geniş müzakirə mövzusu olmaqda davam edir. Əlamətdar haldır ki, bu müzakirələrə elmlə hər hansı əlaqəsi olub-olmamasından asılı olmayaraq ölkə ictimaiyyətinin bütün təbəqələri qoşulmuşdur. Yəni elmimizin və ölkədə uzun illərin gərgin əməyi sayəsində formalaşmış elmi potensialın taleyi hər kəsi maraqlandırmaqdadır.

Onu da xatırladaq ki, Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövrdə Ulu Öndər özünə qarşı olan ümumxalq sevgisindən və böyük nüfuzundan istifadə edərək cəmiyyətin elm və təhsilə, elmi potensiala münasibətinə məqsədyönlü şəkildə müsbət təsir göstərmiş, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını və bu müddəaları həyata keçirmək üçün lazımi vəzifələri qəti surətdə müəyyənləşdirmişdi. Müstəqillik illərində Ulu Öndərin və onun layiqli davamçısı Prezident İlham Əliyevin prinsipial mövqeyi, diqqət və qayğısı sayəsində Azərbaycan elmində bir sıra uğur və nailiyyətlər qazanılmışdır. Lakin bəzi hallarda əldə edilən uğurlar dünyanın müasir çağırışlarına və dövrün fasiləsiz dəyişən tələblərinə kifayət qədər sanballı cavab verməmişdir. AMEA-da son illərdə aparılan struktur, elmi-təşkilati və kadr islahatları isə gözlənilən nəticələri verməmişdir. Elmi idarəetmənin getdikcə daha da deqradasiyaya uğramağa doğru getdiyi belə bir zamanda Ulu Öndərin akademiyanı qorumaqla bağlı mövqeyinə sadiq qalmaqla bərabər, Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təcili addımlar atılmasına, müasir dövrün çağırışlarına cavab verilməsi, elm-təhsil-iqtisadiyyat zəncirinin real fəaliyyətinin təmin olunması baxımından ciddi tədbirlər görülməsinə ehtiyac yaranmışdı.

Məhz Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərinin həllində göstərdiyi qətiyyətli və ədalətli, eyni zamanda düşünülmüş və uzaqgörən qərarları ilə seçilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ciddi elmi əsaslı araşdırmaların nəticəsi olaraq, hər zamankı kimi, məsələlərə yetərli və vaxtında müdaxilə etmiş, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsinə imkan verən, bu istiqamətdəki fəaliyyətlərin gücləndirilməsinə münbit şərait yaradan fərman imzalamışdır.

Fikrimcə, bu fərmana münasibət göstərilməsi zamanı cənab Prezidentin 2003-cü ildə Azərbaycan Respublikasına rəhbərlik etməyə başladıqdan sonra vətəndaş cəmiyyətinin, müstəqilliyin və dövlətçiliyin, milli təhlükəsizliyin, elm, yüksək texnologiyalar, təhsil və mədəniyyətin inkişafı ilə bağlı qəbul etdiyi hər bir qərarının, verdiyi hər bir göstərişinin böyük uğurla nəticələndiyini əsla yaddan çıxarmaq olmaz.

Bu gün Azərbaycan elmi yeni, daha dərin islahatlar və keçid dövrünə qədəm qoyur. Cənab Prezidentin diqqət və qayğısına, analoqu olmayan dövlət dəstəyinə elm və təhsil sektorunun, elmi ictimaiyyətin də layiqli şəkildə cavab verməsi, Azərbaycan cəmiyyətinin və dövlətçiliyinin yüksəlişi və inkişafı, təhlükəsizliyinin təmin olunması planlarının gerçəkləşdirilməsində elmin və elm adamlarının ön sıralarda olmaları dövrün tələbidir. Qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən ən qısa zamanda uğurla gəlmək üçün elmimiz real potensiala malikdir.

Biz alimlər tam səmimi şəkildə inanırıq ki, İkinci Qarabağ müharibəsindəki Şanlı Zəfərin böyük memarının qeyd edilən fərmanı da, bütün digər qərarları kimi, uğur qazanacaq, Azərbaycan elminin intensiv inkişafına real zəmin yaradacaqdır.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

# Elmin və ali təhsilin birgə inkişafı zamanın tələbidir

## Azərbaycanda da bu istiqamətdə islahatların aparılmasına start verildi

**Azərbaycan elmi və təhsili bütün dövrlərdə dövlətin diqqətində olub. Prezident İlham Əliyev mütəmadi olaraq həm təhsilin, həm də elmin inkişafı ilə bağlı ciddi qərarlar verib.**

Etiraf etmək lazımdır ki, bu gün bəşəriyyətin inkişaf istiqamətlərini büsbütün dəyişən, Yer üzünün sosial-iqtisadi, mədəni mənzərəsini yenidən müəyyənləşdirən texnologiyalar elmin məhsuludur. Dünyanın ən böyük iqtisadi zənginlikləri biliyə, təhsilin qazandırdığı elmi təfəkkürə əsaslanır.

Zamanın çağırışlarına uyğun olaraq Azərbaycan dövləti də elm və təhsilin inkişafına mühüm prioritetlərdən biri kimi yanaşır. Ölkəmizdə son illərdə elm sahəsində müəyyən problemlər yaranırdı, AMEA-nın fəaliyyətində durğunluq hiss olunurdu. Artıq təhsil sahəsi ilə yanaşı, elm sahəsində də islahatların aparılması zərurəti yaranmışdı. Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) struktur islahatlarının aparılması vacib idi. Elm və təhsil elə bir sahədir ki, orada daim dəyişikliklər, yeniliklər olmalıdır. Buna müvafiq olaraq dövlət başçısı 2022-ci il iyulun 28-də "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzaladı. Fərmana əsasən, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırıldı. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Təhsil Nazirliyinə həvalə edildi. Nazirliyin yanında xüsusi qurumlar yaradıldı: Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi; Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi.

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev-Muzeyi əmlakları ilə birlikdə Mədəniyyət Nazirliyinin tabeliyinə verildi.

Prezident İlham Əliyevin bu qərarını elm işçiləri və respublika ictimaiyyəti böyük rəğbətlə qarşıladı. Belə bir struktur islahatları AMEA-nın elm və istehsalat qurumlarının işinin tənzimlənməsinə xidmət edəcək, elmi fəaliyyət sahəsində əlaqələndirmə, koordinasiya və qiymətləndirmənin gerçəkləşdirilməsinə nail olunacaq, struktur və idarəetmə baxımından əsaslı təkmilləşdirilmə işləri aparılacaq.

AMEA-nın vitse-prezidenti akademik Dilqəm Tağıyev deyir ki, Prezidentin bu fərmanı çox vacib və vaxtında imzalanmışdır: "Hesab edirik ki, elmin və ali təhsilin birgə inkişafı yeni səviyyədə qurulacaq. İdarəçilikdə də müəyyən addımlar atılacaq və optimallaşma baş verəcək. Akademiyanın alimləri və rəyasət heyəti də çalışacaq ki, bu qərardan irəli gələn bütün məsələləri vaxtında və yüksək səviyyədə həll etsinlər. İlk növbədə akademiyanın elmi istiqamətləri və prioritetləri, strukturun optimallaşdırılması, ümumilikdə elmin təşkilinin yeni səviyyədə müasir tələblərə cavab olaraq qurulması qarşımızda duran mühüm vəzifədir. Çalışacağıq ki, bu vəzifəni layiqincə yerinə yetirək".

Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor Sayalı Sadıqova söyləyir ki, bu fərman ilə Prezident Azərbaycanda elm və təhsilin inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu: "Cənab İlham Əliyevin imzaladığı fərman Azərbaycan elminin müasir çağırışlara uyğun olaraq inkişafını təmin etmək məqsədilə atılmış mühüm strateji addımdır. Bundan sonra Azərbaycanda elm köhnə ənənələrin üzərində yeni tələblərə uyğun olaraq inkişaf edəcək və beləliklə, Prezidentin ümumilikdə ölkənin iqtisadi inkişafında qarşıya məqsəd kimi qoyduğu neft kapitalını insan kapitalına çevirmək ideyası reallığa çevriləcək".

Sayalı Sadıqova onu da vurğulayır ki, qarşılıqlı birgə fəaliyyətin təmin edilməsi eyni zamanda Azərbaycan təhsilinin elmi tədqiqat yönümlü inkişafında imkanlarını genişləndirəcək: "Humanitar və ictimai elm sahələrinə xüsusi dövlət qayğısının bariz nümunəsi olaraq bu qurumlarda restrukturlaşmanın təşkili əsaslarının hazırlanması əslində bu sahə ilə məşğul olan alimlərin də qarşısına yeni vəzifələr qoyur ".

Son illər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən birini idarəetmə sisteminin optimallaşdırılması, şəffaflığın artırılması, yeni idarəetmə mexanizmlərinin tətbiqi və kadrlardan daha səmərəli istifadə edilməsi kimi kompleks yeniliklər təşkil edir. Bu islahatların əsas məqsədi ölkənin siyasi, iqtisadi və mədəni həyatının əsaslı şəkildə modernləşdirilməsidir. Belə bir şəraitdə elmi fəaliyyət sahəsində struktur islahatları, elm və təhsili vahid sistemdə birləşdirən dövlət tənzimlənməsinin həyata keçirilməsi, elmi istiqamətlərin müasir dövrün tələblərinə uyğunlaşdırılması, elmin nəticəliliyinə, milli, dövlətçilik mənafelərinə uyğunluğu, kadr təminatı və sair sahələrdə köklü və konseptual islahatların aparılması vacib idi.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan sürətlə müasir sənaye ölkəsinə çevrilir

## Ölkəmizdə sənayenin ÜDM-dəki payı 40 faizdən çox olduğu halda, dünya üzrə bu rəqəm 25 faizdən azdır



Dünyanın keçdiyi yola nəzər yetirdikdə görürük ki, bəşəriyyətin inkişafı ilk növbədə sənaye ilə bağlı olub. XX əsr isə bu sahədə özünün yüksəlişi ilə tarixdə qalıb. Ancaq bu sahənin daha yüksək səviyyəyə çatmasının indiki əsrdə olacağına şübhə yoxdur. Ötən əsrdə əldə edilən təcrübənin, elmin inkişafının sənayenin pik həddə çatmasına imkan yaratdığı üçün.

Azərbaycan müstəqilliyini bərpa etdikdən bugünəcən ölkəmizdə də sənayenin inkişafına xüsusi diqqət yetirilir. Artıq bu sahədə böyük uğurların qazanıldığını da söyləmək mümkündür. Məsələn, Azərbaycanın kosmik ölkə olması böyük uğurumuzdur. Cənubi Qafqaz ölkələrində istehsal olunan sənaye məhsullarının 80 faizinin bizim payımıza düşməsi də sıradan uğur deyil.

Prezident İlham Əliyev Azərbaycanı dünyanın inkişaf etmiş sənaye ölkələrindən birinə çevirməkdə qərarlıdır. Dövlət başçısının 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Söz düşmüşkən qeyd edək ki, 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Beləliklə də Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Mərkəzi yaradılmışdır ki, bu da ölkəmizi rəqəmsal və texnoloji mərkəzə çevirmək imkanı verir.

Azərbaycan Mərkəzi MDB məkanında yaradılan ilk belə qurumdur. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 2021-ci il 1 aprel tarixdən yeni mərkəzin fəaliyyətini də koordinasiya edir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir. Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahəsində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) yaradılmış mərkəzləri ilə sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün müəyyən işlər aparılır.

Dördüncü Sənaye İnqilabı fiziki, rəqəmsal və bioloji müstəvilər arasındakı sərhədlərin çulğalaşmasını təsvir etmək üsuludur. Bu, süni intellekt (AI), robototexnika, əşyaların interneti (IoT), 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir.

Azərbaycan qlobal çağırış və tendensiyalara adekvat cavab verən və postpandemiya dövründə yeni inkişaf trendlərinin tətbiqində ön sıralarda olmaqda qərarlıdır. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafı üçün əlverişli infrastrukturun, o cümlədən Dördüncü Sənaye İnqilabının standartlarına uyğun şəraitin formalaşdırılması istiqamətində fəal iş aparılır.

Prezidentin köməkçisi, Azərbaycan Respublikası Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov ölkəmizdə Dördüncü Sənaye İnqilabının milli iqtisadiyyatına müsbət təsiri barədə bu günlər dərc edilmiş məqaləsində yazmışdır: "Dördüncü Sənaye İnqilabının əhatə etdiyi bio, fiziki və rəqəmsal texnologiyaların tətbiqinin genişlənməsi, insan kapitalının güclənməsi, idarəetmənin səmərəliliyinin yüksəlməsi, eyni zamanda bu ilin ilk altı ayında qeyri neft-qaz sektorunda əsas kapitala yönəldilmiş vəsaitlərin 18,5 faiz artması iqtisadi artımı şərtləndirən amillərdir. Xüsusən də qeyri neft-qaz sahəsində əsas fondlara yatırılan sərmayənin fiziki və mənəvi aşınmanı qarşılaması, əsas fondların verimliliyini yüksəldir ki, bu da iqtisadi artımın drayverinə çevrilir. Prezident İlham Əliyevin rəhbərliyi altında biznes mühitinin əlverişliliyinin yüksəldilməsi və dövlət təşviqlərinin verilməsi siyasəti ölkəyə sərmayə cəlbini və sərmayə qoyuluşunun səmərəliliyini artırır. Hazırda Azərbaycanda yeddi sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Araz Vadisi İqtisadi Zonası sənaye parkları, eləcə də beş sənaye məhəlləsi - Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir. 2021-ci ildə 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilir. Prezident İlham Əliyevin sənaye siyasətinin nəticəsində Azərbaycan Avropada sənayenin ÜDM-də xüsusi çəkisinə görə öndə gedən ölkələrdəndir. Dünya Bankının hesablamalarına görə, sənayenin ÜDM-də payı Azərbaycanda 40 faizdən çox olduğu halda, dünyada orta göstərici 24,8 faizdir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "İnformasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi" peşəsi üzrə kursa qəbul başlayıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi "4MAPS ACADEMY" MMC ilə əməkdaşlığa başlayır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin əməkdaşlığın nəticəsi olaraq "İnformasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi" peşəsi üzrə hazırlıq kursu təşkil ediləcək və uyğun namizədlər işlə təmin olunacaqlar.

İnformasiya sistemləri üzrə peşə hazırlığına cəlb olunacaq şəxslərə Türkiyənin peşəkar müəllim-pedaqoji heyəti tərəfindən coğrafiya informasiya sistemlərinin (GİS) əsas tətbiqləri, 3D xəritəçəkmə, şəhərsalmada GİS və s. haqqında ətraflı məlumat veriləcək. 3 aylıq kurs müddətində dərslər onlayn formada həftədə iki dəfə 3 saat ərzində tədris olunacaq. Kursa minimum orta təhsilli, 20-30 yaş həddində işsiz vətəndaşlar müraciət edə bilərlər.

Peşə hazırlığı kurslarını müvəffəqiyyətlə bitirən və işəgötürənin tələblərinə cavab verən şəxslər "Here Technologies" tətbiqinin MDB, Yaxın Şərq və Azərbaycan, "Yandex Maps" tətbiqinin isə Azərbaycan üzrə təmsilçisi olan "4MAPS Bilgi Teknolojileri" MMC-də işlə təmin olunacaq.

"İnformasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi" üzrə peşə hazırlığı kurslarına müraciət etmək istəyənlər avqustun 20-dək şəxsiyyəti təsdiq edən sənədlə Bakı (Yasamal rayonu, Məhəmməd Xiyabani, 9) və Abşeron-Xızı Regional Məşğulluq filialına (Sumqayıt şəhəri, 9-cu mikrorayon, ev 64) yaxınlaşa bilərlər.

# Yeni tədris dövrünə hazırlıq prosesi davam edir

Bu ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrünə hazırlıq prosesi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yeni tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazaları, poliqonlar, döyüş texnikaları, şəxsi heyətin silahı və döyüş təchizatı yoxlanılıb.

Qeyd edək ki, ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığı səviyyəsinin yüksək səviyyədə saxlanılması məqsədilə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla təşkil edilərək keçirilir.

# Şərəfli peşəyə xələl gətirənlər

## Yeni inkişaf dövrünü yaşayan Azərbaycan mətbuatında "reket jurnalist"lərə qarşı mübarizə daha da gücləndirilməlidir

Şərəfli tarixi keçmişi olan və bu gün yeni inkişaf dövrünü yaşayan Azərbaycan mətbuatının keçdiyi dövr olduqca zəngin bir inkişaf yoludur.



Ölkədə güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübkeşi olan mətbuatın formalaşması və inkişafı dövlətin mətbuat siyasətinin əsas xəttini təşkil edir. Ölkədə söz, mətbuat, özünüifadə azadlığının təmin edilməsi üçün bütün şərait yaradılıb və hazırda çoxsaylı çap, internet mediasının sərbəst fəaliyyət göstərməsi bunun əyani təzahürüdür.

Ölkəmizdə hər hansı bir media qurumunun, həmçinin xəbər portallarının yaradılması üçün heç bir məhdudiyyət tətbiq edilmir. Bundan əlavə, ölkədə internetdən, sosial şəbəkələrdən geniş istifadə etmək üçün bütün imkanlar yaradılıb. İnsanlar sosial şəbəkələrdə öz fikir və rəylərini sərbəst, rahat şəkildə ifadə edə bilirlər.

Amma təəssüf hissi ilə qeyd etməliyik ki, yaranmış bu imkanlardan sui-istifadə edənlər də mövcuddur. Bəziləri söz, mətbuat azadlığından öz məqsədləri üçün istifadə edib şər-böhtandan da çəkinmirlər. Yəni "reket jurnalistikası" ilə məşğul olanlar şantaja əl atmaqla yanaşı, həm də düşmənə sərf edən uydurma, yalan xəbərlər də yayırlar. Bu proseslər əsasən sosial mediada baş verir. Düzdür, həmin şəxslərə qarşı hüquq-mühafizə orqanları tərəfindən tədbirlər görülsə də, belə hallar davam edir, bəzən isə bir qədər də intensivləşir.

Bu məsələ ilə bağlı mətbuata açıqlama verən baş prokuror Kamran Əliyev bildirib ki, bəzi jurnalistlər və sosial media istifadəçiləri işin detallarını, incəliklərini bilmədən qəti fikirlər irəli sürürlər. Sanki sosial media istifadəçiləri, bəzi mətbuat orqanlarında çalışan əməkdaşlar özlərini tam hazırlıqlı hüquqşünas kimi hesab edirlər. Onlar mürəkkəb məsələlərə bəzən asanlıqla rəy verirlər.

Ümumiyyətlə, reketçilik fəaliyyəti hədə-qorxu ilə tələb etmək faktını təsdiqləyən hərəkətdir. Bu, jurnalistika ilə heç bir əlaqəsi olmayan, sırf cinayətkar fəaliyyətdir.

Məlum olduğu kimi, müasir jurnalistikanın əsas problemlərindən biri operativlik və obyektivlik arasında seçimetmə üsuludur. Əsl jurnalistlər hər hansı informasiya daxil olduqda onu tam dəqiqləşdirməmiş, tərəflərin fikrini öyrənməmiş və konkret fakt əldə etməmiş yazı yazmır və operativliyi obyektivliyə qurban verməkdən çəkinmirlər. Çünki düzgünlüyü aydınlaşdırılmamış operativ məlumatdansa, obyektivliyi təsdiq olunmuş gecikmiş informasiya daha üstündür. Qeyri-peşəkarlar isə, hətta şayiələri, dezinformasiyaları və sifarişli şantajları belə ucuz sensasiya xatirinə tələsik yayımlamaqla məşğuldurlar. Nədən ki bu "jurnalistlər" müasir jurnalistika texnologiyaları haqda təlim və ya təcrübə keçməyiblər, ona görə də informasiyanın necə alınması, hansı mənbələrdən təsdiqlənməsi, faktların əldə edilməsi, tərəflərin mövqelərinin verilməsi, ekspert fikrinin alınması və s. bu kimi jurnalistika texnologiyalarından xəbərsizdirlər.

Həmin şəxslər şər-böhtan atmaqdan, şantaj etməkdən belə çəkinmir, bu vasitə ilə pul qazanmağa can atırlar. Bəzi "media nümayəndələri", "siyasi bloqçular" və sosial media istifadəçiləri isə məsuliyyətsizlik edir, bilərəkdən və ya bilməyərəkdən düşmənə sərf edən hərəkətlərə yol verirlər. Son dövrdə dövlətin atributu olan, 44 günlük Vətən müharibəsində gücünü-qüdrətini dünyaya nümayiş etdirən müzəffər ordumzun haqqında yayılan yalan xəbərlər də bunun bariz təcəssümüdür. Bu da ilk növbədə qanunazidd fəaliyyətdir.

Əlbəttə ki, bu yola əl atanlar qazanc məqsədilə hətta antiazərbaycançı şəbəkəylə də "iş birliyi" qura bilərlər. Belə olan halda isə Azərbaycanı sevməyən xarici dairələr tərəfindən həmin kanallar vasitəsi ilə ölkəmizə qarşı müxtəlif kampaniyaların aparılması qaçılmaz olar. Bu durumla həmin şəxslər təxribatçı məlumatlarla gündəmin dəyişdirilməsinə cəhdlər edə, aranı qarışdırmağa çalışarlar.

Hüquq-mühafizə orqanlarının belə şəxslərə qarşı ardıcıl ciddi tədbirlər görməsinə baxmayaraq, bəziləri çirkin əməllərindən əl çəkmirlər. Baş prokuror Kamran Əliyev qeyd edir ki, "reket jurnalistikası" ilə məşğul olan şəxslər məsuliyyətə cəlb olunurlar. Onların barəsində qanunamüvafiq tədbirlər görülür və onların cinayətkar fəaliyyətinin qarşısı alınacaqdır.

Adını jurnalist qoyub bu sahəyə yalnız şantaj yolu ilə pul qazanmağa gələnlərin belə əməlləri ifşa olunmalıdır. Şantaja, böhtan və təhqirə məruz qalan şəxslər də susmamalı, öz haqlarını qorumaq üçün məhkəmələrə üz tutmalıdırlar. Peşəkar jurnalistika bu cür "jurnalistlər"in ifşa olunmasında hər zaman maraqlı və aktiv olmalıdır. Belə mübarizə aparılarsa, bu şərəfli peşəyə ləkə gətirənlərin sayı getdikcə azalar... Amma mübarizə aparmaq təkcə dövlət və qələm əhlinin deyil, vətəndaş cəmiyyətinin və ayrı-ayrı vətəndaşların da vəzifəsidir. Yalnız bu cür mübarizə effektiv ola bilər.

Baş prokuror Kamran Əliyev hesab edir ki, bu istiqamətdə media orqanları ilə birlikdə tədbirlər planı hazırlanmalı və həyata keçirilməlidir. Yəqin ki, yaxın zamanlarda bu məsələ də öz həllini tapacaq. "Reket jurnalistika"ya qarşı mübarizə getdikcə daha da gücləndirilməlidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan tibb tarixinin əlamətdar hadisəsi

## Birinci Beynəlxalq Tibbi Forum müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu oldu

**Azərbaycan tibb tarixinin ilk böyük forumunun 18-21 iyun 2022-ci ildə Naxçıvan Muxtar Respublikasının paytaxtında keçirilməsi uzun illər ərzində bu bölgədə qurulan müasir səhiyyə infrastrukturunun və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir.**





Bununla əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2022-ci il iyunun 10-da "Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında" sərəncam imzalamış, forumun keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır.

Bu gün cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında xüsusi rolu olan Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hər bir millətin tərəqqisinin əsas istiqamətlərindən biri olan elmə, təhsilə və səhiyyəyə göstərilən böyük diqqət və qayğı aparılan intibah hərəkatının üzvi tərkib hissəsi kimi muxtar respublikanın daha da inkişaf etməsini şərtləndirən əsas amillərdəndir.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli səhiyyə sistemi, öncə bu sahədə ənənəviliklə müasirliyin üzvi vəhdətinin təmin olunması, eləcə də Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğunlaşdırılması prinsiplərinə əsaslanır. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən səhiyyənin və xüsusilə də ali tibb təhsilinin inkişafına xüsusi əhəmiyyət verilməsi, yüksək qayğı və diqqət göstərilməsi, yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm yer verilməsi sayəsində böyük uğurlar qazanılmaqdadır. Bu müddətdə Naxçıvan Dövlət Universitetində də ardıcıl və hərtərəfli dövlət qayğısı sayəsində təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikasında böyük inkişaf mərhələsi kimi səciyyələnən bu dövr universitet həyatı üçün də əlamətdar olmuşdur. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı məqsədilə nəzərdə tutulan proqram və layihələr, regionun sosial-iqtisadi inkişafı ilə paralel aparılaraq bütövlükdə ölkəmizdə həyata keçirilən düzgün, düşünülmüş inkişaf strategiyasının uğurlu nəticəsi hesab edilir.

Naxçıvan Dövlət Universitetində beynəlxalq fəaliyyətin tənzimlənməsi və inkişafı üzrə siyasi xəttin fəlsəfəsi Azərbaycan təhsilini uğurlu nəticələr qazanmış ölkələrin təhsil təcrübələri ilə zənginləşdirməkdən ibarətdir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə, dünya ölkələrinin ali məktəbləri ilə əlaqələrin qurulması və əməkdaşlığın yüksələn xətlə inkişafının prioritet qəbul edilməsinin məntiqi yekunu olaraq Naxçıvan Dövlət Universitetinin dünyanın ən yaxşı universitetləri sırasında - "Times Higher Education" (THE World University Rankings 2022) versiyası üzrə aparılan reytinq siyahısında yer alması qürurverici nailiyyətdir.

Azərbaycan Respublikasının ən dəyərli, qabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilən, şərəfli inkişaf yolu keçən, muxtar respublikanın əsas tibbi elm və təhsil mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə diqqəti cəlb edir. Universitetdə inkişaf etmiş ali tibb təhsili müəssisələri üçün xarakterik olan bütün struktur bölmələr yaradılmış, ilk dəfə olaraq burada müxtəlif yeniliklər tətbiq edilmiş və onların səmərəli fəaliyyəti təmin edilmişdir.











Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və Ümummilli Liderimiz Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Tibb fakültəsi böyük inkişaf yolu keçib, muxtar respublikada ixtisaslı həkim hazırlığının əsası qoyulub. Ötən 23 ildə fakültədə tələbələrin təhsili üçün lazımi şərait yaradılıb, müasir xəstəxana istifadəyə verilib, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulub. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 8 ixtisas üzrə 1284 tələbə təhsil alır ki, onlardan da 847-si xarici ölkə vətəndaşıdır.

Yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün Tibbi profilaktika, Müalicə işi, Əczaçılıq, Stomatologiya, 2020-ci ildən "Tibb" və "İctimai səhiyyə", 2021-ci ildən isə "Hərbi tibb" və "Psixologiya" ixtisasları üzrə həkim, eləcə də 32 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir. Ötən dövrdə fakültəni bitirən, bu gün səhiyyə müəssisələrində çalışan, ürək və digər cərrahi əməliyyatları uğurla həyata keçirən, həmçinin dünyanın bir çox ölkələrində - Almaniya, İspaniya, Hollandiya, ABŞ, Nigeriya, Türkiyə, İran, Kipr, Gürcüstan və başqa xarici ölkələrdə də həkim kimi fəaliyyət göstərən məzunlarımız vardır.

Naxçıvan səhiyyəsinin inkişafı tarixində xüsusi yerə malik universitet öz fəaliyyətində təhsili, elmi və tibbi daim üzvi şəkildə birləşdirmiş, ötən illər ərzində təbabətin ən müxtəlif sahələri üçün yüksək bilikli və bacarıqlı kadrların yetişməsində, həmçinin mötəbər elmi mərkəz kimi fundamental tədqiqatların aparılmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvan Dövlət Universitetində beynəlxalq əməkdaşlıq əlaqələrinin davamlı genişləndirilməsi və tibb təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən siyasət bəhrələrini verməkdədir.

Birinci Beynəlxalq Tibbi Forum praktik tibb fəaliyyəti ilə məşğul olan həkimlərin bilik, bacarıq və peşəkar vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş proses kimi, Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditasiya olunmaqla ölkədə və ya beynəlxalq səviyyədə qeydiyyata alınmış davamlı tibbi təhsil (DTT) üzrə hər il minimal zəruri miqdar olan 48 kreditdən, hər iştirakçı üçün 24 kredit vahidi, məruzəçilər üçün isə 29 kredit vahidinin toplanması baxımından mühüm əhəmiyyət daşımışdır.

Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə 3 dildə - Azərbaycan, ingilis və rus dillərində keçirilən, ölkəmizin tarixində böyük həcmdə təşkil olunmuş ilk tibbi forumda dünyanın 7 ölkəsindən 400-ə yaxın tibb sahəsi üzrə elm adamı daxil olmaqla 700-dən çox mütəxəssis iştirak etmişdir.

Forumda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev, Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcı, İstanbul Yeditəpə Universitetinin rektoru, professor Canan Aykut Bingöl, Ərdəbil Universitetinin prorektoru, professor Farhad Pourfarzi, Qazi Universiteti, Ərzurum Atatürk Universiteti, İstinye Universiteti, Koç Universiteti, Qaziantep Universiteti, Rusiya Vişnevski İnstitutu, Dağıstan Dövlət Tibb Universiteti, Özbəkistanın Daşkənd Tibb Akademiyasının yüksəkvəzifəli təmsilçiləri iştirak etmişlər. Universitetlərlə yanaşı, forumda iştirak üçün müxtəlif tibb müəssisələrinin rəhbər və məsul işçiləri - Respublika Klinik Xəstəxanasının direktoru, tibb üzrə fəlsəfə doktoru Azər İsmayılov, Bakı Sağlamlıq Mərkəzinin direktoru, dosent Asiman Həsənov, Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb üzrə fəlsəfə doktoru Allahverdi Musayev, Memorial Şişli Xəstəxanası orqan transplantasiyası bölməsinin sədri, professor Koray Acarlı, Qazaxıstan Milli Elmi Cərrahiyyə Mərkəzindən dosent Mismil Muradov, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzindən dosent Dilqəm Məhərrəmov, Almaniya Nyürnberq Beta Bayern Biotech nümayəndəsi, tibb üzrə fəlsəfə doktoru Cəlal Solati, LİV Hospitaldan professor Koray Karabulut, İstinye Universiteti "Urologiya" kafedrasının müdiri, professor Volkan Tuğçu və başqaları Naxçıvan şəhərində oldular.

Forumda bir sıra nüfuzlu beynəlxalq dərnək və cəmiyyət sədrləri - Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyinin sədri, dosent Müşviq Həsənov, Türk Gastroenteroloji Dərnəyi sədri, professor Dilek Oğuz, Ulusal Endoskopik Laparoskopik Cərrahi Dərnəyi fəxri sədri, professor Cavit Avcı, Türkiyə Obezite Cərrahi Dərnəyi sədri, professor Mustafa Taşkın, Türkiyə Pelvik Ağrı & Endometriozis Dərnəyi sədri, professor Erkut Attar, Türk Ostomi Cerrahi Dərnəyi sədri, professor Ömer Alabaz, YOUNG İFSO prezidenti, dosent Halit Eren Taşkın, Sağlamlıq Assosiasiyasının prezidenti, professor Qalib Qarayev, Azərbaycan Qastroenteroloq və Hepatoloqları İctimai Birliyinin prezidenti, dosent Gülnarə Ağayeva, Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, dosent Cabbar Həsənov, Böyrək Transplantasiyası Mütəxəssislər Assosiasiyasının sədri, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolan, "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Taryel Ömərov, Plastik Cərrahlar Assosiasiyasının sədri, professor Vaqif Qələndər, AELCD-nin İnvaziv Endoskopiya bölməsinin sədri, tibb üzrə fəlsəfə doktoru Aqil Ağakişiyev və başqaları iştirak etmişlər.

Forumun açılışından əvvəl gələn qonaqların Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül qoyması və Heydər Əliyev Muzeyi ilə tanışlığı müstəqil Azərbaycanın qurucusu və memarı olmaqla yanaşı, bütün Şərq, türk dünyasında tanınan görkəmli dövlət xadimi, dünyaşöhrətli siyasətçi kimi tarixdə iz qoyan bu böyük şəxsiyyətə həm də elm və təhsilin, səhiyyənin inkişafı istiqamətində göstərdiyi əvəzsiz xidmətlər qarşısında böyük ehtiramın ifadəsi idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov forumun açılış tədbirində giriş sözü söyləyərək Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibbi Forumun dünyanın mötəbər universitetlərini təmsil edən tanınmış həkim və mütəxəssislər arasında birgə elmi tədqiqatların və fikir mübadiləsinin aparılmasında faydalı olacağına inamını ifadə etmiş, təşkilatçılara təşəkkürünü bildirərək demişdir: "Sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilmişdir. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur". Ali Məclisin Sədri səhiyyənin inkişafında ixtisaslı kadr hazırlığının, beynəlxalq elmi-təcrübə mübadiləsinin əhəmiyyətini də xüsusi vurğulamışdır: "Müasir dünyamızda xəstəliklərlə mübarizə prioritet məsələdir. Bu da, öz növbəsində, ixtisaslı tibbi kadr hazırlığını və səhiyyə sistemində ən son elmi nailiyyətlərin tətbiqini zərurətə çevirib. Böyük filosof və tibb alimi İbn Sina deyirdi ki, "Ümidsiz xəstə yoxdur, ümidsiz həkim var". Təcrübə də göstərir ki, həkimlərin peşəkarlığı artırılmadan nə səhiyyənin inkişafından, nə də insan sağlamlığından danışmaq mümkündür. Qarşılıqlı fikir mübadiləsinin aparılması, elmi-tibbi nailiyyətlərin öyrənilməsi və tətbiqi, beynəlxalq təcrübədən faydalanmaq, bu mənada mühüm əhəmiyyətə malikdir".

Açılış tədbirində Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Qaradəniz Texniki Universitetinin, Türkiyənin Yeditəpə Universitetinin rektorları və digər rəsmi təmsilçilər tərəfindən təbrik çıxışları edilmişdir. Açılış tədbirinin sonunda Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestri və Azərbaycanın tanınmış sənətkarlarının iştirakı ilə konsert proqramı təqdim olunmuşdur.

Forum çərçivəsində bir sıra sahələr üzrə xəstə müayinələri, cərrahi əməliyyatlar təşkil olunmuşdur. Forumun fəxri qonağı İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, tibb elmləri doktoru, professor Əziz Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanası PHŞ-də cərrahi əməliyyatlar, cərrahi stomatologiya üzrə professor Çingiz Rəhimov, tibb üzrə fəlsəfə doktoru Vüqar Qurbanov və tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərovun iştirakı ilə stomatoloji cərrahi əməliyyatlar həyata keçirilmişdir.

Azərbaycan Tibb Universitetinin və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanası PHŞ-də, Diaqnostika Müalicə Mərkəzi PHŞ-də, Universitet Xəstəxanası PHŞ-də və "İmplant Dent Nakhchivan" Stomotoloji Klinikasında "Endokrinologiya", "Oftalmologiya", "Qastroenterologiya", "Urologiya", "Süni mayalanma", "Ginekologiya", "Cərrahi stomatologiya" üzrə konsultativ müayinə və müalicələr aparılmışdır.

Forum müddətində Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Qaradəniz Texniki Universiteti və Yeditəpə Universiteti arasında ayrı-ayrılıqda ikitərəfli əməkdaşlıq müqavilələrinin imzalanması həyata keçirilmişdir. Bununla yanaşı, Naxçıvan Dövlət Universiteti rektorunun nüfuzlu dərnək və cəmiyyət sədrləri ilə görüşləri təşkil olunmuş və həmin qurumlarla gələcək əməkdaşlıqlar haqqında ilkin razılaşmalar əldə olunmuşdur.

Forumun açılışı günü Naxçıvan Dövlət Milli Dram Teatrının foyesində sponsor təşkilatlar tərəfindən muxtar respublikaya gətirilmiş tədris və tibbi avadanlıqlardan ibarət "Müasir tibbi texnologiyalar" sərgisi bütün forum müddətində Naxçıvan Dövlət Universiteti Konservatoriyasının hər 3 mərtəbəsinin foyesində də təşkil olunmuşdur.

Forum müddətində 4 kurs, 1 simulyasiya, 24 bölmə üzrə təşkil olunan elmi konfranslar, tibb elminin aktual problemlərinə həsr olunmuş master-klaslar, geniş müzakirələr və diskussiyalar şəraitində keçmişdir. Bu da tibb elminin bütün sahələrini əhatə edən beynəlxalq forumun yerli tibb mütəxəssislərinin zəngin dünyəvi təcrübə qazanması, ən son elmi yeniliklər ilə yaxından tanış olması baxımından əhəmiyyətliliyini bir daha təsdiq edir. Eyni zamanda gələcəkdə elmi və tibbi klinik sferada əməkdaşlıq üçün də geniş üfüqlər açır.

Forumda ilk dəfə olaraq tələbə elmi-tədqiqat işlərinin müzakirələri təşkil edilmiş, çoxsaylı müəllim və tələbənin yüksək elmi dərəcəli professorların iştirakı və dəyərləndirmələri ilə konfranslar həyata keçirilmişdir.

Birinci Beynəlxalq Tibbi Forumun Naxçıvan şəhərində keçirilməsi muxtar respublikanın turizm potensialının təbliği, eləcə də regionun tərəqqisi üçün mühüm amil olan ictimai-siyasi sabitliyə əsaslanan inkişaf strategiyasının uğurlu nəticələrinin tanıdılması baxımından xüsusi əhəmiyyət daşımışdır. Ən yüksək səviyyədə təşkil olunan forumda dünya təcrübəsindən səmərəli surətdə faydalanmaqla problemlərin həllinə yönəlmiş birgə səylər, yüksək elmi və elmi-təcrübi əhəmiyyətə malik olmaqla azərbaycanlı tibbi mütəxəssislərin, eləcə də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi professor-müəllim heyətinin xarici həmkarları ilə əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirərək, aktual mövzularda fikir mübadilələri ilə faydalı tərəfdaşlıqlar üçün yeni imkanlar yaratmışdır.

***Elbrus İSAYEV,***
***Naxçıvan Dövlət Universitetinin rektoru***

# REGİONLAR



# "...üçü yığıb gətirir"

## Ağstafa kəndlisinin üzü gülür









**Son illər Azərbaycanda qeyri-neft sektorunun əsas sahəsi olan kənd təsərrüfatının inkişafına dövlət tərəfindən xüsusi diqqət verilir. Bunun təsadüfi olmadığını bilmək üçün təkcə son aylar dünyada baş verən məlum hadisələri təhlil etmək kifayətdir.**

Qeyd etmək lazımdır ki, iki ilə yaxın hökm sürən pandemiya dövründə ölkəmizdə aqrar sektorun fəaliyyəti zəifləməmiş, kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilmişdir. Aqrar sektorun inkişafına dövlət tərəfindən hərtərəfli dəstək verilməsi fermerlərdə stimul yaratmış, onları daha yaxşı işləməyə, yüksək göstəricilərə nail olmağa səfərbər etmişdir. Bu gün də kənd təsərrüfatının əsas istiqamətləri üzrə məhsul istehsalını artırmağa, ərzaq təhlükəsizliyinin təminatına töhfə verməyə geniş imkanlar mövcuddur.

Ağstafa rayonunun fermerləri də bu imkandan istifadə etməklə son illər kənd təsərrüfatının əksər sahələri üzrə uğurlara imza atmışlar. Ötən təsərrüfat ilində 9071 hektarda taxıl əkən fermerlər hər hektardan 34,7 sentner taxıl götürmüşlər. Bundan başqa, 394,1 hektarda qarğıdalı, 713 hektarda kartof, 1030 hektarda günəbaxan, 92,3 hektarda paxlalı bitkilər, 575 hektarda tərəvəz becərən ağstafalılar yüksək göstəricilərə nail olmuşlar. Onlar məhsuldarlığı qarğıdalıda 36, kartofda 313, günəbaxan bitkisində 17, paxlalı bitkilərdə 16,8 sentnerə çatdırmışlar.

Rayonda ilk dəfə üzümçülükdə ən yüksək göstəriciyə nail olunmuşdur. Hazırda rayon ərazisində 496 hektar üzüm bağı mövcuddur və onun 469 hektarı bar verəndir. İl ərzində rayon üzrə 7358 ton üzüm yığılmışdır. Məhsuldarlıq 156 sentnerə çatmışdır. Bağlardakı mövcud vəziyyət onu deməyə əsas verir ki, bu il məhsuldarlıq daha çox olacaq.

Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də rayonda xeyli işlər görülmüşdür. Belə ki, ötən il süni yolla mayalandırılmış 1783 baş inək və düyələrdən 942 baş buzov alınmışdır. Bundan başqa, rayon üzrə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 358 arıçı qeydiyyatdan keçmiş və 6980 aktiv arı pətəkləri bəyan edilmiş, dövlət tərəfindən verilən subsidiya hər bir fermerin şəxsi kart hesabına köçürülmüşdür.

Keçən il qazanılmış uğurları rayon fermerləri son hədd hesab etmirlər. Əkin sahələrini bir qədər də genişləndirən rayon taxılçıları cari ilin məhsulu üçün 9015,6 hektarda taxıl səpini aparmışlar ki, onun da 6952,6 hektarı buğda və 2063 hektarı arpa olmuşdur. Hazırda zəmilərdə son biçin aparılır. İndiyədək hər hektardan 36,5 sentner buğda, 28,7 sentner arpa yığılmışdır. Əvvəlki illərdə olduğu kimi, builki məhsul yığımında da "Ağstafa Aqrar Sənaye Kompleksi" MMC fərqlənir. İndiyədək kompleks 1404 hektarda biçin aparmışdır. Fermerlərdən Asif Allahverdiyev 52, Araz Abbasov isə 150 hektarda biçini başa çatdırmışlar.

Bundan savayı, cari təsərrüfat ilində rayon üzrə 417,1 hektar qarğıdalı, 99,2 hektar paxlalı bitkilər, 1166 hektar günəbaxan, 715 hektar kartof, 622,4 hektar tərəvəz, 82 hektar bostan və 4699,5 hektar sahədə yonca əkilmişdir ki, həmin sahələrdən də bol məhsul gözlənilir.

Hazırda kənd təsərrüfatı məhsullarının yığımı davam edir. Ağstafalılar zəhmətlə yetişdirdikləri məhsulları itki vermədən yığıb tədarük etmək üçün əllərindən gələni əsirgəmirlər. Bilirlər ki, bu gün çəkdikləri əziyyətin bəhrəsini sabah dolanışıqlarında hiss edəcəklər.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

◆ **Bu barədə düşünək**

# Xam pambığın satınalma qiymətləri fermerləri qane etmir

## Belə getsə, bu strateji sahəyə maraq azala bilər

**Pambıq bitkisini körpə uşağa oxşadırlar. Deyirlər, körpə uşağa necə diqqət, nəvaziş göstərir, bəsləyirsənsə, pambığa da gərək elə qayğıkeşliklə yanaşasan, əks halda ümidin doğrulmayacaq. Nə isə əlavə etməyə ehtiyac yoxdur, yerinə düşən bənzətmədir.**

Pambıq əkib-becərən fermerlər, torpaq mülkiyyətçiləri şumu apardıqdan, çiyidi torpağa səpəndən pambığı yığıb qurtaranadək hər gün sahələrdə olurlar. Toxum cücərib torpaqdan baş qaldırdıqdan sonra bitkinin inkişafına mane olan alaq otları mütləq vaxtında təmizlənməlidir. Bu da kətmənləmə qaydasında görülür. İlkin vaxtlarda, yəni aprel və may aylarında havalar nisbətən sərin keçərsə, bəzi sahələrdə təkrar əkin aparmaq, bir çox sahələrdə tripis-mənənə xəstəliyi yayılarsa, dərmanlama işi həyata keçirmək lazım gəlir. Amma tələsməyin, qarşıda daha vacib işlər var. Cərgələr arasında kultivasiyanı lazım olan vaxtda etməsən, bitkilərin dibi yaxşı yumşaldılmadığından onlar inkişafdan qalacaq. Suvarma isə daha mühüm şərtdir. Belə bir deyim də var: "Pambığın ayağı suda, başı günəşdə olmalıdır". Bu mənada onun suyunu gecikdirsən, bitki gücdən düşərək üstündəki bar orqanlarını - güldarağı buraxacaqdır. Eləcə də yemləmə gübrəsi vaxtında, lazım olduğu qədərində və qaydasında verilməlidir. Kollar üstündə əmələ gələn bar orqanlarını, qozaları sovka adlı həşəratın yeyərək məhv etməsi təhlükəsi də hər an gözlənilir. Bu zaman kollar sovkaya qarşı dərmanlanmalıdır. Bu və digər tədbirlər kompleks becərməyə daxil olan aqrotexniki şərtlərdir. Kompleks becərmə isə bitkinin inkişaf fazalarına uyğun tətbiq edilməlidir. Vegetasiya dövründə kompleks becərmənin 4-5, bəzən 6 dəfə aparılması lazım gəlir. Nəhayət, pambıq yetişəndən sonra kolların dərmanlanaraq yarpağının tökülməsi və məhsulun yığılması, habelə təhvil verilməsi prosesinin başa çatması ilə fermer, mülkiyyətçi mövsümi işini tamamlayır.

Sadalanan bu işlərin hər biri ağır, gərgin zəhmət tələb edir. Hər hansı aqrotexniki tədbir vaxtında görülmədikdə əkinçi hövsələdən çıxır, əsəbiləşir. Xüsusən su qıtlığı pambıqçının ən yaralı yeridir. Üstəgəl, bütün bu işlərin qızmar günəş altında, 35-40, bəzən 42 dərəcə istidə görüldüyünü düşündükdə pambığın -"ağ qızıl" adlı məhsulun hansı zəhmətlər bahasına başa gəldiyini təsəvvür etmək çətin deyil.

Heç şübhəsiz ki, belə zəhmətin əvəzində pambıq əkinçisini qazancı maraqlandırmalıdır. Təxminən 5-6 il öncə pambıq əkənlər yaxşı qazanc əldə edirdilər. Bu da onunla bağlı idi ki, şirkətlərin fermerlər üçün gördüyü işlərin qiyməti indikinə nisbətən aşağı idi. Məsələn, 2020-ci illə 2022-ci illərin qiymət fərqini Neftçala rayonu üzrə nəzərdən keçirək: 1 hektar üçün 1-ci şumun qaldırılması 2020-ci ildə 33 manatdan 2022-ci ildə 40, müvafiq qaydada mala çəkmək 16 manatdan 18, çiyid səpini 12 manatdan 15, kultivasiya 14 manatdan 16 manata qaldırılmışdır. Digər işlərin görülməsində də artım var. Pambığın maşınla yığılmasındakı fərqin bu il 1-ci növ üçün 650 manat əvəzinə 750, 2-ci növ üzrə 630 manat əvəzinə 730, 3-cü növə görə 590 manat əvəzinə 690, 4-cü növ üçün 550 manat əvəzinə 650 manat olacağı gözlənilir. Təbii ki, bu artımlar təkcə Neftçala rayonu üzrə deyil. Pambıqçılıqla məşğul olan digər rayonlarda da vəziyyət aşağı-yuxarı eynidir.



Bəs xam pambığın satınalma qiymətində necə, artım varmı? Demək olmaz ki, yoxdur, var. Pambıq istehsalı ilə məşğul olan şirkətlər tərəfindən son illər qiymət iki dəfə hər kiloqrama görə 5 qəpik artırılaraq 75 qəpiyə çatdırılmışdır. Amma artan xərclər nəticəsində pambığın maya dəyərinin yüksəlməsi ilə müqayisədə bu, çox azdır və o üzdən torpaq mülkiyyətçilərini, fermerləri razı salmır.

Oqtay Səmədov, Salyan rayonunun Kürqaraqaşlı kənd sakini, fermer:

- Ağlım kəsəndən pambıq sahəsində olmuşam. Hələ orta məktəbdə oxuyarkən yay aylarında kəndimizdəki kolxozun pambıq tarlalarında müxtəlif işlər görərdik. Orta məktəbi bitirib Salyan Kənd Təsərrüfatı Texnikumunun Mexanizasiya şöbəsinə daxil oldum. Oranı bitirdikdən sonra kolxozda mütəxəssis kimi əmək fəaliyyətinə başladım. Müxtəlif sahələrdə çalışdım. Sovet hökuməti dağılandan sonra bir müddət işsiz qaldım. Nəhayət, 1996-cı ildən torpaq islahatında aldığım pay torpağını becərməyə başladım. Vaxt keçdikcə əlavə torpaqlar da alıb təsərrüfatımı genişləndirdim, taxıl, yonca, bostan-tərəvəz əkib-becərdim. Amma pambıqçılığı heç vaxt yaddan çıxarmadım. Çünki pambıq sərfəli olmaqla bərabər, həm də digər bitkilər üçün yaxşı sələfdir, torpağı safa çıxarır. İki il bundan əvvələdək pambığın qiyməti bizim üçün qaneedici idi. Lakin son bir-iki ildir ki, pambığın maya dəyəri artıb. Düzdür, pambığın satınalma qiymətini iki dəfə 5 qəpik-5 qəpik artırıblar, ancaq bu azdır. Pambığın kiloqramının qiyməti ən azı 1 manat olmalıdır.

Zabit Dadaşov, Neftçala rayonunun Qaralı kənd sakini, torpaq mülkiyyətçisi:

- Pambıqçılıq çətin işdir. Gərək diqqətin həmişə üstündə olsun. Bütün aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə görməsən, yüksək məhsul götürmək mümkün deyil. Son iki ildə su ilə bağlı yaranan problemlər işimizə xeyli ziyan vurub. Pambığı da gərək vaxtında suvarasan, yoxsa kolların üstündəki bar məhv olub gedir. Builki işləri indiyə kimi birtəhər yola vermişik. Ancaq son 15-20 gündə Kür çayında suyun azalması işlərimizə yenidən əngəl törədib. Kürdə su azalanda, Xəzərin şor suyu Kürə daxil olur. Şor su ilə isə pambığı suvarmaq mümkün deyil, çünki bitkilər yanır, torpaq şorlaşır. Belə olan halda hətta qoyduğun xərci götürmək mümkün olmur. Pambığın becərmə işlərinin bahalaşması da işlərimizi çətinləşdirib. Bu cür davam etsə, gələn il pambıq əkənlərin sayı azala bilər.

Lətif Cəfərov, Biləsuvar rayonunun Təzəkənd kənd sakini, fermer:

- Yaşım 85-i adlayıb. 70 ilə yaxındır pambıqçılıqla məşğulam. Sovet quruluşu dağılandan sonra - 1990-cı illərdə çox adam pambıqdan üz döndərəndə mən onu əkib-becərdim. Buna görə də mənə hətta "pambıq Məcnunu" deyirlər. Pambığı boş yerdən sevmirəm. Qazanc gətirən bitkidir, camaat üçün iş yeridir. Həm də dövlətə lazımdır, nahaq yerə ona strateji məhsul demirlər. Gəl ki, çox zəhmət tələb edir. Gərək uşaq kimi qayğısına qalasan. İndiki zamanda hamını gəlir maraqlandırır. Keçən ilə qədər müqavilə bağladığım "MKT" MMC-də görülən işlərin qiyməti bizə sərf edirdi. Lakin bu il qiymətlər hər sahədə birdən-birə artıb. Baxaq görək mövsümün sonunda necə olacaq.

Hazırda ölkəmizdə pambıq istehsalı və emalı ilə, əsasən, "MKT-İK" MMC, "P-Aqro" MMC və "Azərpambıq" MMC məşğul olur. Bir neçə xarici və yerli sahibkar da bu sahə üzrə yeni şirkətlər yaradırlar. Bu, yeni iş yerlərinin yaradılması, məşğulluğun artırılması baxımından təqdirəlayiqdir. Lakin şirkətlər arasında rəqabət, demək olar ki, hiss olunmur. Onların hər birində istehsal və alış qiymətləri, demək olar ki, eynidir. Bu yerdə qeyd edək ki, xam pambıqdan alınan mahlıcın və digər məhsulların qiymətləri dünya bazarında son illər əhəmiyyətli dərəcədə bahalaşmışdır. Bahalaşmayan pambığı yetişdirən əkinçinin əməyinə verilən qiymətdir. Bu səbəbdən adlarını çəkdiyimiz şirkətlər, Kənd Təsərrüfatı Nazirliyi və digər əlaqədar qurumlar öz qərarlarını verməlidirlər. Axı pambıq yığımının başlanmasına çox vaxt qalmayıb.

*Seyran CAVADOV, "Azərbaycan"*

# Tovuzda kartof yığımı başlanıb

Kartofçuluq Tovuzda ənənəvi sahədir və rayonun iqtisadi potensialının əsas hissəsini təşkil edir. Hər il olduğu kimi, bu il də rayonda kartofçuluğun inkişafı istiqamətində müəyyən işlər görülmüşdür.

Bu il rayonda 5947,1 hektarda kartof səpini aparılmışdır. Bunun 95,6 hektarı toxumçuluğun inkişafı üçün ayrılmış və həmin sahələrə "Marabel", "Arizona", "Kolomba-elit", "Kolomba", "Silvanna", "Sagitta" və "Orkestr-R1" sortları əkilmişdir.

Bu günə qədər 18687,5 ton məhsul yığılmışdır. Avqust ayının sonuna kimi məhsul yığımını başa çatdırmaq planlaşdırılır. İlkin yığım onu göstərir ki, bu il məhsuldarlıq ötən ildəkindən çox olacaq. Onu da qeyd edək ki, kartof yığımına 6 min nəfərdən çox mövsümi işçi cəlb edilib. Orta hesabla hər bir işçinin günlük gəliri 18-20 manatdır.

# Dəmyə şəraitində 34 sentner buğda

## Biçinin davam etdiyi Gədəbəydə məhsuldarlığın keçən ildəkindən 3-4 sentner çox olacağı gözlənilir

Gədəbəylilər hər il taxıl istehsalında yüksək göstəriciyə nail olurlar. Bu il də rayon üzrə məhsuldarlığın yüksək olacağı gözlənilir. Taxıl biçininin davam etməsinə baxmayaraq, artıq hər hektardan orta hesbala 34 sentner buğda, 25 sentner arpa biçilmişdir. Taxılçılar bu göstəricini dəmyə şəraitində yüksək hesab edirlər.



Qeyd edək ki, cari ilin məhsulu üçün rayonda 3 min 178 hektarda səpin aparılmışdır. Onun 2982 hektarı buğda, 196 hektarı arpadır. Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevin sözlərinə görə, yaz mövsümündə havaların yağmurlu keçməsi taxılçıların işinə yaramışdır. Nəticədə rayon ərazisində əkilən bütün taxıl sahələrində bol məhsul yetişmişdir. İndi bunun bəhrəsini görən fermerlərin üzü gülür.

Rayonda taxıl biçini üçün kifayət qədər texnika var. Hələlik zəmilərdə 20-yə yaxın kombayn, 30-a yaxın nəqliyyat vasitəsi işləyir. Bəzi sahələrdə taxıl yaxşı yetişmədiyi üçün kombaynların 10-u ehtiyatda saxlanılır. Qısa vaxt ərzində 700 hektara yaxın buğda, 50 hektara yaxın arpa sahəsinin məhsulu biçilib. Məhsuldarlıq keçən ildəkindən 4-5 sentner çoxdur. Mütəxəssislərin proqnozlarına görə, cari il məhsuldarlıq ötən mövsümdəkini 3 sentner üstələyəcək.

Gədəbəydə yüksək göstəricilər qazanan çoxlu sayda təsərrüfat var. Onlardan biri də Azəraqrar İstehsalat və Emal MMC-dir. Şirkətin Gədəbəy üzrə nümayəndəsi Zakir Qasımovun verdiyi məlumata görə, bu il təsərrüfat 70 hektarda elit toxumu əkmişdir. Biçinə digər təsərrüfatlardan bir qədər tez başlayan MMC yüksək məhsuldarlığa nail olmuşdur. Bundan əlavə, rayonun Tərs kəndindən Sakit Yəhyayev, Arabaçı kəndindən Gülyanə Bayramova, Söyüdlü kəndindən Fərman Abdullayev də biçdikləri zəmilərin məhsuldarlığından razıdırlar.

*S.ƏLİYEV, "Azərbaycan"*

# Daha 38 min kənd əhalisinin yolu yenidən qurulur

Vətəndaşların rahat gediş-gəlişini təmin etmək, kənd təsərrüfatının inkişafını sürətləndirmək məqsədilə ölkənin yol infrastrukturunun yenidən qurulması istiqamətində aparılan işlər davam edir.



Bu çərçivədə Neftçala rayonunun Neftçala-Xol Qaraqaşlı-Şorsulu avtomobil yolunun 7-ci km-dən ayrılan Həsənabad-Neftçala və Bankə-Beştalı avtomobil yolu yenidən qurulur.

38 min əhalinin yaşadığı 4 yaşayış məntəqəsini əhatə edən yolun uzunluğu 10 kilometrdir. Bu yol uzun müddət təmir olunmadan istifadə edildiyindən və təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Bu səbəbdən əsaslı şəkildə yenidən qurulmasına və bərpasına ehtiyac yaranan yol 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir. Yolun eni 10 metrə qədər genişləndirilir, bura 6 metr hərəkət hissə və 2 metr çiyinlər daxildir. Layihə çərçivəsində yolun 1,5 km-lik Bankə-Beştalı ərazisində Kür çayı üzərində yerləşən və uzunluğu 286 metr olan körpünün təmiri də nəzərdə tutulub. Avtomobil yollarının yenidən qurulması yolboyu yaşayan əhalinin rahat gediş-gəlişini təmin etməklə sözügedən kəndlər arasında nəqliyyat əlaqəsini xeyli yaxşılaşdıracaq.

# Şəkidə əhalinin sayı 190 min nəfəri ötüb

Cari ilin yanvar-iyun aylarında Şəki rayonunda əhalinin sayı ilkin hesablamalara görə, 341 nəfər artaraq 190 min 91 nəfərə çatıb.

Onlardan 68 min 400 nəfəri Turan və Çələbixan qəsəbələri ilə birlikdə şəhər, 121 min 691 nəfəri isə kənd əhalisidir. Əhalinin 36 faizi şəhər, 64 faizi isə kənd yerlərində məskunlaşıb.

Bu barədə AZƏRTAC-a Şəki Şəhər Statistika İdarəsinin rəisi Qəşəm Kərimov məlumat verib. İdarə rəisi bildirib ki, cari ilin yanvar-iyun aylarında Şəki rayonunda 986 uşaq dünyaya gəlib. Onların 507 nəfəri şəhər, 479 nəfəri isə kənd əhalisinin payına düşür. Altı ayda rayonda 645 ölüm halı qeydə alınıb. Həmin müddətdə rayon qeydiyyat şöbəsi tərəfindən Şəkidə 430 nikah və 115 boşanma halı rəsmiləşdirilib.

2022-ci ilin yanvar-iyun aylarında Şəkidə əhalinin təbii artımı 341 nəfər olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 180 nəfər azdır.

**30 İyul İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə Günüdür**

# Ümumbəşəri sosial bəla - insan alveri

## Azərbaycanda bu problemlə mübarizədə çoxlu tədbir həyata keçirilir, beynəlxalq əməkdaşlığa töhfələr verilir



**Dünyanın inkişaf etmiş əksər ölkəsində dövlət tərəfindən həyata keçirilən mühüm tədbirlərdən biri də insan alverinə qarşı mübarizədir. Günümüzün aktual məsələlərindən olan insan alveri ilə mübarizə istiqamətində müxtəlif ölkələrdə daim qabaqlayıcı tədbirlər görülür.**

Təbii ki, dünyanın bir parçası olan Azərbaycanda da insan alverinə qarşı ciddi mübarizə aparılır. Bununla bağlı respublikamızda hüquqi-normativ baza müəyyənləşdirilib. Ölkəmizdə insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edən "İnsan alverinə qarşı mübarizə haqqında" qanun mövcuddur.

Prezident İlham Əliyevin sərəncamına əsasən "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" da təsdiq edilib.

### Qurbanların sayı artır

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 18 dekabr 2013-cü il tarixli qətnaməsinə əsasən hər il 30 iyul tarixi İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur.

İnsan alveri - yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və digər məcburetmə vasitələri ilə həyata keçirilir. Cinayətkarlar bu məqsədlə külli miqdarda vəsait əldə edirlər. Onlar oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsini həyata keçirirlər.

Bu alver zamanı qurbana çevrilənlər gizli şəkildə saxlanılır, daşınır və ya satılır. Məlumatlara görə, son 13 ildə insan alveri sahəsində ən yüksək göstərici qeydə alınıb ki, bunun da illik dövriyyəsi 150 milyard dollar təşkil edir. Dünyada insan alveri qurbanları arasında qadınlar əsas yer tutsa da, bu sırada kişilər də yer alır. Beynəlxalq təşkilatların məruzələrinə əsasən, 2021-ci ildə təxminən 25 milyon insan alveri qurbanı aşkar edilib. Hər 10 qurbandan 5-i yetkin qadınlar və üçdəbiri uşaqlar olub.

İnsan alverinin müxtəlif növləri mövcuddur. Pandemiya dövründə insanların iş yerini itirməsi nəticəsində dünyada məcburi əməyə şərait yaradan hallar artsa da, Azərbaycan üçün məcburi əməklə bağlı cinayət halları xarakterik hesab olunmur. Belə ki, 2021-ci ildə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 3 məcburi əmək faktı aşkarlanaraq cinayət işləri başlanılıb və bu istiqamətdə aparılmış araşdırmalarla həmin cinayətdən zərərçəkmiş şəxslərin ölkə daxilində kənd təsərrüfatı sektorunda istismar edildiyi müəyyən olunub. Statistikaya əsasən, 2005-2021-ci illərdə aşkar edilmiş 1916 insan alveri cinayətindən yalnız 2,7 faizi (51) məcburi əmək cinayəti ilə bağlı olub. Ötən il Dövlət Əmək Müfəttişliyi Xidmətinin apardığı yoxlamalar zamanı 267 şəxsin əmək müqaviləsi olmadan işlədiyi müəyyən edilərək hüquq pozuntusuna yol verən işəgötürənlər barəsində 1.339.300 manat cərimə tətbiq olunub.

### 75 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb

Dünyada uşaq əməyinin istismarı halları da daim aktual məsələlərdən biridir. Azərbaycanda 2021-ci ildə ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq aşkarlanıb. Nəticədə övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 75 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.

Azərbaycanda insan alveri cinayətləri qeydə alınan ümumi cinayətlərin 0,6 faizini təşkil etsə də, bu sahədə daim mübarizə tədbirləri həyata keçirilir. Maarifləndirmə işləri aparılır, ölkə ərazisindən insan alveri məqsədilə tranzit istifadə edilməsinin və uşaq nikahlarının qarşısının alınması, təhsildən yayınan, övladlığa götürülmüş, qəyyumluğa, yaxud himayəyə verilmiş uşaqların ailələrinə nəzarətin həyata keçirilməsi, kütləvi informasiya vasitələrinin, internet informasiya ehtiyatlarının monitorinqi aparılır.

### Azərbaycan insan alveri qurbanlarını daim diqqətdə saxlayır

Azərbaycan bu sahədə beynəlxalq əməkdaşlığa da üstünlük verir. İnsan alverinin qarşısının alınması ilə bağlı beynəlxalq ixtisaslaşmış qurumlarla görüşlər keçirilir, təcrübələr öyrənilir. Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin insan alverinə qarşı mübarizə fəaliyyətinə dair illik hesabatlarında Azərbaycan ardıcıl olaraq 3 ildir ki, ikinci sıra nəzarət ölkələr sırasına aid edilir.

Ölkəmizdə insan alveri qurbanlarının aşkarlanması, onların sosial həyatının yaxşılaşdırılmasına, işlə, sığınacaqla təmin olunmasına, reabilitasiya və reinteqrasiyasına önəm verilir. Zərərçəkənlər daim diqqət mərkəzində saxlanılır. Azərbaycanda insan alveri ilə mübarizənin hüquqi müstəvidə aparıldığı son 17 ildə islahatlar, zəruri təşkilati və praktiki tədbirlər həyata keçirilib, qanunvericilik bazası yaradılıb, o cümlədən ölkəmiz insan alverinə qarşı mübarizədə müxtəlif beynəlxalq sənədlərə qoşulub. Bu sənədlər sırasında xüsusi yer tutan BMT-nin 2000-ci il tarixli "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoluna Azərbaycan 2003-cü ildə, 2005-ci il tarixli Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyaya isə 2010-cu ildə qoşulub.

### Ötən il 13 insan alverçisi aşkarlanıb

Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin statistikasına əsasən Azərbaycanda 2021-ci ildə insan alveri ilə bağlı 289 cinayət faktı qeydə alınıb. Bu say bir daha göstərir ki, bu sahədə cinayət faktları ötən illərə nisbətən artıb.

Cinayət faktlarından 156-sı insan alveri, 3-ü məcburi əmək, 43-ü insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər, 56-sı fahişəliyə cəlbetmə, 3-ü yetkinlik yaşına çatmayanı fahişəliyə cəlbetmə, 19-u əxlaqsızlıq yuvaları ilə bağlı olub. Ötən il respublikamızda 94 qadın, 1 kişi, yəni 95 nəfər insan alverinin qurbanı, insan alverçilərinin sayı isə 13 nəfər olub. Qurbanlardan 74-ü cinsi istismar məqsədilə müxtəlif ölkələrə aparılıb, 1 nəfər ölkə daxilində məcburi əməyə məruz qalıb. Onlardan 5 nəfəri 18-25, 59 nəfəri 25-35, 31 nəfəri isə 35-dən yuxarı yaş həddində olub.

Bu sahədə daim maarifləndirməyə, mübarizə tədbirlərinin görülməsinə baxmayaraq, insan hüquq və azadlıqlarını pozan, beynəlxalq təhlükəsizliyə təhdid yaradan insan alveri transmilli mütəşəkkil cinayətkarlığın ən təhlükəli növlərindən biri olaraq qalmaqdadır. Beynəlxalq əlaqələrin, gediş-gəlişlərin artdığı, internet şəbəkəsinin genişləndiyi belə bir dövrdə onlayn insan alveri də artmaqdadır.

Təbii ki, belə zərərçəkənlər arasında qadınlar üstünlük təşkil edir. Lakin uşaqlarımızın internetdən istifadəsi də onların aldanmasına, müxtəlif terrorçu təşkilatlara qoşulmasına, narkotik alverçisi və aludəçilərinə, orqan mafiyasının qurbanına çevrilməsinə gətirib çıxarır. Sosial şəbəkələrdən istifadə üçün yaş məhdudiyyətləri tətbiq olunsa da, təbii ki, bu, formal xarakter daşıyır. Valideynlər tərəfindən uşaqlara internetdən istifadə zamanı nəzarətin gücləndirilməsinin əsas faktorlardan biri olmasına baxmayaraq, texnologiyanın inkişaf etdiyi və internetin, demək olar ki, bütün sahələri əhatə etdiyi belə bir vaxtda bu nəzarət bir qədər müşkülə çevrilir. Hər bir halda yaşanan neqativ hallar, müəyyən aldatmalar insanların əsasən hüquqlarını bilməməsindən, məlumatsızlıqdan meydana çıxır. Ona görə də bu sahədə daim maarifləndirmə tədbirlərinə ehtiyac duyulur. Həm orta məktəblərdə, həm kütləvi informasiya vasitələrində bu barədə informasiyalara daha çox yer verilməli, xüsusən yetkinlik yaşına çatmayan şəxslərin bu sahədə bilikləri artırılmalıdır.

### Pandemiya dövründə onlayn insan alveri inkişaf edib

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qəzetimizə bildirib ki, Azərbaycan dövləti vətəndaşların sabit və təhlükəsiz şəraitdə yaşamasını, cinayət əməllərindən qorunmasını təmin edən möhkəm hüquqi bazanı və ictimai-siyasi təməlləri yaratmağa nail olub, bu sahədə beynəlxalq hüquqi sənədlərə qoşulub. Onun sözlərinə görə, bu sənədlər sırasında BMT-nin "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolu, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası xüsusi yer tutur.

Zahid Oruc qeyd edir ki, Azərbaycan "müasir köləlik" adlanan və bəşəriyyət adına utanc gətirən bu cinayətkalıq əməllərinin qarşısını almaq yönündə ciddi iradəsini ortaya qoyub və daim mühüm tədbirlər həyata keçirir: "Dünyada pandemiya zamanı insan alveri nəinki artıb, onun yeni trendi - "onlayn, kiber insan alveri" sürətlə inkişaf edib. Nəticədə yaranan çağırışların özü insan alverinə qarşı yeni qlobal səyləri ortaya qoymağı tələb edir".

### Qlobal tendensiya ölkəmizdən də yan keçmir

Komitə sədri vurğulayır ki, 2015-ci ildən başlayaraq cinayətlərin hər il artması müşahidə edilir. Bu da hazırkı dövrdə qlobal tendensiyanın ölkəmizdən də yan keçmədiyini deməyə əsas verir. Bununla yanaşı, faiz nisbəti ölkəmizdə vəziyyətin müsbətə doğru dəyişdiyini göstərir.

Milli Koordinator və Baş İdarənin müvafiq strukturu tərəfindən ölkəmizdəki vəziyyətin adekvat təhlili, Azərbaycanda da insan alverinə qarşı ümumdövlət tədbirləri və dövlətin müvafiq hüquq-mühafizə siyasətinin reallıqda olduğu kimi, tam dolğunluğu ilə əksini tapması beynəlxalq hesabatlarda ölkəmizin 8 il əvvəl tutduğu nisbətən yüksək səviyyəni qorumasına səbəb olub. Belə ki, ABŞ Dövlət Departamentinin insan alverinə qarşı mübarizəyə dair ənənəvi illik hesabatlarında Azərbaycan ardıcıl olaraq 3 ildir ki, 2-ci sıra/səviyyə ölkələr sırasına aid edilir. Bu 188 ölkə arasında yaxşı göstəricidir. Bununla yanaşı, hesab edirik ki, dəyərləndirmənin hər bir müddəasının təfərrüatlarının öyrənilməsini, milli qurumun onlara dair rəsmi, açıq mövqeyini irəli sürməsi məqsədəuyğun olar.

Zahid Oruc Vətən müharibəsinin və torpaqların işğaldan azad edilməsinin dünyada insan alverinə qarşı mübarizəyə töhfə olduğunu xüsusi vurğulayır. Burada mühüm məsələ Birinci Qarabağ müharibəsində itkin düşmüş 4000 vətəndaşımızın taleyi ilə bağlıdır. İtkin düşmüş və əsirlikdə olan soydaşlarımızla bağlı insan alveri sahəsində beynəlxalq qurumların tribunalarından məsələni daha sistemli qaldırmaq üçün koordinator bu sahədə dövlət strukturlarının fəaliyyətini bir arada təşkil edə bilər.

Komitə sədri bildirir ki, bu sahədə cinayətlərin fövqəladə çətinliyi, insan alverini həyata keçirənlərin yerli siyasi, sosial, iqtisadi və mədəni xüsusiyyətlərdən, çətin ayırd edilən yollardan istifadə etməsi hər kəsə məlumdur. Eyni zamanda məcburi əmək və uşaq əməyi istismarı ilə bağlı fəaliyyət formatının yenilənməsi, qeyri-hökumət təşkilatlarının bu sahəyə arxayınlıqla yanaşmasını aradan qaldırmaqla fəallığa təkan verilməsi təxirəsalınmaz məsələdir.

Zahid Oruc qeyd edir ki, "Azərbaycanda insan alveri qurbanlarının müdafiəsi və reabilitasiyası haqqında" qanunun qəbul edilməsi reytinqlərdə irəliləməmizə əsas verə bilər: "İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin internet saytında xəbərlərin müəyyən bir intensivlikdə yenilənməsi də ola bilər. Baş İdarənin bu həyati vacib sahəni nəzərə almaqla, sosial şəbəkələrdə aktivliyi kommunikasiya quruculuğuna töhfə verər, yeni cinayət qurbanlarının qarşısını alar".

### Diqqətli olmaq ən vacib nüansdır

Deyilənlər göstərir ki, insan alverinə qarşı nə qədər güclü tədbirlər görülsə də, qarşısının alınması istiqamətində addımlar atılsa da, bu halları aradan qaldırmaq mümkün deyil. Xüsusən informasiya texnologiyalarının inkişafını, demək olar ki, hər yaş qrupundan, hər təbəqədən olan insanın internet vasitəsilə dünyaya çıxışının mümkünlüyünü nəzərə alaraq belə halların artacağı da gözləniləndir.

Bununla belə, bu sahədə yalnız maarifləndirmə tədbirlərini gücləndirərək, insanları aldanmamağa çağıraraq, uşaqlara ciddi nəzarət şəklində belə faktların sayını müəyyən qədər azaltmaq olar. İnsanlar isə hər bir halda verilən vədlərin arxasında pis niyyətlərin olduğu ehtimalını unutmamalı, internet üzərindən tanış olduqları şəxslər tərəfindən gələn "gözəl" təkliflərə aldanmamalıdırlar.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# İslamşünaslıq ixtisasına qəbul olmaq istəyənlər üçün müsahibə mərhələsi başa çatıb





İyulun 27-29-da Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) III ixtisas qrupu üzrə bakalavr pilləsinin İslamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi başa çatıb.

Xatırladaq ki, İslamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsinin keçirilməsi məqsədilə Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən Dini Psixoloji Komissiya (DPK) yaradılmışdı. Komissiyanın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər, psixoloqlar, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və DİM-in əməkdaşları daxil edilmişdi.

Müsahibə zamanı abituriyentlərin ümumi dini bilikləri, İslamşünaslıq ixtisasına uyğunluqları, gələcəkdə din xadimi kimi fəaliyyət göstərməyə münasibətləri, insanlarla ünsiyyət bacarıqları, xitabət və natiqlik qabiliyyətləri qiymətləndirilib, psixoloji vəziyyətləri, yaradıcı təfəkkür imkanları yoxlanılıb.

Müsahibədən məqbul qiymət almış abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq ixtisasını da seçə biləcəklər.

Məlumat üçün bildirək ki, DPK ölkədə koronavirus (COVID-19) pandemiyasının daha geniş yayılmasının qarşısını almaq məqsədilə TƏBİB-in tövsiyələrinə uyğun olaraq fəaliyyət göstərib.

***"Azərbaycan"***

# ABŞ-ın siyasi tarixində bir ilk

## Respublikaçıların və demokratların sabiq üzvləri yeni partiyada birləşərək üçüncü böyük siyasi qüvvə yaratdıqlarını elan etdilər

ABŞ-dakı tarixi ikipartiyalı sistem üçüncü böyük siyasi qüvvənin yaradılması ilə dəyişdirilə bilər. Belə ki, tanınmış respublikaçı və demokratlar "İrəli" adlı yeni partiyanın təsis olunduğunu elan ediblər. Bu barədə partiyanın təsisçilərinə istinadən "Röyter" agentliyi xəbər verir.

Təsisçilərin dediyinə görə, yeni siyasi qüvvənin hələlik konkret gündəmi yoxdur, lakin özünü mərkəzçi partiya kimi təsdiqləməyi planlaşdırır. Onlar "Amerikanın üzləşdiyi böyük problemləri necə həll edəcəyik?" sualını belə cavablandırıblar: "Nə sola, nə də sağa. İrəli".

Agentlik qeyd edir ki, partiya proqramının əsas müddəaları "ədalətli, firavan iqtisadiyyatın dirçəldilməsi", həmçinin "amerikalılar üçün daha çox seçim, fəaliyyət göstərən hökumətə daha çox inam və gələcək haqqında öz fikirlərini bildirmək üçün daha çox imkanlar"dır.

### "İrəli" bütün ştatlarda qeydiyyatdan keçmək niyyətindədir

Partiya üç təşkilatın birliyinə əsaslanır. Bunlardan birincisi Ronald Reyqan, Corc Buş (ata), Corc Buş (oğul) və Donald Tramp administrasiyalarından keçmiş respublikaçılar tərəfindən 2021-ci ildə yaradılan "Renew America Movement" ("Amerikanı Yenilə") Hərəkatıdır.

İkinci üzv prezidentliyə keçmiş demokrat namizəd Endryu Yanqın ilkin "İrəli" (Forward Party) Partiyasıdır. Bundan əlavə, yeni siyasi qüvvədə sabiq respublikaçı konqresmen Devid Colli ətrafında birləşmiş keçmiş demokratlar, respublikaçılar və müstəqil siyasətçilər qrupu olan - "Serve America Movement" (Amerikaya Xidmət Hərəkatı) də iştirak edir.

Yeni partiyanın təsisçiləri 2023-cü ilin sonuna kimi 30 ştatda, 2024-cü ilin sonuna qədər isə 50 ştatın hamısında qeydiyyata və seçkilərə çıxış əldə etmək niyyətindədirlər.

### XIX əsrin ortalarından ikipartiyalı sistem fəaliyyət göstərir

XIX əsrin ortalarından bəri ABŞ-ın siyasi həyatında yalnız iki böyük partiya - Demokratlar və Respublikaçılar mühüm əhəmiyyət kəsb edir. Digər siyasi qüvvələr isə yalnız bəzi hallarda siyasi həyatın gedişatına əhəmiyyətli dərəcədə təsir göstərə bilirlər.




Bu cür hallardan biri 2000-ci ildə, Ralf Neyderin Yaşıllar Partiyasının təmsilçisi kimi prezidentliyə namizədliyini irəli sürdüyü və 3 milyon səs (2,74 faiz) aldığı zaman baş verib. Onun qazandığı səslərin demokrat Albert Qordan alınaraq Corc Buşa verilməsi ilə respublikaçı namizədin qalib gəlməsinə kömək etdiyi güman olunur.

Son məlumata görə, yeni partiyaya Endryu Yanq və Nyu Cersi ştatının keçmiş qubernatoru Kristin Todd Uitman rəhbərlik edəcəklər.

Onlar "Röyter"agentliyinə mərkəzçi "İrəli" Partiyasının ABŞ-ın iki əsas partiyasına alternativ olacağına ümid etdiklərini deyiblər. Bildirilib ki, partiya Amerikanın "uğursuz ikipartiyalı sistemi"ndən təşvişə düşən seçicilərə müraciət edəcək.

***R.CƏFƏROV, "Azərbaycan"***

# Qələbəyə hesablanan əzmkar oyun

## "Neftçi" çətin sınaqdan üzüağ çıxdı



**İyulun 28-də Azərbaycanın "Neftçi", "Zirə" və "Qəbələ" futbol klubları UEFA Konfrans Liqasının ikinci təsnifat mərhələsində cavab oyunlarını keçirib.**

Bu komandalar arasında yalnız futbolumuzun flaqmanı "Neftçi"nin növbəti tura keçmək ehtimalı yüksək dəyərləndirilirdi. Belə ki, "Zirə" və "Qəbələ" ilk görüşlərində rəqiblərinə 3 top fərqilə uduzmuş və praktiki olaraq üçüncü mərhələyə yüksəlmək şanslarını itirmişdi. Bakılılar isə rəqib meydanında Kiprin "Aris" klubuna 0:2 hesabı ilə məğlub olmuşdu. Bəri başdan deyək ki, Bakıda "Neftçi" çox çətin sınaqdan üzüağ çıxdı.

"Bakcell Arena"da keçirilən oyunda "Neftçi"nin start heyətində İvan Brkiç, Mamadu Mboc, Solomon Kvirkveliya, Kenni Sayef, Voislav Stankoviç, Emin Mahmudov, Qodsvey Donyo, Eddi İsrafilov, Azər Salahlı, Ataa Caber və Yusuf Laval yer almışdılar.

Kipr təmsilçisinin start heyətində isə meydana Vana, Kaju, Leo Benqtsson, Morqan Braun, Delmiro, Yannik Qomis, Stiv Yaqo, Mixlali Mayambela, Martin Sloqar, Frants Brorsson və Yulius Syoke çıxmışdılar.

Gözlənildiyi kimi , görüşün ilk dəqiqələrindən hücuma atılmağa çalışan flaqman rəqibin ciddi müqavimətilə rastlaşdı. Fiziki hazırlığı ilə seçilən kiprlilər hücumlarımızın qarşısını asanlıqla kəsir və özləri təhlükəli əks-həmlələr edirdi. Üstəlik, heyətinin az qala yarısını yeniləyən "Neftçi" səfərdəki məğlubiyyətdən sonra böyük təzyiq altında idi. Bu səbəblərdən oyunçular arasında anlaşma lazımi səviyyədə deyildi və tez-tez top itkiləri olurdu.

Matçın 38-ci dəqiqəsində Qodsvey Donyo fərdi ustalığı hesabına mükəmməl driblinqlə rəqibin müdafiəçilərini çaşbaş salaraq qapıya sərrast zərbə endirdi və hesabı açdı. Demək olar ki, zamanında vurulan bu qol oyunda dönüş nöqtəsi oldu. Belə ki, ikinci hissədə meydan sahibləri daha şən əhvali-ruhiyyədə mübarizə apardı və ilk yarıdakından fərqli, daha ağıllı və baxımlı futbol nümayiş etdirdi. Bu görüşdə "Neftçi"nin ən yaxşılarından olan Eddi İsrafilovun 57-ci dəqiqədə başla vurduğu ikinci qol bakılıların qurduğu yaxşı kombinasiyanın məntiqi nəticəsi idi. Cəmi 6 dəqiqədən sonra, qonaqlar bu şokdan hələ tam özlərinə gəlməmiş Kenni Sayef təxminən 22 metr məsafədən gözəl zərbə ilə hesabı 3:0 etdi. Bundan sonra flaqman təzyiqi azaltdı və müdafiəyə daha çox diqqət yetirməyə başladı. Oyunun sonlarında qonaqlar azlıqda qaldı. Belə ki, Kipr təmsilçisinin ingiltərəli yarımmüdafiəçisi Morqan Braun 82-ci dəqiqədə kobud oyuna görə ikinci sarı vərəqə alaraq meydandan qovuldu.

Görüş elə bu hesabla da başa çatdı. İki oyunun nəticəsinə görə, "Neftçi" klubu UEFA Konfrans Liqasının növbəti mərhələsinə yüksəldi. İlk oyundan sonra "Neftçi"nin rumıniyalı baş məşqçisi Laurensiu Regekampf mətbuat konfransında bildirmişdi ki, Larnakada göstərilənlər heç də onun komandasının səviyyəsi deyil. O vəd vermişdi ki, cavab oyununda rəqibə daha çox təzyiq ediləcək, komanda daha aqressiv olacaq və "Neftçi" məğlubiyyətin əvəzini artıqlaması ilə çıxacaq. Nəticədə belə də oldu.

Azərbaycan təmsilçisi UEFA Konfrans Liqasının növbəti mərhələsində "Rapid" (Vyana, Avstriya) klubu ilə üz-üzə gələcək. Beləliklə, "Neftçi"ni daha ciddi rəqiblə yeni sınaq gözləyir. "Rapid" komandasına qarşı ilk oyunun vaxtı müəyyənləşib. Bu komandalar arasındakı ilk qarşılaşma avqustun 4-də Bakıda baş tutacaq."Bakcell Arena"da keçiriləcək oyuna saat 21:00-da start veriləcək.

Tərəflər arasındakı cavab görüşü isə bir həftə sonra avqustun 11-də Vyanada keçiriləcək.

"Zirə" və "Qəbələ"yə gəlincə, onların cütlüyündə, təəssüf ki, hər şey ilk matçlardan sonra həll olunmuşdu. Buna baxmayaraq, hər iki komanda əvvəlcədən təslim olmadan sonadək mübarizə aparmağa çalışıb. "Qəbələ" Macarıstanın "Fehervar" klubu üzərində minimal hesablı qələbə qazanıb - 2:1. Bu, ölkəmizin klub reytinqinə əlavə xallar gətirsə də, mərhələ adlamaq üçün kifayət etməyib.

"Zirə" səfərdə İsrailin "Makkabi" (Təl-Əviv) klubu ilə oynayıb və qapılarını toxunulmaz saxlaya bilib. Bu dəfə Rəşad Sadıxovun yetirmələri daha yaxşı oyun nümayiş etdiriblər. Amma yenə də "Makkabi"nin qapısına yol tapmaq mümkün olmayıb və "Zirə" mübarizəni dayandırmalı olub.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 23 oktyabr (çərşənbə günü) tarixli XX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 16 məhərrəmülhəram sənə 1337. 23 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELANİ-RƏSMİ

Bilümum [ümumiyyətlə] Bakı və ətrafı əhalisinə:

1. Qadın və erkək, böyük və kiçik, hər hansı milliyyət, din, sinif və təbəədən olursa olsun, Bakı və həvalisi [ətrafı] sakini bilcümlə əhali: kəndi ev və məhəllələri heyəti-idarə və ixtiyariyyəsindən [idarə və ixtiyar heyətindən] namlarına mühərrər [adlarına yazılmış], isim, pədər [ata] ismi, məmləkət, məhəllə və soqaq [küçə], xanə nömrəsi, yaş, əşkal və əlaməti-fariqə [görünüş və fərqləndirici əlamət], sənət və ya məmuriyyət və sair xüsusati-mətlubəyi [tələb olunan xüsusları] göstərən "hüviyyət [şəxsiyyət] vərəqə"sindən birər dənə edinməyə [hərə bir ədəd əldə etməyə] məcburdurlar.

2. Tarixi-elandan iyirmi gün sonra çarşı, bazar, soqaq və evlərdə surəti-məxsusədə [xüsusi surətdə] sıx-sıx yapılacaq yoxlamalarda kəndi hüviyyət vərəqəsini ibraz [təqdim] edəmməyən hər kəs cəza görəcək və şübhəliədd [hesab] edilərək daxili-məmləkətə [ölkənin içlərinə] sövq olunacaqlardır.

3. Hüviyyət vərəqəsi olmayan şəxsin dəvairi-rəsmiyyəcə [rəsmi qurumlarda] heç bir işi görülməyəcəyi kimi, bey'üşəra [alqı-satqı], əqdi-icar [kirayə müqaviləsi] və sairə kimi işlərdə hüquqi-mədəniyyədən saqit [mədəni hüquqları əlindən alınmış] ədd ediləcək [sayılacaq] və hər hansı bir yerə səyahətində kəndisinə heç bir surətlə səyahət vərəqəsi verilməyəcəkdir.

4. Hüviyyət vərəqəsi olmayanları; ev, mağaza, otel, yazıxana, ticarətxana, fabrika və dəvairi-rəsmiyyəyə qəbul edənlər, şübhəli əşxası [şəxsləri] hökumətin nəzəri-təftişindən saxlamış ədd ədilərək və müxalifi-qanun hərəkətlərindən naşi [qanuna müxalif hərəkətlərinə görə] şədidən [şiddətli] cəza görəcəklərdir.

5. Tarixi-elandan iyirmi gün sonra hüviyyət vərəqəsini ibraz edəmməyən hər kəsi zabitə [asayiş keşikçiləri] tövqif və əxbara [həbs etməyə və xəbər verməyə] məcburdur.

6. İşbu əmr, tarixi-elanından etibarən Bakıda müntəşir [nəşr olunan] bilümum qəzetələrcə bir həftə müddətlə mütəmadiyyən nəşr olunacaqdır.

*Polis Müfəttişi-ümumisi Bəhaəddin*

## ELAN
## BAKI ZİRAƏT VƏ DÖVLƏT ƏMLAKI İDARƏSİNDƏN

Qusarçay, Xudat, Ləcət, Yalama və Samur mövqifləri [stansiyaları], habelə işbu mövqiflərə yavuq dövlət meşələrində naməlum zəvata [şəxslərə] məxsus olmaq üzrə külli miqdarda hazırlanmış odun mövcuddur.

Odun sahiblərinə təklif olunur ki, təşrini-saninin [noyabrın] 5-ə kimi bu barədə məlumat versinlər. Məlumatı təhrirən [yazılı surətdə] Bakı Ziraət İdarəsinə verməlidir. Məlumat ilə bərabər oduna sahib olmağı isbat edəcək vəsiqələr də pişnihad [təqdim] edilməlidir.

Təşrini-saninin 5-ə kimi məlumat verməyənlər mallarından məhrum olacaqlar. Odunlar xəzinə nəfinə [xeyrinə] zəbt olunacaqdır.

*Azərbaycan Meşələri müdiri*
*vəzifəsini ifaya müvəzzəf [icra edən]:*
*Nəcəf bəy Vəzirov*
*Bakı Ziraət İdarəsinin müvəqqəti naziri*
*vəzifəsini ifaya müvəzzəf:*
*Şpitalski*

## ELAN

Azərbaycan əhalisindən gərəksə Bakı və gərək Gəncə vilayətindən on doqquz, iyirmi, iyirmi bir, iyirmi iki, iyirmi üç, iyirmi dört yaşında olan cavanlardan qunduraçı [çəkməçi], bərbər, dərzi, mühəndis, konduktor, gəmiçi, betonçu, maranqoz [xarrat], dülgər və daha sair sənət sahibi olanlar Bakıdakı qitəyə [hərbi hissəyə] veriləcəkdirlər. Həman [dərhal] Bakı şöbəsinə müraciətlə qeydlərini yapdırsınlar. İyirmi beş, iyirmi altı, iyirmi yeddi, iyirmi səkkiz, iyirmi doqquz, otuz yaşlarındakı cavanlardan işbu sənətlərə aşina olub da könüllü olaraq əsgər olmaq istərlərsə, onlar da əxzi-əsgər dairəsinə [hərbi xidmətə çağırış qurumuna] pasportlarıyla müraciət və qeyd olunsunlar. Bu iş təşrini-əvvəlin [oktyabrın] otuzunda qurtarılacağından istical olunmaq [tələsmək] gərəkdir.

*21 təşrin fi sənə 34*

## MƏKTƏBLƏR HAQQINDA

Mədən və zavod dairələrinin hansı cəhətlərində [tərəflərində] məktəb açmaq məsələsini aydınlaşdırmaq üçün məlumat toplamaq lazım gəlir. Binaileyh [ona görə] Neft Mədənçiləri Şurası ticarət və sənə'ət [sənaye] müəssisələrində xidmət edən bütün zəvatdan [şəxslərdən] rica edir ki, övladını məktəbə vermək istəyən zəvat məktəbə girəcək olan namizədlər haqqında məlumat versinlər. İşbu məlumat keçən sənədə məktəbdə təhsil edənlərlə bərabər, yeni məktəbə daxil olmaq xəyalında olan çocuqlar barəsində verilməlidir.

Məlumat vərəqələrində göstərilən suallara cavab verməlidir. Övladını məktəbə vermək istəyən zəvat, atidə [aşağıda] mündəric [qeyd olunan] dairələrdə yazılıb, məlumat vərəqələri ala bilərlər:

1. Bibiheybət-Bayıl dairəsi – Bayıl məktəbində;
2. Çornı-qorod dairəsi – Çornıqorod məktəbi;
3. Belıqorod dairəsi – Belıqorod məktəbi;
4. Əski mədən dairəsi – Üçüncü Sabunçu məktəbi (Bierinqin mülkündə; telefon mövqifi də [stansiyası] buradadır);
5. Suraxanı dairəsi – Suraxanı ambulatoriyasında;
6. Binəqədi dairəsi – Şəhərdə "Samopomoş" dükanında (Budaqovski və Telefonnı caddələrin küncü; Binəqədidə 72 nömrəli uçastokdakı Səlimov mədəni kantorasında).

Məlumat vərəqəsi yazıldıqdan sonra təşrini-əvvəlin [oktyabrın] 31-dən gec olmamaq şərti ilə yuxarıda göstərilən dairələrə və yaxud bilavasitə İttifaqa (Sovet Syezd) göndərilməlidir (Merkuryevski caddə, nömrə 20).

Qabaqlarda, ələlxüsus oktyabrın 14-də yazılan namizədlərin siyahılarını etibardan saqit [düşmüş] elan edir. İş-bu məsələ fəqət məlumat vərəqələri cəm edildikdən sonra həll ediləcəkdir. Məlumat vərəqələrinin böyük əhəmiyyəti olduğundan, İttifaq bütün mədən və zavod dairələrində işbu elanının nəşr və təbliğini rica edir.

## İSLAM ORDUSU QƏRARGAHINDAN TƏBLİĞİ-RƏSMİ

1. Dərbənd cəbhəsində 20.10.34-də saat 7 əvvəl[in]də düşmənə təərrüz [hücum] edilərək, donanmanın iştirakına rəğmən ciddi bir müqavimətə meydan vermədən həman Xanmə-həmmədqala işğal olunmuş və düşmənin təqibinə davam edilərək Cem kəndi zəbt edilmişdir. Süvarilərimizin Fiy kəndi istiqamətində irəliləməkdə olduğu bildirilməkdədir.

2. Qarabağda Şuşa civarındakı köylərdən bir miqdar daha silah toplanmışdır.

## TELEQRAF XƏBƏRLƏRİ

Gürcüstan Teleqraf Acentəliyinin 17 oktyabr tarixli teleqrafları:

Berlin – Qərb cəbhəsində Kronprins Ruprextin ordusundan verilən xəbərlərə görə, Flandriyada düşmən hücumlarını davam etdirməkdədir. Ümdə zərbə İzegem-Kortreyk dəmiryoluna, Torhuta sövq edilmişdir. Bundan əlavə düşmən başqa cəbhələr müqabilinə dəfələrlə zirehli avtomobil köməyi ilə güclü hücumlar etməkdədir. Bir para hissələrdə bizim əsgərlərimiz öz xətlərini saxlamağa müvəffəq olmuşlardır. Bəzi yerlərdə əsgərlərimiz müharibə ilə geri çəkilmişlərdir. Şimali hücum cinahında Torhutu öz əlimizdə saxlamışıq. Düşmən Şimali Vingen arasında irəli hərəkət etməyə çalışmışsa da, birinci xətt əsgərlərimiz tərəfindən dayandırılmışdır. Torhut yanında olan Lixterveld-İzegem xətti əlimizdə qalmışdır. İzegemdən cənuba tərəf düşmən İzegem-Kortreyk dəmiryol xəttinə qədər irəliləmişdir. Dəmiryol şərqində düşmən dayandırılmışdır. Qərbi və cənub-qərbi Lilldə xəttimizi bir qədər geri çəkmişik.

* * *

Boen ilə Uaza arasında düşmən güclü top atəşi hazırlığından sonra təzədən hücuma başlamışdır. Boen-Ezonvil şose yolunun şimalında düşmən, atəşimiz ilə dayandırılmışdır. Düşmənin dəfələrlə etdiyi güçlü hücumlarına baxmayaraq, Ezonvil şiddətli müharibələrdən sonra bizim əlimizə keçmişdir. Uazadan şimala tərəf edilən düşmən hücumları müvəffəqiyyətsiz qalmışdır. Bu axırıncı həftələr ərzində bilaaram [aramsız] müharibə edən altıncı Bavariya piyada firqəsi böyük şücaət göstərmişdir. Ena çayı qərbində və Laon şimalı ilə şimal-şərqində təzə mövqelərimiz qarşısında təzə vuruşmalar başlanmışdır. Bu müharibələrdə dəfələrlə düşmən böyük tələfata düçar olmuşdur. Burada düşmən Er[in] cənubunda Lies - Sisson - Le-Tur - Sen-Jermenmon xəttində dayanmışdır. Ena çayı boyunda Muron tərəfə irəlidə olan xətt, əsgərlərimiz tərəfindən düşməndən təmizlənmişdir. Burada müharibə edən əsgərlərimiz düşməni hər dəfə böyük tələfat verməklə hücuma məcbur edib müvəffəqiyyət qazanmışlardır.

* * *

Berlin – Təşrini-əvvəlin [oktyabrın] 17-də verilən əsgəri xəbərlərdə denilir ki, Flandriyada yenə təzədən Parren ilə Lis arasındakı geniş cəbhədə düşmən hücuma başlamışdır. Düşmən bizim qabaq xətlərimizə soxulmağa müvəffəq olmuşdur. Günortaya qədər müharibələr Şərqi Ruselare - Kortemark xəttində vaqe olub, dəhşətli müharibədən sonra İzegem cənub-şərqiylə Menen şimal-şərqi xətti düşmən əlinə keçmişdir. Düşmənin güclü hücumuna baxmayaraq, Menen ilə Vervik bizim əlimizdə qalmışdır. Düşmən Lis - Komendən keçmək istəmişsə də, müvəffəqiyyətsiz qalmışdır. Günorta hücumu əsnasında Handzeym ilə Kortemark düşmən əlinə keçmişdir. Lis çayının hər iki kənarında zirehli avtomobil atəşi ilə düşmən güclü hücumlar etməkdədir. İzegem ilə Menen arasında düşmən böyük bir mövqe tutmağa müvəffəq olmuşdur. Lill qərbində və Hot-Deyl kanalında müharibələr vaqe olmaqdadır.

* * *

Sübh vaxtı düşmən qalın dumandan istifadə edərək Sen-Kantendən şərqə tərəf Uazaya soxulub, Makkinyidən cənuba və Orinyidən şimala tərəf vaqe təpələrdə bir qədər dayanmışdırsa da, əks-hücumumuzla yenə təzədən Uazaya atılmışdır. Şimali Laon və Qərbi Endə vaqe təzə cəbhələrimiz qarşısında şiddətli xırda müsadimələr [toqquşmalar] vüqu bulmaqdadır.

* * *

Qalvitsin ordusundan xəbər verirlər ki, Er ilə Maas arasında Amerika əsgərləri böyük qüvvələrlə hücuma keçmişlərdir. Ümdə müharibələr Er şərqində və Şampober ilə Ventevil arasında olan şose yolunun hər iki kənarında vaqe olmuşdur. Dörd dəfə təkrar edilən düşmən hücumları müvəffəqiyyətsiz qalmışdır.

* * *

Cənub-şərq müharibə meydanından xəbər verirlər ki, Niş şimalında və şimal-qərbindəki təpələrdə xırda müsadimələr olmuşdur.

* * *

Tiflis qəzetələrinin dərc etdiyi Almanya simsiz teleqraflarında deyilir ki, Müttəfiq dövlət əsgərlərinin Flandriyaya etdiyi hücumları bir çox əhalinin Belçika içərisinə qaçmağına bais olmuşdur. Düşmən toplarının atəşi çatan Kortreyk, Turkuen, Lill və Rube şəhərlərindən başqa daha arxada olan şəhərlərdən də əhali çıxıb qaçmaqdadır. Minlərcə adamlardan ibarət olan qaçqın dəstələri şərqə tərəf hərəkət etməkdədirlər. Oktyabrın 16-da Due şəhəri ingilis ağır toplarının atəşinə məruz olmuşdur.

* * *

İmperiya məşrutə qanununun [konstitusiyasının] 11-ci maddəsini əvəz edici qanun layihəsi dünən Müttəfiq Şura tərəfindən təqdir edilmişdir. İkinci maddənin fəsli dəxi bu qərarla əvəz edilmişdir ki, imperiya adından müharibə elan edildiyi ittifaqda Reyxstaq ilə Müttəfiq Şuranın riza [razılıq] göstərməsi lazımdır. Bu da ancaq müttəfiq məmləkətlərə və sahillərə hücum edildiyi zaman ola bilər. Üçüncü maddə bu qərar üzrə əvəz edilmişdir: Sülh və müharibə məsələləri həllində millətin iştirak etməsini təmin etməkdən ötrü əcnəbi hökumətlərlə sülh müxabirə və müzakiratı [danışıq və müzakirələri] Reyxstaq və Müttəfiq Şura rizası ilə əqd edilməlidir [bağlanmalıdır].

## TÜRKİYƏDƏ

**Fransız əsirlərinin mübadiləsi**

"İqdam" qəzetəsinin məlumatına görə, Mərkəzi dövlətlər Türkiyədəki düvəli-müharib [savaşan dövlətlər] təbəələri mübadiləsini təmin etməyə söz vermişlər. Qəbul edilmiş şəraitə görə, ölkələrinə göndəriləcək əsirlər Almanya-Avstriya torpağından xüsusi tren [qatar] ilə göndəriləcəklər. Bu günlərdə əvvəlinci qatarın azim olması [yola düşməsi] gözlənir.

**Almaniyadan ötrü tənbəki**

Brailova gedən "Pages" nam vaporda İstanbuldan Berlinə 1000 tay tənbəki göndərilmişdir. Müharibə başlanandan bu vaxtadək bu əvvəlinci külli miqdar tənbəkidir ki göndərilir.

**Müəllimlərin Macarıstan səyahəti**

Tətil zamanından bilistifadə [istifadə edərək], Konya vilayəti müəllimləri məktəb işlərinə bələdiyyət yetirmək [bələd olmaq] qəsdi ilə Macarıstana səyahətə çıxmasını qət etmişlərdir.

**Bitərəf məmləkətlər təriqiylə [yoluyla] tranzit malı**

"Yeni gün" qəzetəsi yazır: Məlum olduğu üzrə Avstriya bizim bitərəf məmalik [məmləkətlər] ilə olan tranzit ticarətimizə mümaniət [maneəçilik] göstərir. Binaileyh [ona görə], ticarətimiz böyük xəsarətlərə uğrayır. Hal-hazırda Vyanada iqamət edən [olan] Maliyyə naziri Cavid bəy həzrətləri başqa məsələlər cümləsindən işbu məsələni də həll etməlidir. Xariciyyə Nəzarəti də öz nümayəndələri vasitəsi ilə bu barədə çalışır.

**Türkiyə və müttəfiqlər**

"N. T." qəzetəsində yazılır: Almaniyanın Xariciyyə naziri Külman Türkiyə barəsində bəzi bəyanat vermişdir ki, əhəmiyyətindən naşi [ötrü] dərcini lazım görürüz.

Fon Külman, Türkiyə-Almaniya ittifaqı və dostluğu barəsində demişdir ki, bu iki dövlətin mənafeyi biri-birinə zidd deyil. Amma təəssüflər olsun ki, Türkiyə və Bolqarya mənafeyi barəsində bunu söyləmək olmaz. Qafqaziya məsələsinə gəlincə, Külmanın nitqindən anlaşılır ki, almanlar Türk Ordusunun Qafqaziyada irəliləməsinə mümaniət [maneəçilik] göstərirlər. İngiltərədə bir şayiə dövran edirmiş ki, türklər yaxın zamanda İngiltərə ilə barışacaqlardır. Bu şayiələr Almaniyanı ziyadəsincə narahat edir.

Xariciyyə nazirinin sözünə görə, aləmşümul müharibə və Brest müqavilənaməsi bir çox həlli müşkil məsail [məsələlər] çıxarmışdır. Bolqarya-Türkiyə münasibatı da [münasibətləri] işbu məsələlər cümləsindəndir. Yeni alınmış ərazini təqsim [bölüşdürmək] məsələsi üstündə məzkur [adı çəkilən] iki dövlət arasında münasibat son zamanlar çox gərginləşmişdir.

## ÖZ GÖZÜNDƏ TİRİ GÖRMƏZ

Bakı alınandan bəridir ki, Tiflis mətbuatında böyük bir qələyan [qaynama] cərəyan etməktədir.

Yalnız bir "Qruziya" qəzetəsi müstəsna olmaq üzrə, demək olar ki, bütün Tiflis qəzetələri xah rus, xah gürcü və xah erməni [istər rus, istər gürcü, istər erməni] dilində fitnəəngiz [fitnəkar] bir lisan açıb, Türk və Azərbaycan ordusu və hökuməti əleyhində yazılar yazmaqla, onları hər vəsilə ilə fəna bir halda göstərməktən əl götürməyirlər.

"Türklər Bakıya daxil olduqda vəhşilik yapmış, neçə minlərcə erməni öldürülmüş, başqa millətlər həpsi qarət edilmiş və ilax."

İştə, Tiflis qəzetələrinin bağırdıqları şu qayələrdən ibarətdir. Bunu hər gün müxtəlif məsləkli [əqidəli] və müxtəlif lisanda nəşr edilən qəzetələr yazıb əfkari-ümumiyyəni [ictimai rəyi] "vəhşi müsəlmanlar" əleyhinə düzəltmək iddiasındadırlar. İş o dərəcəyə yetdi ki, hətta alman istixbarat şöbəsi müdiri professor Tsuqmayer kəndisi də xətaya uğraşıb, Bakıdan cürbəcür yanlış və əsla və qəta [qətiyyən] vüqu bulmamış xəbər verməyə başladı.

Təbiidir ki, bir bu qədər fitnəəngiz xəbərlərin qarşısında adamlar şaşırır və həmin ixbaratı təkzib edici bir mənbə olmadığı halda müfəttinlər [fitnəçilər] əksər övqat [çox vaxt] öz çirkin məramlarına nail olurlar.

Şu həriflərin dedikləri, bunların istədikləri nədir aya [nədir görəsən]?

Bakı yürüşlə zəbt edildikdə və Türk ərkani-hərbinin [hərbi qərargah heyətinin] tövsiyyəsinə rəğmən müharibəni şəhərin daxilinə keçirdikdə, mümkün idi ki, kimsənin burnu belə qanamayıb, hamı rahat öz işində olaydı və qoşun dəstələrimizə küçələrdən və evlərdən atəş açan "daşnaksaqan igidləri" öz cinayətlərində asudəcə davam edəydilər? Və Tiflis qəzetələri iddiasında olduğu "mədəniyyət" naminə biz özümüzü erməni dığalarının qurşunlarına hədəf edəydik?

Bu olarmı, yahu?

"Mədəniyyət"dən dəm vuran həriflər həmin mədəniyyəti xatirlərinə nə vaxt salarlar? Haçan ki, yoldaşlarının quyruqları tələ arasında olar. Bəs altı-yeddi min Bakı müsəlmanlarının qanları nahaq yerə tökülməkdə, Şamaxı və uyezdi yandırıldıqda, İrəvan quberniyasında iki yüzədək müsəlman köyləri xak ilə [yerlə] yeksan edildikdə neyçün mədəniyyətdən dəm vurulmayır? Halbuki ərz edirəm, bu cinayətlər əbəs yerə, səbəbsiz icra olunmuşdur, Bakıda bir gün davam edən iğtişaş və binizamlıq müharibənin nəticəsi olub, onun da baisi həmin vəhşi daşnaklar ilə dolandırıcı [dələduz] menşeviklər oldu. Təbii ki, şəhəri pişəzvaxt [vaxtından qabaq] kərratla [dəfələrə] edilən təklifə binaən [əsasən] təslim etsəydilər, heç bir binizamlıq dəxi olmazdı. Necə ki, Gəncə və Qarabağ bunu göstərdi. Əgər türklərin və Azərbaycan əhalisinin məqsədi erməni qırmaq olsaydı, onda nə üçün buralarda bir nəfər də dinc erməninin burnu qanamayıb? Onlar büsbütün asudə və fərağat yaşamaqdadırlar. Büsbütün daşnaksaqanlar təhti-nüfuzunda [nüfuzu altında] olan Tiflis qəzetələrinin iddiaları nədir?

Budurmu ki, daşnaksaqan əşqiyalarının [quldurlarının] türk və islam balaları əleyhinə rəva gördükləri cövr və sitəm qarşısında biz səm və əbkəm [lalkar] oturub əlimizi belə tərpətməyək? Çünki bu "Kavkazskoye slovo"ların, "Borba"ların, "Trudovoye znamya" kimi sosialist vərəqələrinin xoşuna gəlməyəcək?

Xeyr, bizi vəhşi namı ilə müləqqəb edib [adlandırıb] də özlərinin vəhşiliklərini bilmərrə unudan həriflər və bəzi intriqaçı siyasi məhafil [dairələr] əmin olmalıdırlar ki, vəhşilik bağırtısı ilə bizi qorxuda bilməyəcəklər. Nə deyirlər desinlər, nə yazırlar yazsınlar, lakin minbə'd [bundan sonra] biz Azərbaycan türkləri və bütün islam balaları qarşımıza edilən təcavüzləri dəf etməyə çalışıb, dost ilə dost, düşmən ilə də düşmən olacağıq. Biz bir an belə həqqaniyyət və ədalət yolundan ayrılmamaqla bərabər, özümüzə rəva görülən və hansı bir tərəfdən olmuş olsun zülm və sitəm ilə şiddətli mübarizə edib, öz hüquqi-bəşəriyyəmizi müdafiə etməyə çalışacağız və bu yolda bir fitnə və fəsaddan çəkinməyəcəyiz. Çünki qarşımızda duran məsələ türk millətinin varlığı məsələsidir.

Həmin məsələ ortalığa gəldikdə, Tiflis qəzetələri bizi əfv etsinlər, nə onların bağırtısı və nə də başqa fitnə və intriqalar bizim gözümüzə görünməyəcəkdir. Tiflislilər öz həyatını nə vəsilələrlə təmin etmişdilər? Öylə də deyil ki, burasını biz bilməyək. Lakin biz dinmədik. Qəzetələrimizdə tənqid sütunları açmadıq.

Öylə isə bizi də sərbəst buraxsınlar, öz işimizi görək, öz həyatımızı təmin edək. Öz gözündə tiri görməyib özgə gözündə qıl seçməsinlər.

Böylə müdaxilənin təbəssümə bais olmaqdan başqa bir təsiri olmaz.

*C. D.*

## TƏHLÜKƏ QARŞISINDA

*Qarabağın son günləri*

(keçən nömrələrdən mabəd)

Şəhər mühasirə halında qalıb, bir yerdən bir girvənkə məkulat [ərzaq] gəlməyir. Şəhərdə taxıl mövcudu gündən-günə azalır, çörək qurtarır. Daima evlərində yüz pudlarca taxıl olan adamlar dəxi bazardan çörək almağa başlayırlar.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 23 oktyabr (çərşənbə günü) tarixli XX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bəylər özləri şəhərdə, taxılları köylərdə qalıb kəndə getmək istəyirlər, mümkün olmayır, buraxılmırlar. Bir neçə dəfə şəhərdən erməni və müsəlman nümayəndələrindən mütəşəkkil bir heyət çıxıb Əsgərana gedir, yolları açmaq üçün ermənilərlə müzakirata [müzakirələrə] girişirlər. Ermənilər, "yol bağlı deyil, gəlib-gedə bilərsiniz" deyə cavab verirlər. Fəqət yola çıxmağa cəsarət edən hər müsəlman canını sadəlövhlüyünə qurban verir, yol yenə bağlı elan olunur.

Taxılın qurtarmağı, meyvə yoxluğu bir cəhətdən xalqı sıxmaqda ikən, bir tərəfdən də ermənilər su kəmərlərini kəsirlər. Şəhər susuz qalır. Bir qədər su əldə etmək üçün hər gün şəhərdən bir dəstə əhali əldə silah olaraq şəhərin ətrafındakı çeşmələrə gedir. Kənd erməniləri bunları atəşə tuturlar, atışma olur. Müsəlmanlar atəş altında su gətirməyə məcbur olurlar. Əhval pək fəna, işlər pək müşkül bir surət kəsb edirlər.

**Sevinc xəbər**

Şəhərin bahalığı get-gedə kəsbi-şiddət edir [şiddətlənir]. Bahalıq bəlkə öhdəsindən gələ bilməli bir dərddir. Lakin qəhətlik, yoxsulluq; şəhərdə pul az, alış-veriş bilmərrə yox, taxıl tapılmır, su yoxdur. Bu halda bir də Andranik və Şahnəzəryan qoşunlarının şəhərə vürudu [gəlməsi] xəbəri çıxır, ermənilərin vəhşiliyi daha da artır. Ermənilərin bihəyalığının nə həddi var, nə hesabı. Türklər o qədər sıxıntı çəkirlər ki, "dava düşəydi canımız qurtarardı, ya ölər ya ermənilərin boyunduruğundan xilas olardıq" deyə ölmək şərti ilə də olsa ermənilərdən qurtarmayı arzu edirlərdi. Fəqət dava sala bilmirlər; zira şəhər komandanı hər gün "sülh və müsalimət" [əmin-amanlıq] deyə təkid edirdi. Əgər komandanın təkidatı [təkidləri] olmasa, bəlkə kərratla [dəfələrlə] dava düşərdi.

Andranik və Şahnəzəryan qoşunlarının gəlməsi və şəhərdə qanlar sel kimi axıdılması gözlənilən bir zamanda qurban [bayramı] axşamı Bakının alınması xəbəri çıxdı. Qurban günü müsəlmanlar birinci dəfə şəhərdə şadlıq hiss etdilər. Həm öylə şadlıq ki, bəlkə Şuşa şəhəri bütün tarixində böylə bayram görməmişdir. Şəhər bayraq və xalılarla təzyin edilmiş [bəzədilmiş], bütün camaat, qabaqda musiqi və məhəlli [yerli] əsgər olmaq üzrə şəhəri gəzir, toplar atılır (şəhərdə müsəlmanların bir neçə əl ilə qayrılmış və bir dənə Napoleon topu vardı), şəhərdə bulunan ümum sazəndə, nəvazəndə [çalıb-oxuyanlar] balkonlarda, evlərdə çalırlar, oxuyurlar. Xülasə, şəhərdə bayram ruhu hökm-fərmadır [hökm sürməkdədir].

Bu xəbər türk-islam əhalisinin dərdini bir qədər unutdurmaqla bərabər, camaata böyük bir ümid bağışlamaqla nəhayət dərəcə ruh yüksəkliyi hasil olur. Ermənilər arasında isə xəbərə inanmadıqları halda bir növ ruh düşkünlüyü hiss olunur.

**Qorxunc bir gecə...**

Bu hal iki gün davam edir; üçüncü gün xəbər alınır ki, Şahnəzəryan qoşunu gəlir. Şəhərin iyirmi çağrımlığında, Zabıx adlanan yerlərdədirlər. Beynəlmiləl Komitənin türk üzvləri çox çalışdılar ki, ermənilər məzkur [adı çəkilən] quldur dəstəsini şəhərə buraxmayaraq kəndlərə göndərsinlər. Hətta bu uğurda ermənilərə yardımlarını vəd etdilər. Fəqət ermənilər böylə sözlərə qulaq asarlarmı?! Kirvələr hətta Şahnəzəryanın şəhərə gəlməsini təshil [asanlaşdırmaq] üçün şəhərdən və ətraf köylərdən bir çox araba cəm etdilər və şayəd yolda müsəlmanlar araba və qoşunlara mümaniət [maneçilik] edərsə, arxalarını kəsmək üçün bir neçə yüz də əsgər toplayaraq Zabıxa göndərdilər.

Şəhərdə ermənilərin ruhu yenə yüksələrək naxallıqları yüz dərəcə artdı. Bir gün belə keçdi. İkinci gecə sübhə yaxın bir vaxt gördük şəhərin erməni hissəsindən bir atışma başlandı, qurşun dolu kimi yağır. Hamı yuxudan sərasimə [sərsəm halda] ayılaraq hər kəs öz vəzifəsi başına gedir. Səngərlərə adamlar göndərilərək tapşırılır ki, müsəlmanlar hələ güllə atmasınlar görək, nə olur. Bu əsnada ermənilər dəxi səngərlərdən çağıraraq "Ay müsəlman, güllələr sizə atılmır, sizinlə davamız yoxdur" deyə xəbər verirlər. Həqiqətən anlaşılır ki, ermənilər gülləni bizə deyil, şəhərin hər tərəfinə atırlar.

**Bu nə imiş?**

Yuxarıda yazıldığı kimi, Şahnəzəryan qoşunu Şuşaya gəlmək niyyəti ilə Zabıxa varid olur. Orada yaxınlıqda qayət böyük və ermənilər üçün bir istinadgah, üssül-hərəkə [hərəkət mərkəzi] təşkil edən pək möhkəm bir kənd var – Qaladərəsi. Plan belə imiş ki, Şahnəzəryan gəlsin həmən kəndə. Şuşadan köməyə gedən ermənilər dəxi oraya yetişdikdə, civara yığılmış olan müsəlmanlar atlıları ilə dava etsinlər, ətrafdakı köyləri dağıtsınlar, bədəhu [sonra] şəhərə gəlsinlər. Həmin müsəlman atlıları isə kürd və elatdan ibarət idi. Neçə yüz adam idilər. Bunlar kağız aparan bir ermənini tövqif [həbs] edirlər. Dava planı olan kağızı alırlar, işi öyrənirlər. Yalan siqnal verərək davanı bir gün əvvəl başlayırlar. Ermənilərin planı pozularaq saldatları yekdigərindən [bir-birindən] ayrı düşür. Nəticədə Şahnəzəryan dəstəsi əzilir, Qaladərəsi dağılır, şəhərdən gedən köməkçilər başlarını itirərək qaçırlar. Qaladərəsinin qaçqınları ilə şəhərdən gedən saldatlar ətraf köylərə, meşələrə dağılırlar. Bir qismi şəhərə gəlmək istəyir. Gecə qaranlıqda ermənilər uzaqdan gələn izdihamı görərək "müsəlmanlar şəhərə hücum edirlər" deyə səs salır və gələnləri qurşun ilə qarşılayırlar.

(yenə var)

*Xəlil İbrahimzadə*

## NƏZARƏTLƏRDƏ

Vüzəra Şurasının [Nazirlər Kabinetinin] 20 oktaybr qərarına görə, Adil xan Ziyadxanov Xariciyyə naziri müavini və Fərrux bəy Səfərəliyev Ticarət və Sənaət [Sənaye] naziri müavini təyin edilmişlərdir.

**Siyasi nümayəndələr**

Ədliyyə nazirinin müavini T[eymur] b[əy] Makinski Azərbaycan Hökuməti tərəfindən Ermənistanda siyasi nümayəndəliyə namizəd edilmişdir.

**Məclisi-Müəssisan seçkiləri**

Keçən gün axşam saat 6-da Heyəti-Vüzəra [Nazirlər Kabineti] Şurasının Sədri Fətəli xan Xoyskinin sədarətiylə Məclisi-Müəssisan seçkiləri qanununu hazırlayan komisiyanın birinci iclası vaqe olmuşdur.

**Sərhəd mühafizəsi**

Maliyyə Nəzarəti 12000 nəfərdən ibarət əsgərliyə dəvət edilməyən adamlardan sərhəd mühafizəsi təşkil etmək təsəvvüratındadır. Hər bir əsgər ayda yüz manat məvacib alıb, əsgəri idarə təhtində [altında] olacaqlardır.

## AZƏRBAYCANDA

Qarabağdan xəbər verirlər ki, bir dəstə "Daşnaksaqan" firqəsinə mənsub ermənilərin macərapərəstliyi tamamilə dəf edilib, erməni camaatının Qarabağ hadisələrində iştirak etməmələri aşkar olmuşdur. Erməni əhalisi şəhərdə və kəndlərdə əsgərlərimizi duz-çörəklə qarşılayıb, Azərbaycan təbəəliyini qəbul etməklə bərabər öz xoşlarıyla əslihələrini [silahlarını] təslim edib, hökumətin hər bir əmr və fərmanına tabe olmağa hazırdırlar. Müxtəsəri-kəlam [sözün qısası], həyat öz adi halına düşüb, zəhmətkeş kənd əhalisi öz məşğuliyyətinə başlamaqdadır.

* * *

Maliyyə Nəzarəti dərya kənarında Mirbabayevin evinə köçübdür.

* * *

Maliyyə Nəzarəti çaharşənbə və şənbə günləri qəbul edəcəkdir. İrəlicə növbətçi məmurun yanında saat 10-dan 11-ədək yazılmalıdır.

* * *

İdarə müdiri hər gün saat 10-dan 11-ədək qəbul edəcəkdir.

## BAKI XƏBƏRLƏRİ

**Bakı-Culfa dəmiryolu**

Azərbaycan Hökumətinin əmri ilə Bakı-Culfa dəmiryolunun təmiratı təcdid ediləcəkdir [yenilənəcəkdir]. Bu yol üçün bir çox "rels" vardır. Axırıncı hadisatdan naşi bu yol mütəzərrir olmuşdur [zərər görmüşdür]. Ələt körpüsü yaxılmış, Pirsaat və Zubovka yanında Kür üstündən keçən körpülər dağıdılmışdır. Əvvəlcə Ələt-Zubovka arasında hərəkət başlanacaqdır. Arazdan keçən Saat köprüsünün dağılmağına görə Xudafərinədək, yəni 249 çağrım məsafədə işləmək mümkündür. Buradan dağlar başlandığına görə, tunellər qazımağa məcbur olacağız. Hələlik hökumət yolundan 12 çağrım məsafədə olan Zubovkaya kimi çəkilərsə, balıq nəqliyyatı [daşınması] asanlaşar. Lazım olan əşya Azərbaycan Hökumətinin əmri ilə göndəriləcəkdir.

* * *

Azərbaycan Hökumətinin 20 təşrini-əvvəl [oktyabr] tarixli iclasında qət olunmuşdur ki, təbiət xüsusunda qanunlar hazırlamaq üçün Hökumət cənbində [nəzdində] bir qanunverici heyət təşkil olunsun.

* * *

Azərbaycan Hökumətinin 23 təşrini-əvvəl [oktyabr] tarixli iclasında qət olunmuşdur ki, bu vaxtadək hamı idarələrdə və məhkəmələrdə cari olan qanunlar Azərbaycan Hökumətinin bu barədə xüsusi qanunu verilənədək hökmlərində baqi [qüvvədə] qalsınlar.

* * *

Bu axır vaxtda Bakı xəfiyyə polisiyyəsi xırda cinayətlərin qabağını almaqla ciddi fəaliyyət göstərir. Son illər caniliklə iştihar [şöhrət] qazanmış olan 148 bədəfkar [bədniyyət] cani tövqif [saxlanmış] və həbs edilmişdir.

* * *

Bakı sakini Əliağa Məhəmmədəli oğlu xəfiyyə polisiyyəsi müdiri Quliyevə məlum etmişdir ki, bu il Mart hadisatı [hadisələri] zamanında 10 nəfər erməni saldatı onun Çadrovı caddədə 145 nömrəli evinə gəlib, orada olan kişiləri öldürüb, arvadları isə həbs etmək istədikdə, iki nəfər rus saldatı içəri girib bunlara mane olmuşdur. Sonra ermənilər ancaq qarətlə kifayətlənib, 22 min manatadək ziqiymət [qiymətli] əşya və 7 min manat nəğd pul aparmışlar. Üç gün bundan müqəddəm [əvvəl] Əliağa küçə ilə keçərkən həman dəstənin başçısını, Sergey Ovanesovu görmüşdür. Əliağanın şikayətinə görə, fövqəlzikr [adı çəkilən] Ovanesov, Xəfiyyə polisi müdiri tərəfindən həbs edilib və iş məhəllə müstəntiqinə verilmişdir.

* * *

Bakı-Culfa dəmiryolunu müayinəyə getmiş heyət Bakıya qayıdıb, bu günlərdə hökumətə bu yol vəziyyəti babında [haqqında] məruzədə bulunacaqdır.

* * *

Azərbaycan Cümhuriyyəti balıq vətəgələrinin müdiri B.b.Rüstəmbəyovun əmri ilə Balıq Vətəgələri İdarəsinin Ticarət şöbəsi fəsx [ləğv] olunmuşdur. Bu idarənin fənni-ticarət əczaxanasının xüsusi idarəyə təbdil edilməsi [çevrilməsi] haqqında bir layihə tərtib verilir.

**İaşə məntəqələri**

Mərkəzi Ev Komitəsinin iaşə məntəqələri naziri doktor Bron Mərkəzi Ev Komitəsində bu məntəqələrin halı və atidəki [gələcəkdəki] fəaliyyəti xüsusunda bir məruzə oxumuşdur. Məruzədən anlaşıldığına görə, məntəqələrdən üçü iyulun 22-də işə başlayıb, get-gedə bunların ədədi artmaqdadır. Hal-hazırda 11 məntəqə fəaliyyətində davam edir. Bunlardan təşrini-əvvəlin [oktyabrın] 15-ə kimi 33772 pulsuz, 53413 biri 50 qəpikdən xörək buraxılmışdır. Xörəyin qiyməti iaşə məntəqələrinə 1 manat 98 qəpiyə tamam olur. Bundan əlavə, eylülün [sentyabrın] 21-dən bu məntəqələrdən müsəlman darüleytamına [yetimxanasına], erməni, Şamaxı, rus cəmiyyətlərinə, "yasli" evinə və Bayılovdakı "çocuq evinə" 23 min xörək buraxılmışdır.

Şəhər İdarəsi iaşə məntəqələrinə artıq pul buraxmadığından, bunların fəaliyyəti azalmışdır.

12 ədəd iaşə məntəqələrinin məxarici bir ayda 355 min manatdır.

**Qaçqınlar**

Təşrini-əvvəlin [oktyabrın] 25-də Petrovskdan Bakıya "Moskva" paraxodu ilə 1600 nəfərə kimi qaçqın gəlmişdir. Bakıya gələnlərin rəvayətinə görə, Petrovskdakı qaçqınların halı artıq əsəflidir [təəssüf vericidir]. Bunların miqdarı 22 mini mütəcaviz [keçmiş] olub, bir çoxu açıq havada yerləşmişdir. Bir çoxu da ətrafdakı kəndlərə, obalara getmişlərdir.

Ev müxəlləfatı [əşyaları] artıq baha qiymətə çıxmışdır. Xörək bişirmək istəyənlər çoxlu pula qazan tapa bilirlər. Şayiata [şayiələrə] görə, qaçqınların evlərinə qayıtmalarına imkan veriləcəkdir.

**Bələdiyyə İdarəsinin Su şöbəsi**

Bakı əhalisinin ümumuna elan edir ki, Bakı Bələdiyyə İdarəsinin Şurasının (Duması) 14 təşrini-əvvəldə [oktyabrda] verdiyi qərardadı mövcibincə [əsasında] 20 təşrini-əvvəl 34 sənəsindən su üçün böylə bir məzənnə qoyulur:

Şəhərdə: su buraxılan budkalarda 3 qəpik, evlərə çəkilmiş nasoslardan alanda 5 qəpik.

Mədən dairəsində: su budkalarından aldıqda 5 qəpik, evlərə çəkilmiş nasoslardan 8 qəpik olacaqdır.

*Bələdiyyə naziri: İlyuşkin*
*Bələdiyyə naziri üzvü Su şöbəsi naziri: İbad Əliyev*

**Övladi-şühədaya [şəhid övladlarına] ianə**

Ağdaş Bazar məscidindən Abdulxalıq əfəndi vasitəsilə 2225 rublə, Zaqataladan Nurulla əfəndi mərifətilə [vasitəsilə] 3287 rublə 20 qəpik toplanıb cəmən [cəmi] 5512 rublə 20 qəpik Qafqaziya müftisinə göndərilmiş və miri-mümaileyh [adı keçən şəxs] tərəfindən Ordu Şöbeyi-siyasiyyə müdiriyyətinə təslim edilmişdir.

**Türkcə konfrans**

Cümə gecəsi saat doqquzun yarısında sabiq Mailov teatrında məşhur Ruşəni və İstanbul mühərrirlərindən [yazıçılarından] Ruşən Əşrəf bəylər türk lisan və ədəbiyyatı və türk gəncliyi arasında cərəyan edən əfkara dair bir konfrans verəcəklərdir. Konfrans pulsuzdur.

## XARİCİ XƏBƏRLƏR

**Moskvada edamlar**

Moskvada ağqvardiyalılar hər gün gülləbaran edilirlər. Petrovsk parkında hər gün 10-15 nəfər qətl edilir. Bunların siyahıları daha nəşr edilmir. Ölüm cəzasına məhkum edilənlər Fövqəladə Komitə ambarlarında həbs edilirlər. Bunları qapalı arabalarda aparırlar.

Bütün belə işlər Peters ilə sabiq "İzvestiya" müxbiri Vergilova mühəvvəl edilmişdir [tapşırılmışdır]. Fövqəladə Komitədə sabiq Vilna dava vəkili Kozlovski böyük fəaliyyətlər göstərir. Bu şəxs barəsində bolşeviklərin iyul çıxışlarında qəzetələrdə çox yazılmışdır.

Peters, Yakovlev, Kozlovski sərbəst fəaliyyətdə bulunurlar. Bunlar İnqilab Tribunalı, Xalq Komissarları Şurası əmrini qəbul etmək belə istəmirlər. Latış ovçuları, çinlər və bəhriyyun [matroslar] bütünlüklə Peters ilə Hərbi Komissar Berezinin təhti-idarəsindədirlər [idarəsi altındadırlar].

Son vaxtlarda Fövqəladə Komitə ilə Kreml miyanında [arasında] ixtilaf əmələ gəlmişdir. Böylə olmuş ki, Lenin məhbusların təxlisi [azad edilməsi] barəsində əmr verir, yarın Fövqəladə Komitə tərəfindən əmr, nəzəri-etimada alınmayaraq məhbuslar qətl edilir.

**Quçkovun qətli**

"İ. N." qəzetəsinin məlumatına görə, Podolsk yanında Aleksandr İvanoviç Quçkov qətl edilmişdir. Mütəvəffa [mərhum] sabiq Hərbi Sənaət [sənaye] Komitəsi sədri, padişahlıq Duması üzvü və sədri, Lvov Kabinəsində Hərbiyyə və Bəhriyyə [dənizçilik] naziri olmuşdur.

**Kəndçilər üsyanı**

Moskvadan alınan məlumata görə, Tambovski, Permski, Ryazanski quberniyalarda bütün kəndçilər Şura Hökuməti əleyhinə üsyan qalxızmışlar. Zarayskda üsyançılar tam iki saat Şuranı mühasirə etmişlər. Təslim olmuş bolşeviklər orada qətl edilmişlər.

**Saratovun təxliyəsi**

"N. İ." məlumatına görə, Saratov burjuaziyası səfərbərlik halına gətirilmişdir. Bunlar istehkamat işlərində işləyəcəklər. Ruhaniləri ən ağır işlərə cəlb edirlər. Şəhər, idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan edilmişdir. Şuradan izinsiz axşam saat 8-dən sonra soqaqlara çıxanlar qurşuna dizilirlər [güllələnirlər]. Şəhər təcili surətdə təxliyə edilir. Xəzinə və ləvazimati-hərbiyyə ambarları aparılır.

* * *

**Arvad diş həkimi**
**Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər, dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi.

Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş müalicəxanəsi**

S. M. İtkinin süni diş laboratoriyası. Dişlərin ağrısız çəkilməsi. Təzə üsul ilə farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon: 06-25.

*208*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər.

Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Morskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Diş həkimi Melçarski**

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

*210*

**Türk dilində ərizə**

Yazdırmaq xahişində olanlar hər gün axşam saat 4-dən 6-ya qədər Starı poçtovı küçədə Rzayevin 57 nömrəli mənzilinə müraciət edə bilərlər. Ərizələr artıq savada malik olan şəxs tərəfindən yazılır.

**Bələdiyyə İdarəsinin Su şöbəsi**

Bakı əhalisinin ümumuna elan edir ki, Bakı Bələdiyyə İdarəsinin Şurasının (Duması) 14 təşrini-əvvəldə verdiyi qərardadı mövcibincə 20 təşrini-əvvəl 34 sənəsindən su üçün belə bir məzənnə qoyulur:

Şəhərdə:

Su buraxılan budkalarda 3 qəpik, evlərə çəkilmiş nasoslardan alanda 5 qəpik.

Mədən dairəsində:

Su budkalarından aldıqda 5 qəpik, evlərə çəkilmiş nasoslardan 8 qəpik olacaqdır.

*Bələdiyyə naziri: İlyuşkin*
*Bələdiyyə İdarəsi üzvü Su şöbəsi naziri: İbad Əliyev*

**Elan**

Zığ və Bayıl burunları arasındakı dəniz qismində qayıqların işləməsi, liman rəyasətinin vəsiqəsilə qabil ola bilər. Yalnız təyin və təhdid edilmiş [məhdudlaşdırılmış] məntəqəni təcavüz edənlərin [keçənlərin] düşmənə müavinət [yardım] etmiş nəzərilə baxılaraq, qayıqları və malları müsadirə olunacaq və kəndiləri ağır cəza görəcəkdir.

*Bakı Mərkəz Komandanı Miralay [Polkovnik]*

**Elan**

Bakıda işləyən hər dindən bilcümlə [bütün] həkim, aptek və felşerlərin heç bir yerdə işləməyənlərin adresləri bilinmək üzrə hər gün öylədən [günortadan] sonra saat 3.30-dan saat 6-ya qədər Mənzil Müfəttişliyinin Sərhəkimlik [Baş həkimlik] dairəsinə qeyd olunmaları elan olunur.

*Mərkəz Komandanı Miralay [Polkovnik]*

**Elan**

Şəhri-halın [bu ayın] 24-cü günü axşamı, yəni cümə gecəsi saat 8 buçuqda (doqquzun yarısında) Torqovı soqağında Hökumət (sabiq Mailov) teatrosunda İstanbul mühərrirlərindən [yazıçılarından] Ruşəni bəy və Ruşən Əşrəf bəy tərəfindən ümuma türk lisan və ədəbiyyatına və türk gəncliyi arasında cərəyan edən əfkara dair konfrans (leksiya) veriləcəyindən, əhaliyi-möhtərəmənin [möhtərəm əhalinin] təşrif buyurmaları və düxuliyyə [giriş haqqı] verməmələri (daxil olmaq pulsuz olacaqdır) və xanımlarımızın işbu konfransda hazır bulunmaları bilxassə şayani-arzu olduğu elan olunur.

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Elan***

*"21 təşrin fi sənə 34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 21 oktyabr 1918-ci ilə uyğundur.*

***Məktəblər haqqında***

*"Neft Mədənçiləri Şurası": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.*

*"İttifaq (Sovet Syezd)": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.*

***İslam ordusu qərargahından təbliği-rəsmi***

*"20.10.34": Burada il, rumi təqvimlə verilmişdir (1334-cü il). Miladi təqvimlə 20 oktyabr 1918-ci ilə uyğundur.*

***Teleqraf xəbərləri***

*"Tiflis qəzetələrinin dərc etdiyi Almanya simsiz teleqraflarında deyilir ki, Müttəfiq dövlət əsgərlərinin...": burada Antanta bloku ölkələri nəzərdə tutulur.*

*"Müttəfiq Şura": Burada söhbət Almaniya İmperiyasının ali hakimiyyət orqanı olan Bundesratdan gedir.*

***Türkiyədə:***
***Türkiyə və müttəfiqlər***

*"N. T.": "Nyu-York Tayms" qəzeti nəzərdə tutulur.*

***Öz gözündə tiri görməz***

*"C. D.": bu imza Ceyhun bəy Hacıbəyliyə məxsusdur.*

***Təhlükə qarşısında***

*"Napoleon topu": Fransada 1853-cü ildə ixtira edilən odlu silah (top). Fransa prezidenti və imperatoru olan III Napoleonun şərəfinə adlandırılmışdır.*

***Bakı xəbərləri:***
***Bələdiyyə İdarəsinin Su şöbəsi***

*Bakı Bələdiyyə İdarəsi Su şöbəsinin şəhərdə su qiymətləri barəsində elanı həm qəzetin içində xəbər kimi, həm də qəzetin son səhifəsində elan kimi getmişdir. Xəbərin altındakı "Bələdiyyə naziri üzvü Su şöbəsi naziri: İbad Əliyev" imzası yanlışdır. Doğrusu, elanın altında göstərildiyi kimi "Bələdiyyə İdarəsi üzvü Su şöbəsi naziri İbad Əliyev" olmalıdır.*

*"20 təşrini-əvvəl 34": Burada il rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi təqvimlə 20 oktyabr 1918-ci ilə uyğun gəlir.*

***Xarici xəbərlər:***
***Quçkovun qətli***

*Lvov Kabinəsi: Rusiyada Müvəqqəti Hökumət dövründə Georgi Yevgenyeviç Lvovun (1861-1925) sədrliyində qurulan Nazirlər Kabineti (mart-iyul 1917) nəzərdə tutulur.*

***Xarici xəbərlər:***
***Saratovun təxliyəsi***

*"N. İ.": "Nijeqorodskiye izvestiya" qəzeti nəzərdə tutulur.*

# "Azercell" Telefon Mərkəzinin müştəri məmnuniyyəti indeksi 94 faiz təşkil edir

## Lider mobil operator cari ilin ilk altı ayında 2 milyondan çox müraciət cavablandırıb

**5 milyon abunəçinin seçimi olan "Azercell Telekom" MMC "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə uyğun olaraq müştərilərinə müxtəlif platformalar üzərindən yüksəksəviyyəli xidmət göstərməyə davam edir.**

Cari ilin birinci yarısının nəticələrinə əsasən, "Azercell" Telefon Mərkəzinin müştəri məmnuniyyəti səviyyəsi 94 faiz təşkil edib. Telefon mərkəzinə daxil olmuş 1,4 milyon zəng ortalama ilə 2 dəqiqə ərzində cavablandırılıb ki, bu da dünyada qəbul edilmiş 6 dəqiqə 10 saniyə standartı ilə müqayisədə çox yüksək göstəricidir.

Şirkət daha 500 minə yaxın sorğunu onlayn müştəri xidmətləri vasitəsilə, 125 minə yaxın müraciəti isə "Azercell"in rəsmi "Facebook", "Instagram", "Twitter", "LinkedIn" və "YouTube" səhifələri üzərindən qəbul edərək operativ şəkildə cavablandırıb.

Eyni zamanda sözügedən dövr ərzində "Azercell"in Ön Masa, Azercell Ekspres, Azercell Eksklüziv ofisləri, eləcə də Mobil Müştəri Xidmətləri vasitəsilə 400 minə yaxın abunəçiyə üz-üzə xidmət göstərilib.

Müştəri müraciətləri, əsasən, mobil internet xidmətləri, balans haqqında məlumat, ödəmə qaydaları və xidmətlərə qoşulma ilə bağlı olub.

Xatırladaq ki, "Azercell" müştərilərə göstərilən xidmət səviyyəsi və müraciətlərin cavablandırılması üzrə dəfələrlə beynəlxalq sertifikatlara layiq görülüb.

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
### *açıq tender elan edir*

**LOT - 1. Bakı şəhəri ərazisində yerləşən parklarda abadlıq işlərinin həyata keçirilməsinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki,öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 2000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 120 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **02 sentyabr 2022-ci il saat 12:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **12 sentyabr 2022-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **13 sentyabr 2022-ci il saat 12:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
### *açıq tender elan edir*

**LOT - 1. Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 2000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 120 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **02 sentyabr 2022-ci il saat 11:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **12 sentyabr 2022-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **13 sentyabr 2022-ci il saat 11:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının Yevlax və Quba şəhərində yerləşən ərazi idarələri binalarında istismar müddəti başa çatmış qaz tipli avtomatik yanğınsöndürmə sistemlərinin yenilənməsi və Bakı şəhəri Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasının server otağında yanğın təhlükəsizliyi ilə bağlı mal-materialların və işlərin satın alınmasına dair elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 18 iyul 2022-ci il tarixli qərarına əsasən, "ARSENAL YANĞINSÖNDÜRMƏ SİSTEMLƏRİ" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
### *qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
### *açıq tender elan edir*

**LOT - 1. Bakı Şəhər İcra Hakimiyyətinin inzibati binasının əsaslı təmir-bərpa işlərinin davam etdirilməsinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Həmçinin tenderdə iştirak etmək istəyən iddiaçıların Azərbaycan Milli Memarlıq ornamentləri ilə işləmə təcrübəsi, tarixi abidələrin bərpası işlərinin görülməsində təcrübəsi, o cümlədən fasad və daxili tərtibat işlərinin görülməsində təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu elektron satınalmalar üzrə vahid internet Portalından əldə edə bilərlər. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 1000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 45 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 75 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya;*
- *iddiaçının tender predmentinin icrası üçün texniki və kadr imkanları barəsində məlumat (inzibati sahəsi, işçi heyət, nəqliyyat vasitələri və digər avadanlıqlar);*
- *analoji işlərə dair müqavilələrin surəti;*
- *bərpa işlərində təcrübəsi olan azı 12 nəfər ixtisaslı kadrların (rəssam xəttat və digər işlər üzrə) olması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **02 sentyabr 2022-ci il saat 14:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **12 sentyabr 2022-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **13 sentyabr 2022-ci il saat 14:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəhbərliyi və şəxsi heyəti maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və universitetin kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əzizi

**FİRDOVSİ RÜSTƏM OĞLU ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və agentliyin kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ RÜSTƏM OĞLU ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və professor-müəllim heyəti Azərbaycan Kooperasiya Universitetinin Dünya iqtisadiyyatı kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor

**GƏNCƏLİ GƏNCİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5460
Sifariş 2045
Qiyməti 40 qəpik